RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 219 (9098) ŞƏNBƏ, 8 oktyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri

### Sankt-Peterburqun "Pulkovo-1" Hava Limanında qarşılanma



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün oktyabrın 7-də Sankt-Peterburq şəhərinə işgüzar səfər edib.

AZƏRTAC xəbər verir ki, Sankt-Peterburq şəhərinin "Pulkovo-1" Hava Limanında dövlətimizin başçısı İlham Əliyevi Sankt-Peterburqun qubernatoru Aleksandr Beqlov və digər rəsmi şəxslər qarşıladılar.

# İlham Əliyev milli maraqları qətiyyətlə təmin edir



## Praqada 5 saatdan artıq çəkən iki hissədən ibarət görüşlərdə sülh prosesinə təkan verildi

Prezident İlham Əliyevin Praqaya səfəri, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Fransa Prezidenti Emmanuel Makron və Ermənistanın baş naziri Nikol Paşinyanla dördtərəfli görüşləri, əldə olunmuş nəticələr qalib komandanın dünyada böyük nüfuzunun göstəricisi, Azərbaycanın milli maraqlarının təmin olunması istiqamətində həyata keçirdiyi ardıcıl və qətiyyətli siyasətin növbəti böyük uğuru oldu.

→ 3

## Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib



Oktyabrın 7-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyıb

Praqada Azərbaycan Prezidenti İlham Əliyevin Fransa Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşünün sonunda bəyanat qəbul edilib.

AZƏRTAC xəbər verir ki, bəyanat Yelisey sarayının rəsmi saytında dərc edilib.

Bəyanatda deyilir: "Ermənistan və Azərbaycan BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə sadiqliyini bir daha nümayiş etdirərək bir-birinin ərazi bütövlüyü və suverenliyini tanıyır. Tərəflər bildiriblər ki, bu, delimitasiya üzrə komissiyanın fəaliyyəti üçün əsasdır və komissiyanın növbəti iclası oktyabrın sonunda Brüsseldə keçirilməlidir.

Ermənistan Azərbaycanla sərhədə Aİ-nin mülki missiyasının göndərilməsinə razılıq verib. Azərbaycan da bu komissiya ilə əməkdaşlığa razılıq verib. Missiya işini oktyabrda başlayıb 2 ay müddətinə başa çatdıracaq".

## Milli ideyaya çevrilən zəfər və quruculuq

→ 5

## Azərbaycan dünyanı iki uğurla heyrətləndirib

→ 7

## "AZƏRBAYCAN" qəzeti külliyyatının IV cildi işıq üzü görüb

→ 6

## Ulu Öndərin yadigarı olan BDÖZ Azərbaycan iqtisadiyyatına yeni-yeni töhfələr bəxş edir





→ 10

# Prezident İlham Əliyev MDB dövlət başçılarının şərəfinə təşkil olunan qeyri-rəsmi naharda iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Rusiyanın Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının şərəfinə təşkil olunan qeyri-rəsmi naharda iştirak edib.

# Səfər başa çatdı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri oktyabrın 7-də başa çatıb.

# Prokurorluq orqanları beynəlxalq təşkilatlarla əməkdaşlığı uğurla davam etdirirlər

Oktyabrın 7-də baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) "Beynəlxalq Ticarət Əməliyyatlarında Rüşvətxorluq" İşçi qrupunun sədri Draqo Kos və OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin (ACN) meneceri Olqa Savranla görüşüb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, baş prokuror Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi, tapşırıq və tövsiyələri ilə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən ardıcıl və sistemli tədbirlər barədə məlumat verərək, aparılmış hüquqi və institusional islahatlar, milli antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi, yeni dövrün tələblərinə uyğun olaraq bu sahədə mühüm strateji sənəd olan "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın effektiv icra vəziyyəti, eləcə də qarşıda duran digər məsələlərə toxunub.

Səmimi görüşə görə minnətdarlığını ifadə edən qonaqlar Azərbaycanda həyata keçirilən antikorrupsiya islahatlarına dair müsbət fikirlərini bölüşüblər. Ölkəmizin OECD tərəfindən 5-ci raund çərçivəsində qiymətləndirilməsi prosesi, korrupsiyaya qarşı mübarizədə yeni çağırışlar və digər hüquqi məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

# İsveç mediası Qarabağda azərbaycanlıların basdırıldığı kütləvi məzarlıqlar barəsində yazıb

İsveç mediası Qarabağda azərbaycanlıların basdırıldığı kütləvi məzarlıqlar barəsində yazıb.

AZƏRTAC xəbər verir ki, İsveçin ən böyük qəzetlərindən olan "Aftonbladet", "Sydsvenskan", "Uppsala Nya Tydning" nəşrlərində və bir sıra internet portallarında yerləşdirilən informasiyalarda Qarabağda kütləvi əsgər məzarlığı aşkarlandığı qeyd edilib.

Yazılarda Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin tviterdəki paylaşımından da sitat gətirilib: "Edilli kəndində Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən işgəncələrə məruz qalan və öldürülən Azərbaycan hərbçilərinin kütləvi məzarlığı aşkarlanıb… 1990-cı illərdəki müharibədən bəri 4000 azərbaycanlı itkin düşüb".

Xəbərlərdə həmçinin qeyd olunur ki, Azərbaycan 17 hərbi əsiri ABŞ-ın vasitəçiliyi ilə Ermənistana qaytarıb.

# *ABŞ Dövlət Departamentinin nümayəndəsi:* "Sülh əldə etmək, yaraları sağaltmaq üçün günahkarlar məsuliyyətə cəlb olunmalıdır"

"Bu onilliklərlə davam edən münaqişənin səbəb olduğu insan itkiləri bizi dəhşətə gətirir və həlak olanların ailələrinə dərin hüznlə başsağlığı veririk. Bu münaqişə zamanı bir çox ailə yaxınlarını itirib".

AZƏRTAC xəbər verir ki, bunu ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patel Azərbaycanın Xocavənd rayonunun Edilli kəndində daha bir kütləvi məzarlığın aşkarlanmasına münasibət bildirərkən deyib.

O qeyd edib: "Təqsirkarlar cavab verməlidirlər. Sülh əldə etmək, yaraları sağaltmaq üçün günahkarlar məsuliyyətə cəlb olunmalıdır.

Biz "həqiqət və barışığ"ın təşviqi istiqamətində beynəlxalq səyləri dəstəkləməkdə davam edirik, bu proseslərin Azərbaycan ilə Ermənistan arasında davam edən sülh prosesi ilə paralel gedə biləcəyinə inanırıq".

# *Petr FİALA:* "Avropa ümidlərini Azərbaycana bağlayır"

Avropa Rusiya neftindən asılılığı azaltmaq cəhdlərində ümidlərini Norveç və Azərbaycana bağlayır. Bunu Çex Respublikasının Baş naziri Petr Fiala "Aİ-27" qeyri-formal sammitinin və Avropa Siyasi Birliyinin Zirvə Toplantısı çərçivəsində görüşün yekunlarına dair mətbuat konfransında bildirib.

AZƏRTAC xəbər verir ki, Baş nazir həmçinin Avropa ölkələrinin Rusiyadan enerji daşıyıcılarının təchizatından asılılığının azalmasına dair addım atdıqlarına görə Norveç və Azərbaycanın Avropanın güvəndiyi ölkələr olduğunu vurğulayıb.

"Anadolu" Agentliyinin xəbərinə görə, analoji bəyanatla Praqada Fransa Prezidenti Emmanuel Makron da çıxış edib. Onun sözlərinə görə, Azərbaycan və Norveç Avropada enerji mənbələrinin diversifikasiyası və onun Avropa dəyərlərinə uyğun olmayan xarici dövlətlərdən asılılığını azaltmaq üçün mühüm rol oynayır.

# Prezident İlham Əliyevin Praqa səfəri xarici KİV-in diqqət mərkəzindədir

















Azərbaycan Prezidenti İlham Əliyevin Çex Respublikasının Praqa şəhərində keçirilən Avropa Siyasi Birliyinin Zirvə Toplantısında iştirakı və dövlətimizin başçısının bu çərçivədəki digər fəaliyyətləri xarici ölkələrin aparıcı kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olub.

Türkiyənin "Anadolu" və "İHA" Xəbər agentlikləri, "TRT Haber", "TGRT", "TRT Avaz", "CNN Türk", "TRT Haber" və başqa telekanallar, "Milliyet", "Yeni akıt", "Star", "Sabah", "Posta" və digər qəzetlər başda olmaqla, ölkənin aparıcı media qurumları Azərbaycan dövlət başçısının Praqa səfərini və ona bağlı digər bütün prosesləri ana xəbər statusunda təqdim ediblər.

Praqada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Respublikasının Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü, dövlətimizin başçısının Azərbaycan televiziya kanallarına müsahibəsi, Azərbaycan və Türkiyə liderlərinin Praqada səmimi qardaşlıq münasibətləri ilə yenidən bir arada olmaları, zirvə çərçivəsindəki qeyri-rəsmi nüanslar da daxil olmaqla, digər mövzuları həssas şəkildə izləyən Türkiyə mediası yazır ki, Azərbaycan qətiyyətli mövqeyi ilə bölgəyə hamı üçün faydalı olan sülh və sabitlik gətirir.

Bəzi media qurumları Prezident İlham Əliyevin "Ümid edirəm ki, biz sülhə yavaş-yavaş yaxınlaşırıq" ifadəsini manşet xəbərlərin sərlövhəsi kimi təqdim ediblər.

❖ ❖ ❖

Ukraynanın "Ukrinform", "RBK-Ukrayna", "Obozrevatel", "Fokus", "Yevropeyskaya Pravda" və digər KİV-də dərc olunan məqalələrdə Praqada Azərbaycan və Ermənistan dövlət başçılarının böyük formatda görüşünün əhəmiyyəti qeyd olunub. Bildirilib ki, bu görüşlər Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasına ciddi töhfə verəcək.

Məqalələrdə həmçinin Prezident İlham Əliyevin Azərbaycan telekanallarına verdiyi müsahibəsində sülh sazişinə dair səsləndirdiyi fikirlər də yer alıb.

❖ ❖ ❖

Moldovanın "Noi", "Dosarmedia", "Timpul" və digər xəbər portallarında dərc olunan məqalələrdə Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Ermənistanın baş naziri Nikol Paşinyanla birgə görüşləri tarixi hadisə adlandırılıb.

Bundan başqa, məqalələrdə Praqada Azərbaycan Prezidenti İlham Əliyevin Fransa Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşünə, dövlətimizin başçısının telekanallara müsahibəsindəki fikirlərinə geniş yer verilib.

❖ ❖ ❖

Yaponiyanın "ajmedia.jp" portalı Azərbaycan Prezidenti İlham Əliyevin Praqa səfəri, ilk dəfə təşkil edilən Avropa Siyasi Birliyinin Zirvə Toplantısı çərçivəsində "Avropa qitəsində sülh və təhlükəsizlik" mövzusunda "dəyirmi masa"da çıxışı və keçirdiyi görüşlər barədə ətraflı məlumatlar yayıb.

Yapon və ingilis dilində yayılan məlumatlarda Prezident İlham Əliyevin Praqada Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Fransa Prezidenti Emmanuel Makron və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşləri və əldə edilən razılaşmalar əksini tapıb. Praqada keçirilən görüşlərin Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması istiqamətində mühüm addım olduğu vurğulanıb.

Yazılarda qeyd edilir ki, Avropa İttifaqı iki ölkə arasında sərhədlərin demarkasiyası məsələsində öz dəstəyini irəli sürüb. Azərbaycan Prezidentinin dəfələrlə bəyan etdiyi dayanıqlı sülhə nail olmağın əsas şərtləri kimi Ermənistanın öz öhdəliklərini yerinə yetirməsi, ölkələrin ərazi bütövlüyünün tanınması, nəqliyyat dəhlizlərinin açılması barədə fikri də yer alıb.

Azərbaycan, Türkiyə və Ermənistan liderlərinin Praqa sammiti çərçivəsində qeyri-formal formatda keçirdiyi görüş barədə məlumatlar da əksini tapıb.

Bununla yanaşı, Prezident İlham Əliyevin Azərbaycan KİV-inə müsahibəsi və burada səsləndirdiyi fikirlərə də yer verilib.

❖ ❖ ❖

Gürcüstanın "İnterpressnews.ge", "24news.ge", "apsny.ge", "newsgeorgia.ge", "kavkasia.net", "aktual.ge", "interpress.ge" informasiya portalları və digər mətbuat orqanlarında silsilə materiallar dərc olunub.

Azərbaycan, rus, ingilis və gürcü dillərində dərc olunan materiallarda oxuculara Prezident İlham Əliyevin Cənubi Qafqazda sülh və sabitliyin təmin olunması baxımından Azərbaycan-Gürcüstan-Ermənistan formatında vahid müzakirə platformasının yaradılması, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması və digər məsələlərlə bağlı fikirləri çatdırılır.

Prezident İlham Əliyevin çıxışlarından verilən sitatlarda deyilir: "Öz öhdəliyini pozmaq - əlbəttə, son dərəcə biabırçı faktdır. Lakin biz hələ səbir göstəririk, təmkin göstəririk. Əminəm, biz buna da nail olacağıq, yaxşı olardı ki, gec deyil, tez olsun".

Eyni zamanda materiallarda o da bildirilir ki, beş prinsiplə bağlı nə erməni tərəfinin, nə də Avropa Şurasının heç bir sualı yoxdur.

❖ ❖ ❖

Ərəb ölkələrinin nüfuzlu "Əl Ərəbiyə", "Əl Hadat", "Əl Cəzirə", "SkyNews Arabia", "Əl Məmləkə" telekanallarında yayımlanan reportajlarda Praqada keçirilən görüşlərin Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması istiqamətində mühüm addım olduğu vurğulanıb.

Diqqətə çatdırılıb ki, Avropa İttifaqı iki ölkə arasında sərhədlərin demarkasiyası məsələsində öz dəstəyini irəli sürüb. Eyni zamanda Azərbaycan Prezidenti dəfələrlə bəyan edib ki, dayanıqlı sülhə nail olmağın əsas şərtləri Ermənistanın öz öhdəliklərini yerinə yetirməsi, ölkələrin ərazi bütövlüyünün tanınması, nəqliyyat dəhlizlərinin açılmasıdır.

Praqa görüşləri haqqında xəbərlər ərəb ölkələrinin nüfuzlu qəzet və portallarında da yer alıb. "Aşarq", "Əl Əhram", "Əl Raimedia", "Ən Naşra" və digər media orqanları Avropa İttifaqının vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında dayanıqlı sülhə nail olunması istiqamətində səylərin Cənubi Qafqaz regionunun təhlükəsizliyi baxımından böyük əhəmiyyətini vurğulayıblar.

Xəbərlərdə Azərbaycan, Türkiyə və Ermənistan liderlərinin Praqa sammiti çərçivəsində qeyri-formal görüş keçirdikləri də diqqətə çatdırılıb.

***AZƏRTAC***

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər. Tərtib edilən qəbul cədvəlinə müvafiq olaraq kənd təsərrüfatı naziri İnam Kərimov oktyabrın 7-də Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Neftçala, Salyan və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Sonra nazir İnam Kərimov Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub, fermerlərə informasiya məsləhət xidmətinin göstərilməsində iştirak edən Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşüb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 47 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə subsidiya, güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə, torpaqların təyinatının dəyişdirilməsi və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

* * *

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov Oğuz rayonunda vətəndaşları qəbul edib.

Agentliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən xəbərə görə, qəbulda Oğuzdan olan vətəndaşlarla yanaşı, Şəki sakinləri də iştirak ediblər. Ümumilikdə 15 vətəndaşın qatıldığı qəbulda müraciətlər əsasən fərdi ev, avtomobil təminatı, sanatoriya-kurort yollayışları ilə təminat və agentliyin fəaliyyətinə dair digər məsələlərlə bağlı olub.

İmtiyazlı şəxs kateqoriyasından olan qəbul iştirakçılarının müraciətləri ilə bağlı sualları cavablandırılıb, xüsusi araşdırma tələb edən müraciətlərin həll edilməsi ilə bağlı müvafiq göstərişlər verilib.

* * *

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov oktyabrın 7-də Şəki Suvarma Sistemləri İdarəsinin inzibati binasında Şəki, Qax və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

***AZƏRTAC***

# Azərbaycanın növbəti diplomatik zəfəri



# İlham Əliyev milli maraqları qətiyyətlə təmin edir

## Praqada 5 saatdan artıq çəkən iki hissədən ibarət görüşlərdə sülh prosesinə təkan verildi

*Əvvəli 1-ci səh.*

5 saatdan artıq keçirilən 2 görüş əvvəlkilərdən fərqliliyi və xüsusi ştrixləri ilə fərqləndi. İlham Əliyevin bu görüşə qədər əldə etdiyi diplomatik uğurlarının nəticəsi olaraq bir sıra mühüm razılaşmalara gəlindi. Ən əsası isə odur ki, yekunda qəbul edilmiş bəyanata əsasən Ermənistan Qarabağ üzərində Azərbaycanın hakimiyyətini tanıdığını dilə gətirmək məcburiyyətində qaldı.

Qəbul edilmiş bəyanat da isbat etdi ki, danışıqlar tam olaraq rəsmi Bakının diktəsi fonunda keçib və sənəd Azərbaycanın istəklərinə uyğun formada qəbul olunub. Belə ki, Azərbaycan və Ermənistan bir-birilərinin ərazi bütövlüyü və suverenliyini tanıdılar və bu xüsusda BMT Nizamnaməsi əsas sənəd kimi götürüldü. Faktiki olaraq bu həm də o deməkdir ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

Azərbaycanın televiziya kanallarına müsahibəsində İlham Əliyev bildirdi ki, indiyədək Brüsseldə keçirilən görüşlərdə tərəflər hər dəfə sülhə daha da yaxınlaşıb. Praqa görüşlərində isə sülh prosesinə artıq təkan verilib.

### 44 ölkənin dövlət və hökumət başçılarını bir araya toplayan Avropa Siyasi Birliyi

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Çex Respublikasının Baş naziri Petr Fialanın dəvəti ilə Praqaya səfər edən İlham Əliyev Avropa Siyasi Birliyinin Zirvə Toplantısında iştirak etdi və "Avropa qitəsində sülh və təhlükəsizlik" mövzusunda keçirilən "dəyirmi masa"da çıxış edərək bir daha Ermənistanın 30 il ərzində işğal etdiyi torpaqlarımızda törətdiyi vandalizmi və hazırkı Azərbaycan reallıqlarını dünyaya bəyan etdi.

Qeyd edək ki, Avropa Siyasi Birliyi qitənin ölkələri arasında siyasi əlaqələndirmə platformasıdır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.

Zirvə toplantısında ümumilikdə 44 ölkənin dövlət və hökumət başçıları iştirak ediblər. İlk dəfə keçirilən Avropa Siyasi Birliyinin Zirvə Toplantısı Avropa ölkələrinin liderlərini bərabərhüquqlu şəkildə və birlik ruhunda bir araya gətirir.

Çexiya səfərində İlham Əliyev ilk olaraq Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ilə görüşdü. Ermənistan-Azərbaycan əlaqələrinin normallaşdırılması istiqamətində Brüssel görüşlərinin əhəmiyyətini qeyd edən İlham Əliyev Şarl Mişelə vasitəçilik missiyasına görə təşəkkürünü bildirdi. Dövlət başçısı Azərbaycanın Brüssel formatını dəstəklədiyini qeyd etdi. Söhbət zamanı gələn ay Brüsseldə keçirilməsi nəzərdə tutulan üçtərəfli görüşün gündəliyi müzakirə olundu.

### Praqada danışıqların növbəti mərhələsi nəticəsiz ötüşmədi

Ümumiyyətlə, bundan öncə də keçirilən bütün görüşlər İlham Əliyevin diktəsi altında reallaşıb. Ermənistan Azərbaycan Prezidentinin sülh müqaviləsinin imzalanması istiqamətində irəli sürdüyü 5 prinsipi qəbul edib.

Lakin Ermənistanın aparılan danışıqlardan sonra törətdiyi təxribatlar danışıqlar prosesinin gedişatına ciddi maneə yaradırdı. Düzdür, Azərbaycan bütün təxribatlara istənilən formada cavab verərək düşməni geri çəkilməyə məcbur edibdir. Amma bu təxribatlar göstərirdi ki, Ermənistan yenə də vaxt udmaq, prosesləri öz xeyrinə çevirmək üçün oyunlar oynayır.

Havadarlarına arxalanan bu ölkənin, əslində, niyyəti bəllidir. Ermənistan yenə də "status" məsələsini gündəmə gətirməklə Azərbaycanı hiddətləndirmək və prosesləri öz xeyrinə dəyişmək məqsədi güdür. Elə Praqada keçirilən danışıqlarda Fransa Prezidenti Emmanuel Makronun iştirakı da buna hesablanmışdı. Fransanın ənənəvi ermənipərəst siyasətini nəzərə alsaq, Praqada keçirilən dördtərəfli görüşdə Azərbaycan üçün müxtəlif tələ və hiylələrin hazırlandığını güman etmək olardı. Paşinyan Fransanın da iştirak etdiyi görüşlərdə özünü həmişə güvənli hiss edir. Fransa tərəfi Ermənistanı dəstəklədiyini heç bir zaman gizlətmir.

Güman edilirdi ki, Ermənistan və Fransa sərhəddə baş vermiş insidentlərə görə Azərbaycana təzyiq göstərəcəklər. Amma İlham Əliyevin qətiyyəti və prinsipiallığı buna imkan vermədi - 5 saatdan artıq çəkən və 2 hissədən ibarət olan görüşdə Azərbaycana qarşı hər hansı bir formada təzyiq cəhdinin qarşısı alındı.

Görüşün sonunda bəyanat qəbul edildi və sənəd Yelisey sarayının rəsmi saytında dərc olundu. Bəyanatda deyilir: "Ermənistan və Azərbaycan BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə sadiqliyini bir daha nümayiş etdirərək bir-birinin ərazi bütövlüyü və suverenliyini tanıyır. Tərəflər bildiriblər ki, bu, delimitasiya üzrə komissiyanın fəaliyyəti üçün əsasdır və komissiyanın növbəti iclası oktyabrın sonunda Brüsseldə keçirilməlidir. Ermənistan Azərbaycanla sərhədə Aİ-nin mülki missiyasının göndərilməsinə razılıq verib. Azərbaycan bu komissiya ilə əməkdaşlığa razılıq verib. Missiya işini oktyabrda başlayıb 2 ay müddətinə başa çatdıracaq".

Bəyanatda qeyd edildiyi kimi, Azərbaycan və Ermənistan bir-birilərinin ərazi bütövlüyü və suverenliyini tanıdılar və bu xüsusda BMT Nizamnaməsi əsas sənəd kimi götürüldü. Faktiki olaraq bu o deməkdir ki, Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu bir daha təsdiq edildi. Ermənistan Qarabağ üzərində Azərbaycanın hakimiyyətini tanıyır.

Aİ və Fransa Azərbaycan ərazilərini də əhatə edəcək birgə sərhəd monitorinq missiyası yaradıb bundan regiona daxil olmaq üçün istifadə etmək istəyirdilər. Amma öz suverenliyinə dəyər verən Azərbaycan buna etiraz etdi. Azərbaycanın qəti mövqeyindən sonra belə razılaşdırılıb ki, monitorinq missiyası yalnız Ermənistan ərazisində olacaq. Azərbaycan isə öz maraqlarına uyğun şəkildə missiya ilə əməkdaşlıq edəcək, sərhəd missiyası etimad quruculuğuna və sərhədlərin delimitasiyasına töhfə və dəstək verəcək.

Bu görüşlərdə sərhədlərin delimitasiyası üzrə komissiyanın iclasının tezliklə keçirilməsi də razılaşdırıldı.

Beləliklə, Azərbaycanın maraqları Prezident İlham Əliyev tərəfindən layiqincə qorundu. Ermənistan isə bu sərhəd missiyasına razılıq verməklə suveren dövlət olmadığını bir daha göstərdi.

Bəyanatda Zəngəzur dəhlizi ilə bağlı məsələnin olmaması onunla bağlıdır ki, bu məsələ 2020-ci il 10 noyabr Bəyanatı ilə tənzimlənir. Hər zaman aktual olan və onun reallaşdırılması istiqamətində işlərin davam etdirilməsi Azərbaycanın bu məsələdə nə qədər israrlı olduğunu göstərir.

Eyni zamanda Azərbaycan bütün imkanlardan istifadə etməklə Ermənistanı öhdəliklərinin icrasına məcbur edir və görünən odur ki, bu proses məntiqi sonluğa kimi davam etdiriləcək.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Praqa görüşünə İrəvandan cavab reaksiyası:

## "Sülh sazişi Ermənistanın xilası olacaq"

İkinci Qarabağ müharibəsinin qalibi və məğlubu arasında aparılan sülh danışıqları, götürülmüş öhdəliklərin yerinə yetirilməsi istiqamətində görülən işlərin vəziyyəti bu dəfə oktyabrın 6-da Çex Respublikasının paytaxtı Praqada nəzərdən keçirildi. Həm Brüssel, həm də Praqa görüşündə məğlub və çarəsiz olan Nikol Paşinyandan fərqli olaraq, İlham Əliyev qalib və postmüharibə dövründə mövqeyini daha da möhkəmləndirmiş lider kimi göründü.

Praqa görüşü İrəvanda da böyük reaksiyaya səbəb olub. Erməni mediasının, sosial şəbəkə istifadəçilərinin statusları, şərhləri və mövqelərindən görünür ki, onlar ölkələrinin xilas formulunu Azərbaycanla münasibətləri normallaşdırmaqda, sülh müqaviləsinin imzalanmasında görürlər.

"İravunk" qəzeti yazır ki, dövlət başçılarının son Praqa görüşlərində aparılan danışıqlar fonunda bir daha nümayiş olundu ki, Azərbaycanla sülh müqaviləsinin imzalanması Ermənistan üçün böyük şansdır: "Daha dəqiq desək, bu səfər İlham Əliyevin yeni qələbəsi, erməni xalqının dirçəliş günüdür. Sülh sazişi Ermənistana qarşıdakı illərdə böyük iqtisadi dividendlər qazandıracaq. Son 10 ilə nəzər yetirdikdə baş verən proseslər regionda Azərbaycanın mövqelərini daha güclü hala gətirdiyi halda, Ermənistanla münasibətdə tamam əks vəziyyət müşahidə olunurdu. Hər halda dövlət başçılarının son görüşü, qəbul edilən qərarlar Ermənistanın xilası olacaq".

Erməni siyasi ekspert Vazgen Vahenyan qeyd edir ki, Praqadakı görüşlərin çox səmərəli keçdiyini qəbul edilən bəyanatdan da anlamaq olur. Sülh sazişi Ermənistanın sanki dünyaya yenidən gəlməsi olacaq. Onun fikrincə, müharibədəki məğlubiyyət fonunda sülh müqaviləsi imzalanmasa, Ermənistanın regional geosiyasi proseslərdən izolyasiya edilməsi daha kəskin xarakter alacaq. Vahenyan diqqəti buna yönəldir ki, bütün bu proseslər Ermənistanın sosial-iqtisadi cəhətdən daha böyük problemlər yaşaması fonunda baş verir: "Regional, qlobal layihələrdən kənarda qalmağımız da prosesə birbaşa təsir edir. Ermənistan qlobal kommunikasiya layihələrindən kənarda qalmaqla son 30 ildə özünə qəsd edib. Ölkəmiz coğrafi baxımdan qlobal kommunikasiyaların tərkib hissəsi ola bildiyi halda, bu şansı itirmişdi. Sülh müqaviləsindən sonra Ermənistan qazanacaq".

Araik Avetisyan adlı istifadəçi tviterdə "Praqada səmərəli görüş" paylaşımını edərək yazıb: "Paşinyan boş yerə Praqaya, Moskvaya, Brüsselə nəyə gedir ki, onsuz da İlham Əliyev nə deyirsə o olur. Sülhü görəsən bizim baş nazirimiz niyə istəmir ki? Özüm Sünikdənəm (Zəngəzur-red.) Sünik bu anda regionun geosiyasi mərkəzidir. İlham Əliyevi bu mövzuda biz də dəstəkləyirik. Sülh müqaviləsinin imzalanmasını, dəhlizin açılmasını çox böyük səbirsizliklə gözləyirik. Sülhlə ağ günə çıxa bilərik".

Daha bir Ermənistan vətəndaşı Karen İvanyan isə tviterdə belə bir status paylaşıb: "Nikol Paşinyana məsləhət görərdim ki, İlham Əliyevin verdiyi bəyanatlara diqqətlə qulaq assın. Müharibədəki səhvlərini təkrar etməsin. Xilasımız sülh müqaviləsidir".

Feysbuk sosial şəbəkə istifadəçisi, ixtisasca iqtisadçı olduğunu qeyd edən Manvel Levonyan yazır ki, illərdir dediyimiz gerçəkləşmək üzrədir. Nəhayət, yolumuz açılır, deyəsən, işıqlı günlərə çıxırıq: "Qarabağ problemi Ermənistanı 30 ildən çox bütün layihələrdən təcrid etdi. 30 ildə itirdiklərimizin hesabatını kim verəcək? Sarkisyan, Koçaryan, çıxın xalqa hesabat verin! Görəcəksiniz, sülh sazişi Ermənistanın xilası olacaq".

Digər feysbuk istifadəçisi Henrix Qriqoryan isə video paylaşımında deyib ki, müharibədən sonra yaranan iqtisadi böhran Ermənistanda insanları acınaqlı vəziyyətlə üz-üzə qoyub: "Evlərini satanlar, hətta intihar edənlər də olub. Paşinyan, bir vətənini sevən erməni kimi sizə müraciət edirəm ki, sülh müqaviləsini uzatmayın. Xalqın taleyi əvvəlki hökuməti maraqlandırmadı. İlham Əliyevin bu xüsusda atdığı addımlara "hə" deməkdən başqa çarəniz yoxdur".

Beləliklə, Prezident İlham Əliyev seçim üçün Ermənistan rəhbərliyinə növbəti dəfə şans verir. İrəvanın təcrid vəziyyətdə qalaraq inkişaf etməsi mümkünsüzdür və ötən zaman bunu çox aydın göstərib. Bütün baş verənlərə baxmayaraq, Azərbaycan istənilən halda sülh müqaviləsinin imzalanmasına nail olacaq. Bu, kimsənin müqavimət göstərə bilməyəcəyi qarşısıalınmaz prosesdir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Leyla Abdullayeva Fransa xarici işlər nazirinin Azərbaycana qarşı ittihamlarına cavab verib



"Oktyabrın 5-də Fransa Milli Assambleyasının ermənipərəst üzvünün Azərbaycana qarşı ittiham dolu və Ermənistana daha çox dəstək göstərilməsi ilə bağlı sualını cavablandıran Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonna erməni xalqı ilə həmrəy olduqlarını səsləndirib və Azərbaycanla bağlı tamamilə əsassız çağırışlar edib".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Fransa xarici işlər nazirinin söylədiklərinə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, ilk dəfə deyil ki, Fransa rəsmiləri tərəfindən birtərəfli və ermənipərəst mövqe nümayiş etdirilir. Nazir Kolonnanın Ermənistan tərəfinin bu günədək törətdiyi çoxsaylı müharibə cinayətlərinin, insanlıq əleyhinə cinayətlərin araşdırılması ilə bağlı heç bir çağırış etməməsi də diqqətdən yayınmır.

"Təəssüf ki, son 30 ildə Fransa rəsmiləri tərəfindən Ermənistanın törətdiyi hərbi cinayətlərlə bağlı bir dəfə də olsun çağırış edilməyib. Səbəbi bizə bəllidir, lakin yaxşı olardı ki, Avropanın aparıcı qüvvəsi olan, beynəlxalq hüququn prinsiplərinin keşikçisi qismində çıxış edən, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesində vasitəçi olmaq istəyən bir ölkənin rəsmisi neytral, qərəzsiz və ədalətli mövqedən çıxış etsin.

Ümumiyyətlə, Fransa Prezidenti Emmanuel Makronun Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsi prosesinə töhfə vermək səyləri fonunda nazir K.Kolonnanın birtərəfli və məsuliyyətsiz bəyanatı anlaşılmazlıq doğurur.

Onu da bildirmək istərdik ki, bir neçə gündən sonra 2 il bundan öncə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə şəhərinin raket hücumuna məruz qalmasının və onlarla dinc insanın həyatına son qoyulmasının ikinci ildönümü olacaq. Bu hərbi cinayətə görə Ermənistan tərəfindən bu günədək heç kim məsuliyyətə cəlb edilməyib. Fransa xarici işlər nazirini bu məsələ ilə bağlı Ermənistan tərəfinə çağırış etməyə dəvət edirik", - deyə Leyla Abdullayeva vurğulayıb.

# Kəlbəcər və Daşkəsəndə aşkar olunan növbəti minalar zərərsizləşdirilib




Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən aparılan minatəmizləmə fəaliyyəti nəticəsində Kəlbəcər və Daşkəsən rayonları ərazisində düşmən tərəfindən basdırılan növbəti minalar aşkar edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Kəlbəcər rayonu ərazisində 79 ədəd "PMN-G" tipli piyada əleyhinə, 2 ədəd "TM-62M" tipli tank əleyhinə mina, Daşkəsən rayonu ərazisində isə 53 ədəd "PMN-G" tipli piyada əleyhinə mina və 4 ədəd "OZM-72" tipli piyada əleyhinə qəlpəli mina təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.

Qeyd edək ki, beynəlxalq humanitar hüquqa əsasən, 1997-ci ildə qəbul edilmiş Ottava müqaviləsi piyada əleyhinə minaların istehsal edilməsi, saxlanılması, daşınması və istifadəsini qadağan edir.

Buna baxmayaraq, azad edilmiş ərazilərimizdə Vətən müharibəsindən sonra Ermənistanda istehsal olunan xeyli sayda minalar aşkarlanıb. Xüsusilə insan tələfatı məqsədilə basdırılan piyada əleyhinə minalar həm mülki vətəndaşların, həm də hərbi qulluqçuların həyatına ciddi təhlükə yaradır.

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri ərazilərimizin minalardan təmizlənməsi üzrə fəaliyyətlərini davam etdirirlər.

# Regionlarda şəhid ailələri və müharibə əlillərinə 60 fərdi ev təqdim olunub

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun tarixi Zəfərlə başa vurduğu 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə şəhid ailələri və müharibə əlilləri ilə bağlı genişmiqyaslı sosial dəstək tədbirləri həyata keçirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, həmin tədbirlərin davamı olaraq bu gün ölkənin 24 rayonunda (Biləsuvar, Sabirabad, Zərdab, Salyan, Beyləqan, Ağsu və digər) 60 fərdi ev şəhid ailələri və müharibə əlillərinə təqdim olunub.

Biləsuvar rayonunda şəhid ailələri və müharibə əlillərinə yeni fərdi evlərin sənədlərini əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev və Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov təqdim ediblər.



Qeyd olunub ki, xalqımıza möhtəşəm Zəfər sevinci bəxş edən qəhrəman şəhidlərimizin ailələrinə, müharibədə sağlamlıqlarını itirən igid hərbi qulluqçularımıza daim xüsusi diqqət və qayğı göstərilir. Onların sosial müdafiəsi, o cümlədən mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində ardıcıl olaraq mühüm addımlar atılır.

Bunun daha bir təsdiqi olaraq 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramı 5 dəfə genişləndirilib.

Bu gün ölkəmizin müxtəlif bölgələrində təqdim edilən 60 fərdi ev də daxil olmaqla şəhid ailələri və müharibə əlillərinə postmüharibə dövründə 3 min 900, ümumilikdə ötən dövrdə 12 min 900-dən çox mənzil və fərdi ev verilib.

Şəhid ailələri və müharibə əlillərinə bu il üzrə 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub ki, artıq 900-dən çoxu təqdim edilib. Onlardan 500-ü regionlarda inşa edilən fərdi evlərdir. Yeni fərdi evlərdə ailələrin rahat yaşaması üçün hər cür şərait yaradılıb.

Fərdi evlərlə təmin edilən şəhid ailələri və müharibə əlilləri diqqət və qayğı ilə əhatə olunduqlarına, bu gün yeni evlərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# Spiker Sahibə Qafarova Cənubi Afrika Respublikası Milli Assambleyasının Sədri ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova İndoneziyanın paytaxtı Cakartaya işgüzar səfəri çərçivəsində oktyabrın 7-də Cənubi Afrika Respublikası Milli Assambleyasının Sədri Nosivive Mapisa-Nqakula ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova Milli Assambleya Sədrini səmimiyyətlə salamlayaraq, onunla yenidən görüşməkdən məmnunluğunu bildirib. O, cari ildə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakıda keçirilən konfransı çərçivəsində Nosivive Mapisa-Nqakula ilə keçirilən görüşünü xatırladaraq, Milli Assambleya Sədrinin həmin tədbirdə iştirakını yüksək qiymətləndirib. Qeyd edib ki, Cənubi Afrika Respublikası Milli Assambleyası Parlament Şəbəkəsinin Madriddə keçirilən təsis yığıncağında da iştirak edib. Spiker Sahibə Qafarova Parlament Şəbəkəsinin növbəti konfransında təşkilatın institusional inkişafı baxımından mühüm məsələlərin müzakirəsinin nəzərdə tutulduğunu qeyd edərək, bu təşkilat çərçivəsində əməkdaşlığın önəmini diqqətə çatdırıb.

Milli Məclisin Sədri qeyd edib ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. Azərbaycanın dövlət başçısı Parlament Şəbəkəsinin cari ildə Bakıda keçirilən birinci konfransında çıxış edərək təsisatın inkişafı və fəaliyyətinin genişləndirilməsi, Qoşulmama Hərəkatına üzv ölkələrin parlamentariləri arasında qarşılıqlı əlaqə və əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı dəyərli fikirlərini bildirib. Sahibə Qafarova inamını ifadə edib ki, Parlament Şəbəkəsi çoxtərəfliliyi, dialoqu və parlamentlərarası əməkdaşlığı təşviq etmək üçün mühüm platformaya çevriləcək. Bu şəbəkə üzv parlamentlərin birgə fəaliyyətinin əlaqələndirilməsinə, ölkələrimizin səsinin beynəlxalq aləmdə eşidilməsinə, qarşılıqlı maraq doğuran məsələlərin həllinə töhfə verə biləcək təsisatdır.

Milli Məclisin Sədri görüşdə Azərbaycan Prezidentinin təşəbbüsü ilə Gənclər Şəbəkəsinin bazasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatının təsis olunması, COVID-19 pandemiyası ilə mübarizəyə dair BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi, COVID-19 peyvəndlərinə bərabər, əlverişli, vaxtında və universal çıxışın təmin edilməsinə dair qətnamələrin qəbulu, pandemiyadan sonrakı dövr üçün qlobal tədbirlərə dair tövsiyələrin hazırlanmasına diqqəti yönəldən COVID-19-dan sonra Qlobal Bərpa üzrə BMT-nin Yüksək Səviyyəli Panelinin yaradılması təşəbbüsü barədə məlumat verib.

Cənubi Afrika Respublikası Milli Assambleyasının Sədri Nosivive Mapisa-Nqakula Milli Məclisin Sədri ilə görüşməkdən məmnunluğunu ifadə edərək cari ildə Parlament Şəbəkəsinin Bakı konfransında iştirak etmək məqsədilə ölkəmizə səfərini xatırladıb. O, konfransın yüksək səviyyədə təşkil olunduğunu, ölkəmizdən xoş təəssüratlarla ayrıldığını bildirib. O, təşkilatın Manamada keçiriləcək konfransında da iştirak edəcəklərini bildirib. Qoşulmama Hərəkatının Cənubi Afrika Respublikası üçün mühüm bir platforma olduğunu deyən assambleyanın sədri hərəkatın Parlament Şəbəkəsinin yaradılmasının da mühüm bir təşəbbüs olduğunu qeyd edib. O, şəbəkənin fəaliyyətinə hər cür dəstək göstərməyə hazır olduqlarını söyləyib.

Görüşdə parlamentlərarası əlaqələrin genişləndirilməsi imkanları barədə müzakirələr aparılıb, dostluq qruplarının əməkdaşlığın inkişaf etdirilməsində əhəmiyyəti vurğulanıb, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova "Böyük iyirmilik" Ölkələri Parlament Sədrlərinin 8-ci Sammiti çərçivəsində bir sıra görüşlər keçirib









Milli Məclisin Sədri Sahibə Qafarova İndoneziyanın paytaxtı Cakarta şəhərində keçirilən "Böyük iyirmilik" Ölkələri Parlament Sədrlərinin 8-ci Sammiti çərçivəsində bir sıra görüşlər keçirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Parlamentlərarası İttifaqın Prezidenti Duarte Paçeko, İndoneziya Respublikasının Nümayəndələr Palatasının Sədri Puan Maharani, Avstraliya Nümayəndələr Palatasının spikeri Milton Dik, Ukrayna Ali Radası Sədrinin müavini Olena Kondratyuk və Kamboca parlament nümayəndə heyətinin rəhbəri Suos Yara ilə görüşlərdə Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti, təşkilatın qarşısında duran vəzifələr haqqında geniş məlumat verilib.



Görüşlərdə ölkələrimizin qanunverici orqanları arasında əməkdaşlıq, parlament təşkilatları ilə əlaqələrin genişləndirilməsi barəsində də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*



# Milli Məclisin İnsan hüquqları komitəsinin iclası olub

Oktyabrın 7-də Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib.

Komitənin sədri Zahid Oruc iclası açaraq gündəliyə "İnsan alverinə qarşı mübarizə haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin və "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsinin daxil edildiyini deyib.

Əvvəlcə "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə (ikinci oxunuş) baxılıb. Bildirilib ki, qanunun 7.2-ci maddəsinə təklif olunan əlavəyə görə, Milli Fəaliyyət Planı iştirakçılarının fəaliyyətinin əlaqələndirilməsi Milli Koordinator yanında ictimai əsaslarla fəaliyyət göstərən işçi qrup vasitəsilə həyata keçirilir. İşçi qrupun tərkibi, təşkili və fəaliyyət qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Komitə sədri Zahid Oruc "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, qanun layihəsi insan hüquqları və azadlıqları sahəsində dövlət siyasətinin məqsəd və prinsiplərinə xidmət etməklə, müvəkkilin bu sahədə fəaliyyətinin təkmilləşdirilməsinə və effektivliyinin artırılmasına, müsbət beynəlxalq təcrübənin ölkəmizdə tətbiqinə, bununla da təsisatın beynəlxalq nüfuzunun artırılmasına töhfə vermək məqsədi daşıyır.

Qanun layihəsində təklif edilən bir qrup dəyişikliklər isə ölkədə aparılan islahatlar nəticəsində dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi, dövlət orqanlarının və qurumlarının fəaliyyətinin optimallaşdırılması və dövlət büdcəsi vəsaitindən səmərəli istifadənin təmin edilməsi məqsədilə hazırlanıb.

Müzakirələrdə çıxış edən komitə sədrinin müavini Tahir Kərimli, komitə üzvləri Fazil Mustafa, Razi Nurullayev, Elşad Mirbəşiroğlu, Naqif Həmzəyev, Elman Nəsirov, Bəhruz Məhərrəmov, Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid qanun layihəsi barədə fikirlərini açıqlayıb, suallarını, qeydlərini və təkliflərini səsləndiriblər.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Aparatı rəhbərinin müavini Rəşid Rumzadə iclasda qaldırılan məsələlərə münasibət bildirib. Qeyd edib ki, qanun layihəsi hazırlanarkən bir çox ölkələrin qanunvericilik təcrübəsi nəzərdən keçirilib. Eyni zamanda Milli Məclisin komitə iclaslarında qaldırılan məsələlərin, eləcə də parlamentdə deputatlar tərəfindən səsləndirilən təkliflərin bir çoxu burada nəzərə alınıb. Konstitusiya qanununa təklif edilən dəyişikliklər müvəkkilin konstitusion səlahiyyətlərinin icrasındakı mövcud praktiki çətinliklərin aradan qaldırılmasına, pozulmuş hüquq və azadlıqların daha operativ və effektiv qaydada bərpa olunmasına xidmət edəcək.

Müzakirələrin sonunda deputatlar gündəlikdəki qanun layihələrini baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

*"Azərbaycan"*

# Ombudsmanın səlahiyyətləri bir qədər də genişləndirilir

Oktyabrın 7-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib. Milli Məclis Sədrinin birinci müavini, komitənin sədri Əli Hüseynli diqqətə çatdırıb ki, iclasın gündəliyinə 17 məsələ daxil edilib.

Sonra Əli Hüseynli gündəliyin birinci məsələsi - "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi (birinci oxunuş) ilə əlaqədar fikirlərini açıqlayıb. Bildirib ki, 2001-ci ildə "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul edilib. Hər il insan hüquqları üzrə müvəkkilin parlamentdə məruzəsi dinlənilir, digər hakimiyyət orqanları ilə sıx əməkdaşlıq edir, bundan əlavə beynəlxalq təşkilatlarda səmərəli fəaliyyət göstərir. O, ötən müddət ərzində bir sıra qanunların qəbul edildiyini və insan hüquqları üzrə müvəkkilin səlahiyyətlərinin genişləndirildiyini söyləyib.

Əli Hüseynli diqqətə çatdırıb ki, müzakirəyə çıxarılan qanun layihəsi ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim olunub. Bu layihəyə əsasən, ombudsmanın səlahiyyətləri bir qədər də genişləndirilir.

Sonra Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Aparatı rəhbərinin müavini Rəşid Rumzadə "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsini birinci oxunuşda təqdim edib. Qeyd olunub ki, ölkədə həyata keçirilən hüquqi islahatlar kontekstində bu Konstitusiya qanununa da dəyişiklik edilməsi zərurəti yaranıb.

Diqqətə çatdırılıb ki, qanuna həm dövlət maraqları baxımından, həm də ombudsman təsisatının səlahiyyətlərinin genişləndirilməsi, dövlət qurumları ilə münasibətlərinin tənzimlənməsi nöqteyi-nəzərindən əhəmiyyətli dəyişikliklər təklif olunur.

İclasda komitənin sədr müavini Qüdrət Həsənquliyev, komitə üzvləri Fəzail Ağamalı, Azay Quliyev, Sabir Hacıyev, Tahir Kərimli layihə barədə fikirlərini, qeyd və təkliflərini bildiriblər. Deputatlar təqdim olunan dəyişikliklərin mütərəqqi olduğunu söyləyiblər.

Ombudsman Aparatı rəhbərinin müavini Rəşid Rumzadə deputatların suallarını cavablandırıb, onları maraqlandıran bəzi məqamlara aydınlıq gətirib.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verilib.

Növbəti məsələ - Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə əlaqədar qeyd edilib ki, inzibati məsuliyyətə cəlbetmə və inzibati cərimələrin ödənilməsi ilə bağlı məsələlərin təkmilləşdirilməsi məqsədilə İnzibati Xətalar Məcəlləsinə bir sıra yeni müddəaların əlavə olunması və mövcud müddəalarda dəyişiklik edilməsi təklif olunur.

İclasda "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verilib. Qanunun yeni redaksiyada təqdim olunan 7.1.4-cü maddəsinə əsasən, icra sənədində tələbkar və borclu fiziki şəxsin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin müvəqqəti, yaxud daimi yaşamaq üçün icazə vəsiqələrinin, habelə qaçqın vəsiqəsinin seriyası və nömrəsi), yaşayış yeri və olduğu yer, doğum tarixi, işlədiyi halda borclu fiziki şəxsin iş yeri, sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda VÖEN-i, tələbkar və borclu hüquqi şəxsin adı, hüquqi və faktiki ünvanları, VÖEN-i göstəriləcək.

Komitə üzvləri bu 4 qanun layihəsini də birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

Daha sonra iclasda ikinci oxunuşda olan məsələlərə - "Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə" və "Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikası medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "İnsan alverinə qarşı mübarizə haqqında" qanunda dəyişiklik edilməsi barədə, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında, Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Dövlət qulluğu haqqında" qanunda dəyişiklik edilməsi barədə, Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Notariat haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinə baxılıb.Təqdim olunan bu sənədlərin hər biri ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Aydan XƏLİLOVA,***
*"Azərbaycan"*

# 674 adda peşədə qadın əməyinə qoyulan qadağanın ləğvi təklif edilir

Oktyabrın 7-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin onlayn iclası keçirilib.

İclasda gündəliyə daxil olan 4 məsələ ilə bağlı komitənin sədri Musa Quliyev məlumat verib. Əvvəlcə komitə sədri müzakirəyə çıxarılan "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində (ikinci oxunuş) təklif olunan dəyişikliklərin mahiyyətini açıqlayıb. O, dəyişikliklərin pensiya artımlarının vahid indeksasiya metodunun tətbiqinin genişləndirilməsi və müvafiq icra hakimiyyəti orqanı tərəfindən əmək pensiyaçılarına edilən maddi yardımın pensiyaya əlavə edilməsi istiqamətləri üzrə ətraflı izahat verib. Həmçinin xüsusi şərtlərlə pensiya alanların pensiyalarının indeksləşdirilməsi mexanizmlərinin tətbiqinin üstünlüklərinə toxunub. Musa Quliyev gündəliyin ikinci məsələsi olan Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) insan kapitalının inkişafı sahəsində ölkədə həyata keçirilən işlərin davamı kimi xarakterizə edib. Layihə işçilərin peşə hazırlığının səviyyəsinin yüksəldilməsi, yeni ixtisasa yiyələnməsi, habelə ixtisasının artırılması kimi məsələlərin hüquqi tənzimlənməsini nəzərdə tutur. Həmçinin dəyişikliklərə əsasən işçilərin attestasiyası, ixtisarı kimi hallarda işçinin peşə hazırlığı səviyyəsinin yüksəldilməsinin, yeni ixtisasa yiyələnməsinin və ixtisasının artırılmasının nəticələri nəzərə alınır.

Gündəliyin üçüncü məsələsi olan Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verərkən Musa Quliyev bildirib ki, bu dəyişikliklər Azərbaycanın gender bərabərliyi siyasətinə növbəti töhfədir. O, təklif olunan qanun layihəsinin qadınların əmək hüququnun daha da genişləndirilməsinə, qadınların daha çox əməkhaqqı ödənilən sahələrə çıxışına olan məhdudiyyətlərin azaldılmasına xidmət etməsindən danışıb. Qeyd olunub ki, Əmək Məcəlləsinə təklif olunan bu dəyişikliklər 674 adda peşədə (vəzifədə) qadınların əməyinə qoyulan qadağanı ləğv edir, yalnız hamilə və ya bir yaşınadək uşağı olan qadınlara 204 iş yerində və ya peşədə işləməyə məhdudiyyət qoyur.

Musa Quliyev "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı bildirib ki, sənəd Azərbaycan Prezidentinin "Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 18 may 2021-ci il tarixli Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar hazırlanıb. Qanunun 6-cı maddəsinə təklif edilən dəyişikliyə görə, şəhid ailələrinin maliyyə dəstəyinin mənbələri artırılıb. Qanun layihələrinin müzakirələrində Əmək və sosial siyasət komitəsi sədrinin müavini Məlahət İbrahimqızı, komitə üzvləri Vüqar Bayramov, Arzu Nağıyev, Jalə Əliyeva, Aqil Məmmədov, Rauf Əliyev, Sevinc Hüseynova və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək fikirlərini səsləndiriblər. Sonra gündəlikdəki 4 qanun layihəsinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*



# Azərbaycanın yeni çağırışı

## Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması ölkəmizin milli prioritetidir

Ermənistanın 30 il ərzində viran qoyduğu, vəhşicəsinə dağıtdığı Qarabağ işğaldan azad olunduqdan, sahibinə qovuşduqdan sonra orada qısa müddətdə görülən möhtəşəm işləri sözlə təsəvvür etmək çox çətindir. Görənlər bilir, görməyənlər də efirdən, fotolardan, danışılanlardan duyub. Bu illər ərzində daşı daş üstündə qoymayan ermənilər tarixi, mədəni, dini abidələri, yaşayış məntəqələrini dağıtmaqla yanaşı, ekoloji terror da törədiblər.

Hazırda Azərbaycan yenidənqurma kimi çətin bir missiyanı yerinə yetirir. Ərazilərimiz işğaldan azad olunduqdan sonra Prezident İlham Əliyevin tapşırığı ilə həmin rayonlarda dərhal yenidənqurma və bərpa işlərinə başlanıldı. Ölkə rəhbəri işğaldan azad olunmuş ərazilərdə görülən işlərə birbaşa nəzarət edir, rayonlara müntəzəm səfərlər edərək bir sıra təməlqoyma mərasimlərində, eyni zamanda açılışlarda iştirak edir. İki il ərzində Qarabağ və Şərqi Zəngəzurda görülən genişmiqyaslı işlərdən indi hər kəs danışır.

### Azərbaycan Qarabağı dünyanın ən dilbər guşələrindən birinə çevirəcək

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında bildirib ki, torpaqlarımız işğaldan azad edildikdən sonra fəal şəkildə quruculuq işləri həyata keçirilir. Bu sürətlə Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru tezliklə dünyanın ən dilbər guşələrindən birinə çevirəcək: "Nəzərə almaq lazımdır ki, işğaldan azad etdiyimiz ərazilərdə yenidənqurma, tikinti-quruculuq işləri geniş vüsət alıb. Demək olar ki, bu ərazilərdə bərpa olunacaq bir şey qalmayıb. Məsələn, Ağdam "Ruhlar şəhəri" və ya "Qafqazın Xirosiması" adlandırılır, çünki ermənilər Ağdamda daşı daş üstündə qoymayıblar. Yalnız Cümə məscidinin minarələri qalıb ki, ondan da müşahidə məqsədi üçün istifadə ediblər. Ermənilərin Ağdama vurduğu ziyanın miqyası təxmini hesablamalara görə, 6 milyard dollardan çoxdur. Bu, onun göstəricisidir ki, Ermənistan, sözün əsl mənasında, ən müxtəlif istiqamətlərdə Azərbaycan dövlətinə və xalqına qarşı terror həyata keçirib".

E.Mirbəşiroğlu deyir ki, Ermənistanın cinayət izlərinin dünyaya nümayiş etdirilməsi baxımından işğaldan azad olunmuş ərazilərimizdə təşkil olunan hər bir tədbirin böyük əhəmiyyəti var. Düşmən hibrid müharibə formasında yenə müqavimət göstərir. Bu baxımdan Ermənistanın törətmiş olduğu cinayətlərin informasiya müstəvisində sistemli şəkildə tirajlanması çox vacibdir. Bu, Azərbaycanın ədalətli mövqeyinin tanıdılması baxımından da önəmlidir.

### Milli Şəhərsalma Forumu Ermənistanın cinayətlərini bir daha dünyaya yaydı

Deputat hesab edir ki, ilk Milli Şəhərsalma Forumunun Ağdamda təşkil olunması olduqca əhəmiyyətlidir, çünki bu, hər şeydən öncə Azərbaycan Prezidentinin strateji baxışına uyğundur. Dünyanın 30-dan artıq ölkəsindən nümayəndələrin iştirakı ilə keçirilən forum əyani şəkildə beynəlxalq aləmə Ermənistanın Azərbaycan ərazilərində hansı vəhşiliklər törətdiyini nümayiş etdirir. Prezident İlham Əliyev forumun açılışında öz nitqində bir daha vacib məqamlara toxundu. Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyasının həyata keçirilməsinin zamanında həll edilməsinin zəruriliyi vurğulandı. Dövlətimizin başçısı bu istiqamətdə vaxt itkisinin yolverilməzliyini xüsusi qeyd etdi. Yaradılmış komissiyaların vaxt itirmədən sərhədlərin delimitasiyasının həyata keçirilməsi istiqamətində iş aparmalı olduğunu diqqətə çatdırdı. Nəzərə almaq lazımdır ki, Ermənistan yenə də istənilən vasitələrlə əldə olunmuş razılaşmalardan yayınmağa, sülh gündəliyini əngəlləməyə çalışır. Amma Azərbaycan öz iradəsi ilə sülh prosesini irəli aparmaqdadır. Ermənistanın və ona dəstək olanların bütün cəhdlərinə baxmayaraq, ölkəmizin başlatmış olduğu sülh prosesi dönməz xarakter alır və istər-istəməz Ermənistan Azərbaycanın sülh prosesi ilə ayaqlaşmalı olur.

E.Mirbəşiroğlunun sözlərinə görə, Ermənistan ardıcıl olaraq təxribatlar törətməklə daha zəif duruma düşür. Azərbaycan isə əksinə, müvafiq olaraq öz mövqelərini daha da möhkəmləndirir.

Prezident İlham Əliyev Milli Şəhərsalma Forumunda həm də işğaldan azad olunmuş ərazilərdəki tikinti-quruculuq işlərindən bəhs etdi. Dövlət başçısının forumda səsləndirdiyi məlumatlar dünyanın müxtəlif ölkələrindən gəlmiş qonaqlarda Azərbaycanın iqtisadi gücü, siyasi iradəsi, əzmi haqqında aydın təsəvvür formalaşdırdı.

Deputat işğaldan azad olunmuş torpaqlarda bərpaolunan enerji potensialının təxminən 10 min meqavat gücə bərabər olduğunu xatırladaraq deyir ki, həmin ərazilərdə su-elektrik stansiyalarının inşasına da diqqət yetirilir və bu istiqamətdə görülmüş işlər var.

İndi dünya ictimaiyyətində Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi böyük layihələr haqqında aydın təsəvvür yaranıb. Prezident həm də vurğuladı ki, sərhədlərin müəyyənləşdirilməsi çox vacibdir, eyni zamanda Azərbaycan ərazisində yaşayan ermənilərin vəziyyəti, onların mövcudluğunun təmin olunması məsələsi ölkəmizin daxili işidir. Burada heç bir kənar müdaxiləyə ehtiyac yoxdur. Ermənistanın baş naziri Paşinyan da bu reallıqları qəbul etmək məcburiyyətindədir. O da qeyd edib ki, Azərbaycanla Ermənistan arasında bağlanacaq sülh müqaviləsində Qarabağ məsələsi yer almaya bilər, o, qəti olaraq almayacağını da bilir.

Tədbirin əhəmiyyətinə diqqət çəkən deputat deyir ki, forumun açılışından bir gün sonra Praqada Prezident İlham Əliyev, Ermənistanın baş naziri, Nikol Paşinyan, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Fransa Prezidenti Makronun dördlükdə görüşü nəzərdə tutulurdu. Avropa Siyasi Birliyinin ilk sammitinin keçirilməsi çərçivəsində baş tutan görüşdən öncə forumun təsirli rolu oldu. Ona görə ki, dünya ictimaiyyəti bu forumu yaxından izləyir və Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətləri görür. Belə olan halda Ermənistanın dünyanı çaşdırmaq istiqamətində yalan informasiyalar vermə cəhdlərinin də qarşısı alınır. Bununla Ermənistanın təcavüzkar, işğalçı, vandal və terrorçu dövlət simasını növbəti dəfə dünyaya nümayiş etdirdik.

### Qurucu Azərbaycanın və revanşist Ermənistanın prioritetləri arasında köklü fərq var

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında deyib ki, Ağdamda Azərbaycan Milli Şəhərsalma Forumunun keçirilməsi postmünaqişə dövrünün yeni çağırışlarının ifadəsidir.

Deputat forumda Prezident İlham Əliyevin çıxışını xatırladaraq qeyd edir ki, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, insanların doğma yurdlarına qayıtması və Azərbaycanın hər hansı bölgəsində yaşayan keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması ilə bağlı dövlətimizin başçısının çağırışları ürəkaçandır.

Bəhruz Məhərrəmov bildirir ki, ötən iki ildə yerləyeksan olunmuş on min kvadratkilometrlik ərazidə miqyası görünməmiş dəyişikliklərin şahidi oluruq. Bu dəyişikliklər iki istiqamətdə müşahidə olunur. Birincisi, beynəlxalq cinayətlərin ağır nəticələrinin aradan qaldırılması, ikincisi, bəşəri dəyərləri ehtiva edən, insan rifahı və təhlükəsizliyi məsələsidir. Beynəlxalq cinayətlər dedikdə, ilk növbədə, minalarla çirklənmiş, Livan dövlətinin ərazisi qədər bir bölgənin yaşayış üçün tam təhlükəsiz vəziyyətə gətirilməsi nəzərdə tutulur. Müharibədən sonrakı dövrdə, yekun sülh prosesinə çalışdığımız bir məqamda Ermənistan humanitar hüquq pozuntusuna və müharibə cinayətlərini davam etdirərək nəinki dəqiq mina xəritələrini verməkdən boyun qaçırır, üstəlik, bütün cəhdlərlə minalanma prosesini davam etdirir. Elə bu günlərdə Laçın istiqamətində aşkarlanan 2021-ci il istehsalı olan minalar buna misaldır.

Deputat deyir ki, erməni vandalları 30 il ərzində həm də təbiətimizi, ekologiyamızı hədəfə alaraq ağır fəsadlara yol açıblar: "Bu mənada qarşımızda urbisidlə yanaşı, ekosid cinayətlərinin nəticələrini aradan qaldırmaq kimi ciddi vəzifə qoyulub. Təbii ki, N.Paşinyan özü başda olmaqla, Ermənistanın bütün hərbi-siyasi rəhbərliyi davam edən bu cinayətlərə görə məsuliyyət daşıyır və beynəlxalq tribunalda cinayət təqibi labüddür".

Onun sözlərinə görə, insan rifahı ilə bağlı hədəfə gəlincə, Prezident İlham Əliyevin də dediyi kimi, vəhşi qəbilə davranışına bənzər barbarlıqla, vandalizmlə yerləyeksan edilən şəhər və kəndlərimiz yenidən qurulmasını, eləcə də dini-mədəni abidələrimiz həssaslıqla bərpasını gözləyir.

Deputat ötən iki il ərzində quruculuq bərpa prosesinə tam sürətlə start verildiyini qeyd edərək bildirir ki, bu dövrdə ən müasir yol, enerji, o cümlədən Füzuli, Zəngilan hava limanlarının timsalında müasir nəqliyyat infrastrukturları inşa edilib, Ağalı kəndi simasında təhlükəsiz, ləyaqətli Böyük qayıdışa uğurla start verilib. Əlbəttə, beynəlxalq ictimaiyyət də qurucu Azərbaycanın və revanşist Ermənistanın prioritetləri arasında köklü fərqi görür. Bu fərqi və niyyəti görməyənləri, yaxud görmək istəməyənləri fakt qarşısında qoymaqla reallığa dəvət etmək üçün Ağdam forumu və cənab Prezidentin Ağdamdan dünyaya müraciəti təsirli gediş oldu.

Ağdamda Azərbaycan Milli Şəhərsalma Forumunda çıxış edən Azərbaycan Prezidenti də qeyd etdi ki, hazırda keçmiş məcburi köçkün və qaçqınları öz doğma yurdlarına mümkün qədər tez bir zamanda geri qaytarmaq üçün nəhəng bir çağırışla üzüzəyik. Artıq Qarabağa və Şərqi Zəngəzura həyat qayıdır, məcburi köçkünlərimiz mərhələli şəkildə doğma dədə-baba torpaqlarına qayıdırlar. Böyük qayıdış proqramı mərhələli şəkildə uğurla icra olunur. Beləliklə, çox keçmədən işğaldan azad olunan hər bir ərazimizdən öz sahiblərinin səsi eşidiləcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Milli ideyaya çevrilən zəfər və quruculuq

Oktyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Ağdamda Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin, Atçılıq Nəsilartırma Mərkəzinin, Ağdam şəhərində yaşayış məhəlləsinin, daxili yol və kommunikasiya şəbəkəsinin, Dəmir yolu və Avtovağzal Kompleksinin, "City Hotel" Agdam mehmanxanasının təməllərinin qoyulması yeni reallıqlara işıq saldı. İlk növbədə bir daha göründü ki, Azərbaycan dövləti sülh tərəfdaşıdır, düşməndən fərqli olaraq qurub-yaratmaq əzmindədir. İndi işğaldan azad edilmiş ərazilərimizin bərpası kompleks şəkildə həyata keçirilir.

### Ağdama dörd səfər

Qeyd edək ki, bu işğaldan azad olunandan sonra dövlət başçısının Ağdama etdiyi dördüncü səfər idi. Birinci dəfə 2020-ci il noyabrın 23-də Mehriban Əliyeva ilə birlikdə Ağdama səfər edən dövlət başçısı burada üçrəngli bayrağımızı ucaltmışdı.

Ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da tarixdə misli görünməmiş vandallıq ediblər. Bir vaxtlar şöhrəti ilə tanınan Ağdam şəhəri atom bombası ilə dağıdılmış Xirosima və Naqasakini xatırladır. Şəhərdən əsər-əlamət demək olar qalmayıb. Ermənilər burada xalqımızın tarixi-mədəni irsinə qarşı da vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib. Düşmən Şahbulaq qalasını erməniləşdirməyə çalışıb, tarixə qarşı cinayətkarlıq edib. "Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın", - deyə Prezident İlham Əliyev Ağdama ilk səfəri zamanı bəyan etmişdi.

Bu baxımdan dövlət başçısının ötən il mayın 28-də Ağdama etdiyi ikinci səfər çoxsaylı təməlqoyma mərasimləri ilə əlamətdar oldu. Həmin səfər zamanı Ağdam şəhərinin bərpasının, o cümlədən şəhər 1 saylı məktəbin yeni binasının, Sənaye Parkının, şəhərdə inşa olunacaq ilk yaşayış binasının, Bərdə-Ağdam avtomobil yolunun təməlləri qoyulmuşdu.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın bu il fevralın 13-də Ağdama etdikləri səfər 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının, yeni yaşayış kompleksinin, "Park Forest Otel Ağdam" mehmanxanasının, Sənaye Parkında iki müəssisənin təməllərinin qoyulması, Ağdam şəhərində yeni inşa olunmuş "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışı ilə əlamətdar oldu. Hazırda Ağdam Cümə məscidində Heydər Əliyev Fondu tərəfindən bərpa-restavrasiya işləri həyata keçirilir.

Bu günlərdə dövlət başçısının və birinci xanımın Ağdama etdikləri səfər rayonun bərpasının nə qədər sürətli və çoxtərəfli getdiyini göstərdi. Səfərin ən yaddaqalan məqamlarından biri Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışı oldu. Bu, bir daha göstərdi ki, görülən bərpa işləri çərçivəsində Qarabağın və xalqımızın mənəvi dəyərləri də diqqət mərkəzində saxlanılır.

### Azad olunmuş ərazilərin bərpası bizim milli ideyamızdır

Ağdam artıq mühüm tədbirlərə evsahibliyi etməyə başlayıb. BMT-nin Məskunlaşma Proqramı və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə "Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi" - postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumunun Ağdamda işə başlaması dirçəlməkdə olan rayon üçün mühüm hadisəyə çevrildi. 44 ölkədən 130-dan çox nümayəndənin, ümumilikdə isə 400 nəfərdən çox insanın qatıldığı Azərbaycan Milli Şəhərsalma Forumu dövlətimizin Qarabağ və Şərqi Zəngəzuru yenidən qurmaq əzmini bir daha dünyaya nümayiş etdirdi.

Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi bu gün Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir. Milli Şəhərsalma Forumunda Prezident İlham Əliyev işğaldan azad olunan ərazilərin bərpasının milli ideya olduğunu bəyan etdi: "Biz Qarabağı və Zəngəzuru yenidən quracağıq. Buna heç bir şübhəmiz yoxdur. Necə bahalı olursa-olsun, bunu edəcəyik. Bu, bizim milli ideyamızdır. Əvvəllər bizim milli ideya torpaqlarımıza qayıtmaqdan, ədaləti və ərazi bütövlüyümüzü bərpa etməkdən ibarət idi və bütün Azərbaycan xalqı bu ideya ətrafında birləşmişdi, özünü buna hazırlamışdı. Canlarını qurban vermiş gənc nəsil, - müharibə zamanı demək olar ki, üç min nəfəri qurban verdik, - və qələbəmizi qeyd edən minlərlə insan, bu, həqiqətən də müasir Azərbaycandır, bu, yeni Azərbaycandır. İndi artıq işğal damğasından azad olunmuş Azərbaycan yüksəlməkdədir və mən əminəm ki, Azərbaycan ən uğurlu ölkələrdən biri olacaq və söhbət təkcə bizim regiondan getmir".

İki ilə yaxın müddətdə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləri Azərbaycan dövlətinin gücünün, Prezident İlham Əliyevin qətiyyətinin göstəricisidir. Bir neçə iri layihənin başa çatdırılması, o cümlədən Şuşaya gedən Zəfər yolunun salınması, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Zəngilanda Ağalı kəndinin bərpası, azad olunmuş bütün ərazilərdə ən müasir texnologiyalara və idarəetməyə əsaslanan yarımstansiyaların inşası, dağ çayları üzərində elektrik stansiyalarının tikilməsi möhtəşəm və sürətli quruculuq əzminin ifadəsidir.

Onu da qeyd edək ki, 2023-cü ilin dövlət büdcəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması məqsədilə 3 milyard manat vəsaitin ayrılması proqnozlaşdırılır. Bu xərclərin növbəti ildə dövlət büdcəsi xərclərində xüsusi çəkisi 9 faiz təşkil edəcək.

Beləliklə, işğaldan azad olunmuş ərazilərin bərpası həm də Azərbaycanın iqtisadi gücünün ifadəsidir. Prezident İlham Əliyevin dediyi kimi, necə bahalı olursa-olsun, biz Qarabağ və Şərqi Zəngəzuru bərpa edəcəyik.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "AZƏRBAYCAN" qəzeti külliyyatının IV cildi işıq üzü görüb

Azərbaycanın seçilən ali təhsil ocağı ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə hazırlanan "Azərbaycan" qəzeti külliyyatının IV cildi bu günlərdə nəşr edilərək oxucuların istifadəsinə verilib. IV cild qəzetin 1919-cu il yanvar nüsxələrini - 76-102-ci nömrələri əhatə edir.
Bu sətirlər filoloq, tərcüməçi Azad Ağaoglunun "Azərbaycan" qəzeti külliyyatının IV cildi işıq üzü görüb" sərlövhəli yazısında yer alıb.
AZƏRTAC məqaləni təqdim edir.




IV cildin diqqətçəkən materiallarından biri, dövrün mətbuatının ümumi mənzərəsini əks etdirən "Müstəqil mətbuat lüzumiyyəti" adlı yazıdır. 1919-cu il 5 yanvar tarixli 79-cu nömrədə gedən bu yazıda müstəqil Azərbaycanın paytaxtında o dövrdə nəşr edilən qəzetlər sadalanır: Bakı Rus Milli Komitəsinin orqanı "Yedinaya Rossiya", rus sosialist-inqilabçılarının orqanı "Znamya truda", sosial-demokratların orqanı "İskra", "mötədil" erməni dairələrinin orqanı "Naşe vremya", "Daşnaksütyun" partiyasının orqanı "Vperyod", "Azərbaycan", erməni dilində "Mer orer" adlı yeni bir qəzetin də o günlərdə nəşrə başladığını xəbər verir. Adıçəkilən qəzetlərin hamısı Azərbaycan xalqının və dövlətinin mənafeyinə zidd fəaliyyət göstərən, milli müstəqilliyimizə açıqca düşmən mövqedə dayanan nəşrlərdir.

Belə bir şəraitdə "Azərbaycan" qəzetinin müraciəti necə də aktual səslənir: "...Azərbaycan türk və islamları nöqteyi-nəzərindən lazım gəlir ki, bizim səsimiz düşmənlərimizə müqabil zəif çıxmasın. Bu isə mətbuatımızın çoxalması ilə ola bilər".

"Azərbaycan"ın səhifələrini çevirdikcə, dövrün mətbuatının mənzərəsi gözlərimiz qarşısında daha yaxşı canlanır. Təəssüf ki, bu mənzərə bir o qədər də ürəkaçan deyildir. Məsələn, 16 yanvar tarixli 89-cu nömrədə belə bir xəbər görürük: "Azərbaycan Müsəlman İctimaiyyuni-İnqilabiyyun firqəsi [Sosialist[1]İnqilabçılar partiyası] tərəfindən bu günlərdə "Kəndçi və fəhlə" adında türk lisanında həftəlik bir qəzetə nəşr ediləcəkdir". 19 yanvar tarixli 91-ci nömrədə isə Azərbaycan Sosialist-İnqilabçılar partiyası Müvəqqəti Komitəsinin sədri Ruhulla Axundovun bir məktubu dərc edilmişdir. Ruhulla Axundov əvvəlki xəbəri təkzib edərək belə yazır: "...Fövqəlzikr [yuxarıda adıçəkilən] "Əkinçi və fəhlə" qəzetəsi Azərbaycan deyil, müsəlman deyil və sosialist deyil, Qafqaz və Kaspiyski "hökumətinin" erməni millətçilərinin təşəbbüsü və sərmayəsi ilə nəşr edilir".

Bunların müqabilində milli maraqlarımıza xidmət edən nəşr orqanı "Azərbaycan" qəzetidir. "Azərbaycan" qəzeti həm də düşmən mövqedəki bütün bu nəşrlərlə mübarizə aparmaq, onların millətimizə və dövlətimizə yönələn əsassız iddialarını susdurmaq kimi ağır bir yükü öz çiyinlərinə götürmüşdür. Təsadüfi deyil ki, "Azərbaycan" qəzeti hər nömrəsində "düşmən cəbhədəki" mətbuatın çağırışlarına cavab vermək məcburiyyətində qalır:

"Rus Milli Komitəsi bir tərəfdən bizi və bizim hökumətimizi tanımağı əsla qəbul etməyir, naşiri-əfkarı olan "Yedinaya Rossiya" qəzetəsinin hər nömrəsində hökumətimizi ilan kimi çalır, azadlığımızın düşmənləri cərgəsində durub onlarla həmavaz olub, Azərbaycan istiqlalına qarşı bədguluq edir…" (N 78, 3 yanvar)"

"Znamya truda" xəbər vermişdi ki, guya, general Tomson Gəncə quberniyasının bəzi hissələrinin mühafizəsini Andranikə mühəvvəl edibmiş [tapşırıbmış]. General Tomson Rəisi-Vükəla [Baş Nazir] Fətəli xan Xoyski həzrətlərinə bir məktub yazıb "Znamya truda" qəzetəsində dərc edilmiş məlumatı qəti surətdə təkzib edir". (N 79, 5 yanvar)

"Andraniklərin top və tüfəng hücumlarının arası yenicə kəsilmişdi ki, bu gün özümüzü başqa növ hücumlara məruz qalmış görürük. Bu yeni hücumlar iftira və böhtan hücumlarıdır ki, daşnakların "Vperyod" qəzetəsinin dünənki nömrəsi başdan-ayağa qədər bu iftira və böhtanlarla doludur". (N 95, 23 yanvar)

Ermənilərin Azərbaycan xalqını və onun milli dövlətini qaralamaq üçün göstərdiyi canfəşanlıq və bu "qara" fəaliyyətin mənfi nəticələri o dövrdə də hər addımda qarşımıza çıxır. Amma həmişə əmin-amanlıqdan və dinc yanaşı yaşamaqdan yana olan, məcbur qalmadıqca silaha əl atmayan Azərbaycan xalqının səbri və sülhsevərliyi erməni propaqandasını puç edir. Azərbaycan Parlamentinin 1918-ci il 30 dekabr tarixli iclasında dövrün iki böyük ictimai-siyasi xadiminin çıxışında bu məsələyə toxunulur. Bakıya gələcək Britaniya ordusunun komandanlığı ilə hələ Ənzəlidə görüşən və ingilislərin mövqeyindən xəbərdar olan Əhməd bəy Ağaoğlu Parlament kürsüsündən belə deyir: "Müttəfiqlər nümayəndələri hələ Ənzəliyə gələrkən bizim barəmizdəki böhtan və iftiralarla zəhərlənmişdi. Amma yanımıza gələrkən... sülh və müsalimət [əmin-amanlıq] tərəfdarı kimlər olduğunu anladılar, bizi tanıdılar". Eyni iclasda Məhəmməd Əmin Rəsulzadə də özündən əvvəlki natiqin - Ağaoğlunun sözlərini təsdiq edir: "İngilis və sair Müttəfiq nümayəndələri Ənzəlidə olduqları zaman bizimlə dost olmayan mənbələrdən başqa məlumat və fikirlər üzərinə bəyannamə nəşr etdilər... Fəqət sonradan həqiqətihala bələd olmaq nəticəsində çıxardığı və nəşr etdiyi ikinci bəyannaməsi birincini rədd etdi... Bu bəyannamə, azərbaycanlıların sülh və müsalimət tərəfdarı olduqları yaxından öyrənilmiş və təcrübə nəticəsində atılmış bir qədəm idi... Xaricdən gələn bir qüvvəyə istinadla Azərbaycanı dağıtmaq istəyənlər... xarici qüvvələrdən müzahirət [kömək] almaq xəyalı ilə Azərbaycanı yıxmaq istəyənlər artıq görəcəklər ki, o xəyal puçdur". (N 76, 1 yanvar)

Ağaoğlu və Rəsulzadənin çıxışlarında ad çəkilməsə də, Azərbaycan əleyhində propaqanda aparanların, Azərbaycan dövlətinin Azərbaycan türklərinin öz tarixi torpaqlarında tamamilə haqlı olaraq elan etdikləri müstəqilliklərinin deyil, Osmanlı ordusunun imperialist iddialarının nəticəsində "oyuncaq dövlət" kimi qurulduğunu söyləyənlərin ermənilər olduğu hamıya məlumdur.

Qafqaza gələn müttəfiqlər - başda ingilislər olmaqla - erməniləri sivil bir xalq və cəmiyyət sanmaqla çox böyük bir xətaya yol vermişdir:

"Onlar öylə güman etdilər ki, Ermənistan Cümhuriyyəti denilən məhəl [yer] yəqin Azərbaycan və Gürcüstan cümhuriyyətləri kimi bir məmləkət olub, orada "demokratik" əsası ilə bir qayda və nizam vardır... Lakin heyhat! Onlar bunu bilmədilər ki, Ermənistan denilən məhəl, insan və islam qanına yerikləyən yırtıcılar əlinə keçmişdir ki, qarşılarında qüvvə gördükdə tülkü kimi nəvaziş göstərirlər. Lakin bir qədər özlərini güclü hiss etdikdə, binəva islam əhalisinin qanını su yerinə içirlər. Çox təəssüflər olsun, bunu onlar düşünmədilər". (N 80, 6 yanvar)

Azərbaycan torpağının ən gözəl guşələrindən biri olan Qarabağı qana boyayan daşnak vəhşiliyi barədə xəbərlər "Azərbaycan" qəzetinin demək olar ki, hər nömrəsində özünə yer tapır. Qəza rəislərinin raportlarında, Qarabağın müxtəlif yerlərindən yazılan məktublarda, imdad diləyərək Bakıya qədər gəlib çıxan xalq nümayəndələrinin qəzetə verdikləri müsahibələrdə erməni qaniçənliyinin tükürpərdici miqyası aydın olur. Nəhayət, Azərbaycan Parlamenti Qarabağdakı vəziyyət barədə məlumat toplamaq məqsədilə oraya rəsmi heyət göndərir:

"Parlaman tərəfindən Qarabağa göndərilmiş olan heyət, başda Xosrov bəy Sultanov olmaq üzrə Bakıya övdət eylədi [qayıtdı]. Mümaileyh [adıçəkilən şəxs] Andranikin Qarabağda etdiyi məzaliməsi [zülmləri] barəsində qayət dəyərli sənədlər gətirmişdir ki, bu günlərdə qəzetələrdə çap ediləcəkdir". (N 86, 13 yanvar)

"Qarabağdan təzəcə gəlmiş Parlaman üzvü Məlik-Yeqanov Qarabağ əhvalı haqqında və Andranik hərəkatı barəsində müxtəsər məlumat vermişdir. Məlik-Yeqanov demişdir ki, hal-hazırda Qarabağda olan 46 mindən ziyadə müsəlman qaçqınları Bakıya gəlməkdədirlər. Onlara burada yer və iş vermək lazım gələcəkdir". (N 88, 15 yanvar)

Yenə qədim Azərbaycan yurdlarından Zəngəzur da erməni daşnaklarının vəhşiliyinə səhnə olmaqdadır. Zəngəzurda dağıdılan, yandırılan, yer üzündən silinən Azərbaycan kəndlərinin sayı yüzlərlədir:

"Zəngəzurdan gələn mürəxxəslərin... sözlərindən anlaşıldığı üzrə, Zəngəzurda ermənilər tərəfindən dağıdılan və xarab edilən kəndlərin ədədi 119 parədir ki, bunların 40 mindən artıq olan əhalisi qırıldıqdan sonra, yerdə qalanları yer və yurdlarından qaçıb Qarabağın sair yerlərinə səpələnibdirlər. Bu qaçqınların halı o dərəcədə fəlakətlidir ki, yazılmaqla qurtarmaz". (N 87, 14 yanvar)

"Zəngəzur əhaliyi-islamiyyəsinin [müsəlmanlarının] fəryadı... yüz para köylərimiz qarət və yəğmaya mübtəla olub da, aralıqda minlərcə əhalimiz kəsilib, qanlar seylabi-bəla [bəla seli] kimi torpaqlarımızı qızartdı... Namus və şərəfi-milliyyəmiz ayaqlar altına alınıb əzildi... Əcəba nə vaxta kimi bu məntəqədə islam və türk qardaşlarımızın əzilib, məhv olub getməsinə millət qardaşlarımız kənardan biganələr kimi tamaşaçı olacaqdır? Nə vaxta kimi ermənilərin zavallı millətimizə qarşı olan əşqiyalığı [quldurluğu] davam edəcəkdir?" (N 80, 6 yanvar)

Bu quldurluğa son vermək məqsədilə Azərbaycan hökuməti qətiyyətli addımlar atır:

"Vükəla Şurasında [Nazirlər Kabinetində]

15 yanvar 1919-cu sənə

Daxiliyyə naziri həzrətlərinin Qarabağ haqqındakı məruzəsini istima etdikdən [dinlədikdən] sonra qət edilmişdir [qərara alınmışdır]: Daxiliyyə naziri həzrətləri tərəfindən pişnihad [təqdim] edilmiş məruzə qəbul edilsin. Cavanşir, Şuşa, Cəbrayıl və Zənzəgur qəzalarında müvəqqəti olaraq bir general[1]qubernatorluq təşkil edilməlidir. Təyin ediləcək general-qubernatorun ixtiyaratı Daxiliyyə Nəzarəti məruzəsində göstərildiyi qədər olacaqdır." (N 91, 19 yanvar)

Azərbaycan hökumətinin öz sərhədlərində yeni bir general-qubernatorluq təşkil etməsi, onsuz da tarixi Azərbaycan torpaqları üzərində qurulan Ermənistan hökumətinin hay-küyünə səbəb olur. Ermənistanın Xarici İşlər naziri Tiqranyan Azərbaycanın bu addımını "Ermənistanın ərazi hüququna təcavüz" kimi qiymətləndirir. (N 100, 29 yanvar)

Azərbaycan ictimaiyyəti isə hökumətin bu addımından razı qalmış, Qarabağda, Zəngəzurda yaşanan fəlakətlərə son qoyulacağına inanmışdır. Üzeyir bəy Hacıbəyli, yeni general-qubernator təyin edilən Xosrov bəy Sultanovun Qarabağın "fövqəladə halətini" yoluna qoymaq üçün çalışacağını yazır:

"...Aclıq, azar, yolsuzluq, əmniyyətsizlik, şuriş [qarışıqlıq], narazılıq və sair bu kimi hadisələrdən əmələ gələn bu fövqəladə halət, Andranik avantürasının nəticəsindən nəşət edən [əmələ gələn] bir vəq'ədir. Binaənileyh [ona görə], hökumətimizin Qarabağda general-qubernatorluq təşkil etmək tədbirinə dəxi Andranik hərəkəti səbəb olmuşdur... Öz torpağımızı və öz əhalimizi bu quldurun əlindən xilas etməyə çalışdıq və bilaxirə [axırda] bu işdə müvəffəqiyyət hasil etdik. Bədəhu [ondan sonra] andraniklər tərəfindən vurulmuş zərbələrin yaralarını sağaltmaq üçün o zərbələrə uğramış olan yerlərimizi öz məsləhətimizə görə xüsusi bir idarə altına alıb, general-qubernatorluq təşkil etmək istədik... Öz yerimizdə, öz torpağımızda nə sayaq 'administrativ' şəkillər yapacağımız bizim öz işimizdir. Erməni hökumətinin və ya Erməni Milli Komitəsinin bu cürə işlərimizə qatışmağa heç bir haqları olmadığını özləri bilməyirlərsə, o halda siyasiyyatın ibtidai qaydalarından bixəbər və cahildirlər, özgələrdən öyrənsinlər". (N 101, 30 yanvar)

Ermənilərin hay-küyü, müttəfiq dövlətlətlərin Zəngəzuru Azərbaycan torpağı kimi tanımasından sonra daha da artacaq. İngilis komandanlığı Cəbrayıl, Zəngəzur, Şuşa və Cavanşir qəzalarını əhatə edən yeni general-qubernatorluğu tanıyır, bu ərazilərdə yaşayan bütün əhalini general-qubernator Xosrov bəy Sultanova itaət etməyə çağırır və asayiş yaratmaqda Xosrov bəyə kömək edəcəyini deyir. Ermənistan hökuməti isə bölgənin erməni vətəndaşlarının asayişini özünün kirli oyunlarına və boyunu aşan iddialarına qurban verməyi üstün tutur, erməniləri silahlı üsyana səsləyir, onları dəstəkləyəcəyinə işarə vurur.

Qarabağdan qovulan Andranik, özünün canicə fəaliyyətini İrəvan quberniyasında davam etdirir: "Bir tərəfdən də Qarabağı, Zəngəzuru öz xunxar [qaniçənliyi] və quldurluğu ilə xaraba hala salan Andranik və həmpaları [yoldaşları] indi də İrəvan quberniyasına getmişlər də, Erməni Cümhuriyyəti ilə yan-yana verib bura müsəlmanlarını aralığa almışlardır". (N 83, 9 yanvar)

Ermənilərin, onlara öz dədə-baba yurdlarında yer verən Azərbaycan türklərinə qarşı xain planı işə düşür: "...Qonşularımızın daşnakçıları nəinki özlərini bizə ağa tanıtmaq, bəlkə təşkil etdikləri müstəqil Ermənistan hüdudu daxilində proyektləri mövcibincə [planlarına əsasən] bir nəfər olsun da ata-baba yurduna malik islam buraxmamağa əzm etdilər. Fitnələr törədib, böhtanlar atıb, terrorizmə girişib, qarqaşalıq [qarışıqlıq] saldıqdan sonra məqsədlərinə xainanə nail oldular". (N 79, 5 yanvar)

"Məhv olan millət kütləsinin naləsi - Qarabağ və İrəvan müsəlmanlarının əhvali-fəcianəsi" adlı yazıda Ordubaddan gələn bir məktuba yer verilir. Məktubda deyilir: "...Şəqi [quldur] ermənilər İrəvan tərəfindən başlayıb müsəlman köylərini dağıdıb və qarət edirlər. Bir tərəfdən Qarabağ erməniləri Qarabağ köylərini dağıdıblar və dağıtmağa məşğuldurlar". (N 80, 6 yanvar)

İrəvan quberniyasının azərbaycanlı əhalisinin acınacaqlı vəziyyətinə dair xəbərlərin ardı-arası kəsilmir: "...Erməni zimamdarları [cilov tutanları, idarəçiləri]... müsəlləh və müntəzəm erməni qoşunları ilə 1918 sənəsi fevral, mart, aprel ayları ərzində Novo-Bayəzid, İrəvan, Sürməli, Eçmiyədzin və Aleksandropol mahallarında müsəlman kəndçi və əkinçiləri ilə məskun 230 para kəndi dağıdıb, yandırıb, talayıb və camaatları ilə belə məhv etmişlərdir. Bu 230 kəndin fəqir əhalisini, demokratiyanın bünövrəsini təşkil edən minlərcə kəndçiləri və əkinçiləri rəhmsizcə və insanlıqdan kənar bir surətdə qırıb və bir çoxlarını arvadlı, uşaqlı, qocalı evlərə qapayıb, diri ikən yandırmışlardır". (N 81, 7 yanvar)

"Bu axırıncı bir ilin içində İrəvanın bütün quberniyasında erməni zülümkarlığı ilə 300-dən artıq müsəlman kəndlərinin yandırılıb dağıdılması, evlərinin, əkinlərinin, mal-qaralarının talanması, camaatlarının qırılması, hətta diri ikən yandırılmaları və qalanlarının səhralara, dağlara qaçması, qaçanların da çoxlarının aclıqdan, xəstəlikdən tələf olması şuxluq [zarafat] deyil. Bunlar insanlardır, insan övladlarıdır". (N 83, 9 yanvar)

Halbuki Azərbaycan xalqı bu vəhşiliklər qarşısında heç vaxt insanlığını itirməmiş, dinc əhaliyə qarşı qəddarlıq nümayiş etdirməmişdir. Bakı erməni yeparxiyasının başçısı Baqratın "Azərbaycan" qəzetinə göndərdiyi, bir yandan 1918-ci ildə Qubada erməni daşnaklarının törətdikləri cinayətlərə qarşı qeyrətli vətən oğulları ilə birgə mübarizə apararkən, digər yandan dinc erməni əhalisinin qorunmasını da təşkil edən Həmdulla Əfəndiyevə ünvanlanan təşəkkür məktubu da elə bunu deyir:

"Möhtərəm Həmdulla əfəndi! Quba mahalında vaqe Gilvar adlı erməni kəndinin əhalisi və o kəndin keşişi mənə məktubən bəyan edirlər ki, siz öz bəradəriniz və əqvamınız [qardaşınız və qohumlarınız] ilə Gilvar ermənilərini hər dürlü təsadüfi bəlalardan xilas edib, daima onlara xeyirxah olmusunuz. Neçə gün bundan əvvəl... Gilvardan mənim yanıma bir heyət gəlib... insaniyyətpərvər xidəmatınızı təsdiq etdilər". (N 89, 16 yanvar)

Ermənilər Qafqazda sadəcə Azərbaycan türkləri ilə yox, bütün qonşuları ilə dava edirlər. Qafqaza sonradan gəlmə bu ünsür, ətrafındakı hər kəsə xainlik edir. "Azərbaycan" qəzeti 1918-ci ilin dekabr ayında cərəyan edən Erməni-gürcü müharibəsini öz səhifələrində geniş işıqlandırmışdır. Müharibənin gedişinə dair xəbərləri qəzetdən oxumaq mümkündür, burada erməni xislətini açıqca meydana qoyan bir-iki qısa xəbərə diqqət çəkmək istəyirik. Bir yandan gürcülərlə müharibə edən ermənilər, digər yandan Tiflisdəki Erməni Milli Şurasında yığışır, Gürcüstanla müharibəyə əsgər və silah yığırlar. Təbii olaraq Gürcüstan hökuməti Erməni Milli Şurasına basqın edir və bu halın qarşısını alır. Ancaq ermənilər yenə Tiflisdə - bu dəfə Rus Milli Şurasında - yığışmağa davam edirlər: "Hökumət binagüzarlığı [sərəncamı] ilə Tiflisdə olan Rus Milli Şurası binasında axtarış olmuşdur. Axtarış əsnasında Milli Şura binasında müşavirəyə cəm olan 200 nəfər erməni həbs edilmişdir". (N 76, 1 yanvar)

Yenə Tiflisdən bir başqa xəbər: "Gürcü Parlamanı üzvü A. Axmetelaşvilinin oğlu dəmiryol kənarında erməni seminariyası yanından keçdikdə dörd nəfər hammalın bir tabut aparmasını görmüşdür... Tabutdan gələn şübhəli səs uşağın diqqətini cəlb etmişdir... Uşaq cəbbəxanaya tərəf qaçıb saldatlara xəbər eyləmişdir. Saldatlar hammalları tabutla bir yerdə tutmuşlar. Tabut içrə meyit əvəzinə pulemyot və patron var imiş". (N 84, 10 yanvar)

Nə qədər də tanış mənzərələrdir, elə deyilmi?

Ceyhun bəy Hacıbəylinin Gürcüstan təəssüratlarını qələmə aldığı yazısından aşağıdakı cümlələr həqiqəti bütün çılpaqlığı ilə əks etdirir: "Əvət, bu gün gürcü millətçiləri böylə söyləyirlər: Biz indiyə kimi böylə güman edirdik ki, Zaqafqaziyada üç qisim millət yaşayır. Lakin şimdi artıq düşündük ki, bunlar üç deyilmiş, yalnız iki imiş: şərqdə azəri türkləri, qərbdə gürcülər. Mavərayi-Qafqaz [Zaqafqaziya] yalnız bu iki milləti təşkil edir". (N 98, 27 yanvar)

Əslində ermənilərin Qafqazda sülh və asayişi pozduqları, bu coğrafiyanın başına gələn fəlakətlərin səbəbkarı olduqları qənaəti yeni deyil: "...Erməni-gürcü müharibəsinin səbəbi Qafqaz məmləkətinə qarışıqlıq salıb, rusların Qafqazı yenidən istilasına bais olmaq məramıdır". (N 100, 29 yanvar)

Ceyhun bəy Hacıbəyli, gürcülərin də eyni qənaəti və eyni hissləri paylaşdığına şahidlik edir: "Rusiyadan ayrılmış Qafqaz məmləkətlərinin istiqlaliyyətə nail olmaq ümidlərini puç etmək fikri ilə bunlar arasında qanlı müharibə salan erməni 'daşnak' məhafilinə [dairələrinə] qarşı filhəqiqə [həqiqətən də] gürcülər miyanında [arasında] qayət şiddətli bir nifrət vardır ki, həmin nifrət nəinki yalnız millətçilər, hətta gürcü sosialistləri tərəfindən dəxi ibraz olunur [nümayiş etdirilir]. Demək olar ki, 'daşnaklar' əleyhinə mövcud olan nifrət, bütün erməni millətinə qarşı nifrətamiz bir hissiyyata müncər olmuşdur [çevrilmişdir] və bu nifrət 'daşnakların' hökumət başında durmağı davam etdiklərinədək yaşayacaqdır." (N 98, 27 yanvar)

IV cildin diqqəti cəlb edən materiallarından biri "Türküstan heyəti-mürəxxəsəsi ilə müsahibə" adlı yazıdır. Tarixi adı "Türküstan" olan, bugünkü adıyla "Orta Asiya" kimi tanıdığımız coğrafiyada yaşayan qardaş xalqların nümayəndə heyəti İstanbuldan öz yurdlarına qayıdarkən bir müddət Azərbaycanda dayanmış və "Azərbaycan" qəzetinə müsahibə vermişdir. Qeyd etmək lazımdır ki, bu nümayəndə heyəti Türküstanda müstəqil dövlət təşəkkülü əmələ gətirməyə çalışan şəxslərdən, yəni Türküstanın ən qabaqcıl ziyalılarından ibarət olmuşdur. Onların Türkiyə haqqında fikirləri də hadisələri doğru təhlil edə bilən, beynəlxalq vəziyyətdən xəbərdar, aydın düşüncəli adamlar olduğunu göstərir.

Bu heyətin qardaş Azərbaycan xalqının uğurlarına səmimi-qəlbdən sevindiyinə və Türküstanın gələcəyini Azərbaycanla birgə hərəkət etməkdə gördüyünə şahid oluruq: "Biz buradan Azərbaycan Hökumətinin gündən-günə Müttəfiqlər yanında kəsbihörmət etməsi [hörmət qazanması] Azərbaycan istiqlaliyyətinin möhkəmləşməsinə böyük bir dəlil olduğunu görməklə qəlbən şad oluruz. Bizi məsrur edən [sevindirən] yenə bir şey varsa, o da Azərbaycanın hökumət təşəkkülü üçün oxumuş adamlarının beqədri[1]imkan [imkan daxilində] var olduğudur. Bizdə isə bu yoxdur... Bu isə Türküstan üçün ən qorxulu halətdir. Çünki burada çalışan var, Türküstanda isə biz gedib kimlərlə işləyə biləcəyik?.. Əhali Rusiyadan büsbütün üz çevirmişdir... Onun üçün biz hər bir idarə altına girməyə hazır olmaqla bərabər, Rusiyanın təhti[1]idarəsinə [idarəsi altına] keçməmizdən çox narazıyıq. Türküstan üçün ən sağlam, atimiz [gələcəyimiz] üçün ən məntiqli yol varsa, o da Azərbaycan ilə Türküstanın birləşməsidir. Əhalinin də buna artıq rəğbəti vardır".

Türküstan nümayəndələri, Avropaya - Paris Konfransına yola düşən Azərbaycan nümayəndə heyətinin, onları da yaddan çıxarmamasını xahiş edir: "Bu gün hazırda və yeni paydar [bərqərar] olmuş hökumətlərin, dövlətlərin həpsinin gözü fəqət [yalnız] buradadır, fəqət [yalnız] buradan imdad istəyəcəklər. Sizin öhdənizə qardaşlıq haqqı olaraq, digər dövlətlər üçün də çalışmaq vəzifəsi düşəcəyi təbiidir... Güman edirəm ki, qardaşlıq xatirəsinə, türklük şərəfinə Azərbaycan kəndisi üçün çalışarkən, Avropa və yaxud başqa yerdə bizim Türküstanı da unutmaz." (N 80, 6 yanvar)

Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycanla Orta Asiyanın türk xalqları və yurdları arasındakı qardaşlıq əlaqələrinə dair materiallar gələn cildlərdə də öz əksini tapacaq. Məsələn, qəzetin 11 fevral tarixli 111-ci nömrəsində, Aşqabadda nəşr olunan "Dan yıldızı" qəzetinin müstəqil Azərbaycana böyük bir təbrik məqaləsi və şeir həsr etdiyini oxuyacağıq.

"Azərbaycan" qəzeti mədəniyyət və incəsənət materialları ilə də zəngindir. Qəzetdə teatr tamaşaları haqqında xəbərlər və tənqidi yazılar mütəmadi olaraq yer alır. Cəfər Cabbarlının "Ölkəm" adlı məşhur şeiri ilk dəfə "Azərbaycan"ın səhifələrində "Gözəl ölkəm" adı ilə çap edilmişdir. (N 92, 20 yanvar) Başqa bir nömrədə isə bir qrup Azərbaycan ziyalısının Maarif Nazirliyinə müraciət edərək ədəbi və ictimai-siyasi bir məcmuə çap etdirmək istədikləri xəbər verilir. Ziyalıların müraciətini "təqdir ediləcək bir təşəbbüs" kimi qiymətləndirən bu yazı güman ki, 1919-cu ilin mart ayında Bakıda nəşrə başlayan "Övraqi-nəfisə" adlı ədəbiyyat, mədəniyyət və incəsənət jurnalı haqqında mətbuatdakı ilk xəbərdir.

Təhsil mövzusu da "Azərbaycan" qəzetinin daim diqqət mərkəzində saxladığı mövzulardandır. Maarif sahəsində hər hadisə qəzetdə işıqlandırılır, məktəbsiz kəndlər, yenilənməyə ehtiyacı olan dərsliklər, günün tələblərinə cavab verməkdə çətinlik çəkən müəllimlər və digər problemlər gündəmə gətirilir, onlara çarə axtarılır. Problemlərlə yanaşı, təhsildə ürəkaçan mənzərələrlə də qarşılaşır, xalqın təlim-tərbiyəyə verdiyi böyük əhəmiyyətin şahidi oluruq. Qəzetin 14 yanvar 1919-cu il tarixli nömrəsində oxuyuruq: "Bələdiyyə tərəfindən açılmış Üçüncü Ali ünas [qızlar] məktəbində təlim üçün gələn müsəlman qızları bu il sabiq illərdən çox artıq qələbəlik edirlər. Təlim ilinin yarısı keçmişsə də, müsəlmanlar genə öz qızlarını, çox vaxt təlim yaşına çatmamış övladlarını da məktəb rəisəsinin hüzuruna gətirib, min cür xahişlərlə qızlarını məktəbə almağı tələb edirlər. İş bir dərəcəyə çatmış ki, məktəbin ibtidai sinfi üç müsavi [bərabər, eyni dərəcəli] şöbə açmağa məcbur olmuşdur. Axırıncı 'T' şöbəsində bu gün 50-dən ziyadə mütəallimə [qız şagird] yığılmışdır… Bir tərəfdən müsəlman valideynlərin elm və tərbiyəyə birdən-birə artıq həvəs və şövq göstərmələri, digər tərəfdən də çocuqların tərbiyəyə və elmə əşəddi-ehtiyaclarını [şiddətli ehtiyaclarını] qəlbən təqdir etməklə, rəisə xanım [məktəb müdirəsi] bunları geri qaytarammır".

"Azərbaycan" qəzetinin maraqlı, vacib materialları əlbəttə ki, burada toxunulanlardan qat-qat artıqdır. Onu da qeyd etmək lazımdır ki, "Azərbaycan" külliyyatının hər növbəti cildi maraqlı materiallarla daha zəngin, daha dolğun və daha məzmunlu olur. Qəzetin müəllif heyəti davamlı olaraq yeni imzalarla zənginləşir və bu hal öz müsbət təsirini açıq bir şəkildə hiss etdirir. "Azərbaycan"ın daha da zənginləşən cildlərini vərəqlədikcə, ADA Universitetinin Azərbaycan xalqına, dövlətçiliyimizə, xalqımızın tarixinə, mədəniyyətinə, eləcə də gələcəyinə nə qədər böyük bir xidmət etdiyi daha yaxşı dərk olunur.




# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



## Azərbaycan dünyanı iki uğurla heyrətləndirib

### Hərb meydanında və bərpa-quruculuq işlərində

İndi dünyada ciddi siyasi və iqtisadi proseslər gedir. Uzun illər Qərb tərəfindən müəyyənləşdirilən siyasi cizgiləri qəbul etməyən dövlətlərin sayı artmağa başlayır. Qərb öz mövqeyini qorumaq, onunla razılaşmayan ölkələr isə mövcud qaydaları yenidən qurmaq istəyir. Rusiya-Ukrayna, Çin-Amerika, Türkiyə-Yunanıstan arasında olan gərginliklərə də bu kontekstdən yanaşmaq lazımdır.

44 günlük tarixi zəfərimizdən sonra Azərbaycanın dünya üçün əhəmiyyəti daha da artıb. Belə ki, ölkəmiz elə bir coğrafi məkanda yerləşir ki, hansı tərəfdə mövqe tutsa, o tərəf üstünlük əldə etmiş olur. Bunun başlıca səbəbi Azərbaycanın beynəlxalq əhəmiyyətli ticarət marşrutlarında açar ölkə olmasıdır. Məlumdur ki, indi iqtisadi faktor siyasi faktordan daha üstün mövqedədir.

Prezident İlham Əliyevin apardığı xarici siyasətin ana xətti tərəf tutmadan ölkəmizin milli maraqlarını müdafiə etməkdir. Son vaxtlar Azərbaycana müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin səfər etməsi də ölkəmizin beynəlxalq aləmdəki nüfuzunu göstərir. Dövlətimizin başçısı bütün danışıqlarda milli maraqlarımızı təmin edən mövqe ortaya qoyur. Ermənistanla sülh danışıqları apararkən ölkəmizin ərazi bütövlüyü prinsipini əsas şərt kimi önə sürür. Bunun nəticəsidir ki, Avropa İttifaqının vasitəçilik etdiyi danışıqlarda "Dağlıq Qarabağın statusu" kimi cəfəng tezis aradan qalxıb. Lakin problemin 30 il həllinə mane olan qüvvələr hələ də ölkəmizi təsir dairəsində saxlamaq üçün bu məsələni yenidən dirçəltmək istəyir. Prezident İlham Əliyev oktyabrın 5-də BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə Ağdamda "Dayanıqlı İnkişaf Mədsəqləri və "Yeni Şəhər Gündəliyi" - postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda keçirilən forumda "status"u yenidən ortaya atan həmin beynəlxalq güclərə cavab olaraq demişdir: "Daxili işlərimizlə bağlı məsələləri heç vaxt beynəlxalq qurumlarla və ya böyüklüyündən və potensialından asılı olmayaraq, heç bir ölkə ilə müzakirə etmirik". Bu hamıya ciddi bir mesaj idi. Dövlətimizin başçısı açıq şəkildə bəyan edir ki, müharibə başa çatdı, indi quruculuq dövrüdür, kim əməkdaşlıq etmək istəyirsə, buyursun.

BMT-nin Məskunlaşma Proqramının tərəfdaş olduğu foruma dünyanın 44 ölkəsindən 130-dan çox nümayəndə, ümumilikdə isə 400 nəfərdən çox təşkilatçı qatılmışdı. Prezident İlham Əliyev bu tədbirdə çıxış edərkən dünyaya ölkəmizin qəti mövqeyini çatdırdı. Vurğuladı ki, Azərbaycan ədalətli sülh istəyir və ermənilər tərəfindən dağıdılan əraziləri bərpa edib soydaşlarımızı doğma yerlərinə qaytarmağa çalışır. Bunun üçün də müharibə başa çatandan sonra dərhal bərpa-quruculuq işlərinə başlanılıb. Artıq bu istiqamətdə mühüm işlər görülüb. Avtomobil və dəmir yolları tikilir, elektrik xətləri çəkilir, çətin coğrafi relyefə malik olan ərazilərdə ilboyu nəqliyyatın fəaliyyətini təmin etmək üçün yüksək dağ silsiləsində tunellər qazılır. Füzuli Beynəlxalq Hava Limanı səkkiz ayda tikilib istifadəyə veriləndə dünya heyrətə gəldi. Bu ay Zəngilan Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. Qısa bir zamanda işğaldan azad olunan ərazilərdə elektrik təchizatı bərpa olunub. Qarabağ və Şərqi Zəngəzur ərazisində ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel olacaq, uzunluğu 12 kilometr olan 84 yeni körpü tikiləcək.

Dövlət başçısı ermənilərin işğal altında olan ərazilərdə törətdiyi vandallıq barədə forum iştirakçılarına məlumat verdi. Bildirdi ki, bu ərazilərin dağılması gedən döyüşlərin nəticəsi deyil, onlar əraziləri döyüşlər getmədiyi vaxtda məqsədyönlü şəkildə talan ediblər. Bu yerlərdə ölkəmizə məxsus olan maddi, mədəni və dini abidələri qəsdən məhv edib, izimizi silmək istəyiblər.

Prezident İlham Əliyev Ermənistanın sülh müqaviləsinin imzalanmasından yayınması, məqsədyönlü şəkildə təxribatlar törətməsi barədə də fikrini açıq şəkildə bildirdi. Belə ki, onlar Azərbaycanın iradəsini və potensialını düzgün qiymətləndirmədilər. İkinci Qarabağ müharibəsi onlara dərs olmalıdır, bir daha belə səhvə yol versələr, bu düşmən üçün baha başa gələcək. Edilən qəti xəbərdarlıqdan yəqin ki, Ermənistan nəticə çıxaracaq.

Dövlət başçısı ölkəmizin postmüharibə dövründəki məramını bütün dünyaya bəyan edərək demişdir: "Beləliklə, biz artıq burada - Ağdamda bir neçə evin tikintisinə başlamışıq. Mən dünən burada idim və 3 kəndin - Xıdırlı, Kəngərli və Sarıcalının təməlqoyma mərasimlərində iştirak etmişdim. Maksimum iki ildən sonra bu kəndlərdə bir neçə min insan yaşayacaqdır. Ağdam şəhərində biz demək olar ki, min yerlik məktəb tikirik. Bu məktəb də ola bilsin bu il, ya da gələn il hazır olacaq. Xəstəxana və bir neçə yaşayış binası tikilir. Bu, sadəcə, Ağdamdır. Eyni işlər Füzulidə, Qubadlıda, Zəngilanda da görülür. İki ay bundan əvvəl qayıtdığımız Laçın şəhərini növbəti ilin sonuna kimi bərpa etməyi planlaşdırırıq. Çünki dediyim kimi, orada qeyri-qanuni məskunlaşma var idi. Heç də bütün binalar sökülməmişdir. Biz artıq bir qrup mütəxəssisi oraya göndərmişik. Beləliklə, biz Qarabağı və Zəngəzuru yenidən quracağıq. Buna heç bir şübhəmiz yoxdur. Necə bahalı olursa-olsun, bunu edəcəyik. Bu, bizim milli ideyamızdır. Əvvəllər bizim milli ideya torpaqlarımıza qayıtmaqdan, ədaləti və ərazi bütövlüyümüzü bərpa etməkdən ibarət idi və bütün Azərbaycan xalqı bu ideya ətrafında birləşmişdi, özünü buna hazırlamışdı. Canlarını qurban vermiş gənc nəsil, - müharibə zamanı demək olar ki, üç min nəfəri qurban verdik, - və Qələbəmizi qeyd edən minlərlə insan, bu, həqiqətən də müasir Azərbaycandır, bu, yeni Azərbaycandır. İndi artıq işğal damğasından azad olunmuş Azərbaycan yüksəlməkdədir və mən əminəm ki, Azərbaycan ən uğurlu ölkələrdən biri olacaq və söhbət təkcə bizim regiondan getmir".

Azərbaycan 2020-ci ildən bəri dünyanı iki dəfə heyrətləndirib. Birincisi, çətin dağlıq relyefdə 44 gün ərzində ildırım sürətli müharibə apararaq qələbə qazanmaqla. İkinci dəfə isə həmin çətin coğrafi məkanda sürətlə quruculuq-abadlıq işləri aparmaqla.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

**8 oktyabr**
**2020-ci il**

## Azərbaycan: ZƏFƏR gündəliyi



Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tuturlar. Ölən və yaralananlar var.

Ermənistan silahlı qüvvələri Bərdə və Ağcabədi rayonlarının kəndlərini atəşə tutur.

Bərdə rayonu ərazisinə "Toçka-U" taktiki raket kompleksindən atəş açılır.

❖ ❖ ❖

Əks-hücum əməliyyatları zamanı mənəvi-psixoloji təminat tədbirləri çərçivəsində keçirilən təbliğat-təşviqat işi davam edir.

Ali Baş Komandanın müraciətləri, təbrikləri və ürək sözləri, həmçinin hərbi komandanlığın müraciətləri, əldə edilən qələbələr barədə məlumatlar şəxsi heyətə və mülki sakinlərə operativ şəkildə çatdırılır.

Təşviqat tədbirlərinin məqsədi ordu-xalq birliyinin daha da möhkəmləndirilməsi, Silahlı Qüvvələrimizin qüdrətinin və döyüşlərdəki uğurlarının işıqlandırılması, eləcə də savaşda rəşadət göstərən şəxsi heyətin qələbə əzminin təbliğ edilməsidir.



Şəxsi heyət və cəbhəboyu zonada yaşayan dinc sakinlər tərəfindən ruh yüksəkliyi ilə qarşılanan tədbirlər səyyar səsyayıcı stansiyalar vasitəsilə yayımlanan hərbi-vətənpərvərlik mahnı və marşları ilə müşayiət edilir.

❖ ❖ ❖

Gecə döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissə qərargahına, istehkamlarına və silah-sursat anbarlarına artilleriya zərbələri endirilir.

❖ ❖ ❖

Gündüz saatlarında yerdəyişməyə cəhd göstərən düşmənin döyüş texnikası artilleriya atəşi ilə məhv olunur.

Düşmənin hərbi kolonu darmadağın edilir.

❖ ❖ ❖

Füzuli rayonunun işğaldan azad olunan Horadiz kəndində erməni hərbçilərin qaçarkən tərk etdiyi zirehli texnikalar bölmələrimiz tərəfindən ələ keçirilir.




❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutur.

Ordumuzun bölmələri tərəfindən düşmənə qarşı adekvat tədbirlər görülür.

❖ ❖ ❖

Azərbaycan Ordusunun bölmələri düşmənin zirehli texnikasını məhv etməyə davam edir.



❖ ❖ ❖

Füzuli rayonunun ərazilərinə ağ fosforlu tüstülü mərmi atılır. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) xüsusi mobil əməliyyat qruplarının Füzuli rayonu ərazisində apardıqları əməliyyat-axtarış tədbirləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən atılmış 122 millimetrlik tüstülü top mərmisi (D-4) aşkarlanır.

Mərminin tərkibində 3,6 kiloqram ağ fosfor (P-4) aşkarlanır. Bu cür mərmilərin mülki əhaliyə və obyektlərə qarşı istifadə edilməsi beynəlxalq humanitar hüququn tələblərinə və prinsiplərinə görə qadağandır.

❖ ❖ ❖

Günün ikinci yarısından başlayaraq bütün cəbhəboyu gərgin döyüşlər davam edir.



Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırır və aktivliyinin qarşısını qətiyyətlə alır.

Həyata keçirilən hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusunun atəş zərbəsi nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah binası dağıdılır. Nəticədə binada olan 10-cu dağatıcı diviziyanın qərargah rəisi polkovnik Samvel Qriqoryan ağır yaralanır, alayın artilleriya rəisi polkovnik-leytenant Arman Dermeyan və xeyli sayda hərbi qulluqçu məhv edilir.

Azərbaycan Ordusunun Xankəndi şəhərinə endirdiyi atəş zərbələrindən ağır itkilərə məruz qalan Ermənistan silahlı qüvvələrinin burada yerləşən hərbi hissələrinin şəxsi heyəti təxliyə edilir. Xankəndidə yerləşən hərbi hissələrdən birinin sığınacağına endirilən artilleriya atəşi nəticəsində xeyli sayda hərbi qulluqçu məhv edilir və yaralanır.

❖ ❖ ❖



Gün ərzində ümumilikdə düşmənin 13 ədəd T-72 tankı, 2 ədəd PDM-i, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 2 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 3 ədəd D-30 haubitsa topu, 2 ədəd radar sistemi və xeyli sayda avtomobil texnikası dəqiq atəşlə məhv edilib və sıradan çıxarılıb.

Cəbhənin istiqamətlərindən birində həyata keçirilən əməliyyat nəticəsində Ermənistan silahlı qüvvələrinin 49-cu tank briqadasına məxsus 6 ədəd T-72 tankı tam işlək vəziyyətdə ələ keçirilib.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Ermənistan: məğlubiyyətin xronikası



Vətən müharibəsi göstərdi ki, Azərbaycan cəmiyyətinin vətənpərvərliyi, insanların döyüş əzmi olduqca yüksəkdir. Humanitar məqsədlərlə elan olunan atəşkəsdən sonra Ermənistanda tamamilə fərqli mənzərə müşahidə olunur: insanlar xof və ümidsizlik içindədir, sabaha inamlarıqalmayıb.

Ermənilər mətbuata açıqlamalarında və sosial şəbəkələrdəki paylaşımlarında Azərbaycan Ordusunun qələbəsindən sonra vahiməyə düşdüklərini gizlətmir, bununla əlaqədar baş nazir Paşinyanı günahlandırırlar. Onlar Azərbaycanın qalib mövqedə olduğunu, Dağlıq Qarabağı tezliklə geri alacağını etiraf edirlər.

Mediada və sosial şəbəkələrdə şənbə və bazar günləri erməni istifadəçiləri tərəfindən yer alan maraqlı status və şərhlərdən bəzilərini diqqətinizə çatdırırıq.

❖ ❖ ❖

"4rd.am" saytının Qarabağa ezam olunmuş xüsusi müxbiri yazır ki, Xankəndidə əhalinin əsəbləri mövcud çətinliklərə dözmür. Heç də hər kəsin Ermənistana və ya xaricə getmək üçün maliyyə imkanı yoxdur. Ona görə də könüllü surətdə taleyi ilə barışanların sayı çoxalır. Vurğulanır ki, Ermənistandakı bütün bu bəlaların kökündə isə mövcud rejimin fəaliyyətsizliyi dayanır.

Sayt Xankəndidə qalan azsaylı sakinlər arasında sosioloji sorğu da keçirib. "Qarabağda gedən döyüşlərin Ermənistan üçün ziyanı nə ola bilər və ya humanitar atəşkəs rejimini necə qiymətləndirirsiniz" sorğusunda Samvel Baqdasaryanın cavabı daha çox diqqət çəkib, sosial şəbəkələrdə bəyənmə toplayıb: "Zirzəmilərdə yatmaqdan artıq xəstəlik tapmışıq. Hər gün şəhərin sakinləri azalmaqdadır. Bilmirik ki, sabaha sağ çıxacağıq, ya yox. Azərbaycanla Ermənistanı müqayisə etmək düzgün olmazdı. ABŞ, Avropa İlham Əliyevdən neft, qaz istəyir. İlham Əliyev də onlara neft, qaz verir. Bəs, Azərbaycan rəhbəri onlardan nə istəyir: yalnız Qarabağı. Belə çıxır ki, onlar da İlham Əliyevə artıq borclu qalmırlar. Azərbaycan Prezidentinin dediyi ilə oturub-dururlar. Əlvida, Qarabağ".



❖ ❖ ❖

"İravunk" qəzeti Xankəndidən hazırladığı reportajda şəhərin getdikcə ağır vəziyyətə düşdüyünü yazır. Raffi Oskanyan adlı tarixçi müəllimlə həmsöhbət olan müxbir davam edən müharibəyə və humanitar atəşkəs rejiminə münasibət bildirib: "Bu gün dünya Azərbaycanın haqlı mövqeyindən danışır. Bütün dünya Paşinyanın çıxışından yox, İlham Əliyevdən danışır. Görəsən, bizim nə vaxt normal bir rəhbərimiz olacaq? İtirilən ərazilərin hesabatını kim verəcək? İlham Əliyev indiyəcən sülhdən danışa-danışa artıq Qarabağı bizdən geri almağa başlayıb. İndi isə açıq şəkildə müharibə davam edir, çox sərt danışırsa, demək, onun hədəfi Yerevandır. Bu gedişlə İlham Əliyevin Xankəndidə, paytaxt Yerevanda qarşısına çıxacaq bir adam tapılmayacaq. Mən özüm də daxil olmaqla on minlərlə insan Qarabağı tərk etməkdədir".

❖ ❖ ❖

"Joxovurd" qəzeti yazır ki, cəmiyyət Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasından, bununla bağlı Ermənistanın üzləşdiyi çoxsaylı problemlərdən narazılıq edir. Artıq ermənilər davam edən döyüşlərdən sonra həm hərbi, həm də diplomatiya cəbhəsində Azərbaycana daha böyük fərqlə uduzmağın gerçəkliyini anlamağa başlayıblar.

Xankəndidə yaşayan Anna Stepanyan adlı sakinin "Nə vaxta qədər belə davam edəcək? Uşaqlarımız boş yerə həlak olur" fikirlərinin yer aldığı məqalədə iki dövlət başçısının müqayisəsi aparılır və sosial şəbəkələrdə daha çox müzakirə olunur. Vurğulanır ki, İlham Əliyevin Azərbaycan üçün nələr etdiyi göz qabağındadır. Ermənistan rəhbərliyi isə yalnı zöz maraqlarını güdür, onlar üçün dövlətin və xalqın mənafeləri yoxdur: "Dörd il əvvəl yaşanılan kabusu Xankəndi, Qarabağ yenidən yaşayır. Paşinyan sevinir ki, nə yaxşı atəşkəs rejimi oldu. Son 10 gün ərzində itirilən torpaqlardan, məğlubiyyətdən sonra Paşinyan, hansı üzlə xalqın qarşısına çıxır? Bəs sabah Azərbaycan əsgəri Yerevana girsə, nə edəcəyik?"



❖ ❖ ❖

Samvel Qriqoryan adlı istifadəçi isə tviter"də yazır: "Paşinyanın rəhbərliyi altında indiyədək Ermənistan hər sahədə məğlub olub, vətəndaşlarımız vətənlərindən qaçırlar. Onun rəhbərliyi altında bizi parlaq gələcək yox, tam məhvolma gözləyir. Paşinyan bizi məğlub etdi. İndi rədd olmalıdır!".

Edqar Qasparyan adlı biri feysbukda hakim "Mənim addımım" blokundan olan istifadəçilərin dahaçox rəy bildirdiyi qrupda maraqlı bir şərhlə diqqət çəkib və bununla da onların kəskin tənqidi ilə üzləşib. O yazıb: "İki gündür statuslarınıza baxıram, atəşkəsrejiminə sevinirsiniz. Bu qədər



yalana heç özünüzün də inanmadığınızı düşünürəm (gülüş işarəsi). Gəlin həqiqəti danmayaq. Azərbaycan davam edən müharibədə neçə rayonu bizdən aldı. Paşinyanın Qarabağ məsələsində xalqı aldatmaq cəhdi isə günlər ötdükcə daha da iflasa uğramaqdadır. İlham Əliyev orduya milyardlarla dollar vəsait ayırır. Bizdəki hakimiyyət isə dövləti talamaqla ancaq cibini doldurur".

Sonda Xarput Mxıtaryan adlı istifadəçinin feysbukda paylaşdığı statusu vurğulamaq yerinə düşərdi: "Paşinyan son iki ildə Ermənistanıməhv edib. Satılmayan torpaq, zavod, obyekt qalmayıb. O hər dəfə Rusiyaya, Avropaya, xaricə gedəndə qorxuram ki, Yerevana qayıtmaya, çünki burda daha gəlir qazanacağı bir şey qalmayıb. Əziz atəşkəs rejiminə sevinən ermə-



nilər, mənə gülməyin. Bir günbu xəbərlə sabahımız açıla bilər: Paşinyan Ermənistandan qaçdı! Yəqin, axşamın daxəbəri belə olacaq: Azərbaycan əsgəri sərhədi keçib Yerevana doğru yürüyür".

Əlavə şərhə ehtiyac yoxdur...

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!**

# Əcəlini şəhidliyə dəyişən kapitan

Uşaq ikən eşitdiyimiz bir fikir bizimlə illərdir ki, yoldaşlıq edir. Deyirlər ki, dünyaya gələn insanla birgə onun taleyi də doğulur. Hər kəs o izə düşərək ömrünü yaşayır. Onu dəyişməyə gəlincə, hələ heç kəs bu işin öhdəsindən gələ bilməyib. Mümkünsüzlük içində milyonlar bu dünyanı tərk edib və qismətinə düşəni özü ilə apara bilib. Bəzən rəhmət, bəzən də əfsus kəlmələrini hamı eşidib. Buna görə də bəziləri sabahın naümid olduğunu bilərək daha çox işləmək, xoş əməllər sahibi kimi xatırlanmaq istəyir.












Tanrı onları özü seçir və o kəslərə dirilik ruhunu abi-həyat suyu kimi içirir. Şəhidliyə qovuşanlar bu tale qismətini yaşayanlardır. Belə ömrü yaşamaq o qədər asan deyil. Vətən torpağını canı ilə dəyişənlərdən və onu yadigara çevirənlərdən biri də Salehdir.

## Tez böyümək istəyən oğul

Saleh Möhübbət oğlu Qurbanov 14 aprel 1990-cı ildə Xızı rayonunun Giləzi qəsəbəsində dünyaya göz açıb. Ailədə iki qardaş, bir bacı olan Qurbanovlar kənddə hamının hörmət etdiyi gənclər olub. Mikayıl Müşfiq adına Giləzi kənd tam orta məktəbində müəllimlər Salehin fizika və riyaziyyata marağını və düşüncə tərzini görüb valideynlərinə xəbər göndərirlər.

- Getdim məktəbə ki, görəsən nə olub? - deyə atası Möhübbət söhbətə başlayır. Müəllimlər Salehin fizikanı yaxşı bildiyini dedilər və gələcəkdə təhsilini davam etdirməsini məsləhət gördülər. Axşam evdə soruşdum ki, bala, məktəbi qurtaranda neyniyəcəksən. 7-ci sinifdə oxuyan Saleh mənə dedi ki, ata, tez böyümək istəyirəm. Onun nə demək istədiyini başa düşmədim. Başa düşmədim və üzünə baxdım. Anidən sakitcə, əsgər olmaq istəyirəm, dedi.

Beləcə orta məktəbi bitirən Saleh Sumqayıt Dövlət Universitetinin Fizika fakültəsinə qəbul olur. Oxuduğu müddətdə bir dəfə də olsun evdən pul istəmir. Hər dəfə atası cibinə pul qoymaq istəyəndə, yox, lazım deyil, varımdı, deyir.

- Sonra öyrəndik ki, Sumqayıtda ali məktəblərə hazırlıq kursunda çalışırmış, - deyə Möhübbət kişi gözləri yol çəkə-çəkə danışır. Qardaşı Taleh ondan iki yaş böyükdü. Arabir qardaşına pul verirmiş ki, ailəyə kömək etsin. Anasına hər dəfə hədiyyələr gətirərdi. Bacısı Ruhiyyə isə onunla nəfəs alırdı.

Sözlərini sona çatdıra bilmədi şəhid atası, özünü toparlayıb susdu. Otaqdakı sakitlikdə mənə elə gəldi ki, içəridə nəsə dolanır. Möhübbət kişi köksünü ötürdü, söhbətinə davam etdi:

- Mən həmişə kövrələndə elə bilirəm ki, başımın üstündə oğlum durub. O an sakitləşirəm. Bir də tapşırıb ki, mənim üçün ağlamaq yox, dua etmək lazımdır.

## Dualardan biri də Vətəndir

Beləcə ali məktəbi bitirdikdən sonra fizika müəllimi ixtisasına yiyələnir. Həmin il əsgəri xidmətə çağrılan Saleh tədris mərkəzində 3 aylıq kurs keçir.

- Bir gün evə gəlmişdi, - qardaşı Taleh bildirir. Dedi ki, əsgərliyi qurtarandan sonra hərbidə qalacam. Mənə dedi ki, atama sən deyərsən bunu. Hərbi hissəyə qayıdandan bir neçə gün sonra atama dedim. O da dedi ki, qurtarıb gəlsin baxarıq. Əgər istəyirsə, qoy olsun. Bizim nəsildə də hərbçinin olmasının nəyi pisdi ki?..

Beləcə, hərbi qulluqçu kimi leytenant rütbəsi alaraq xidmətə başladı. Şəmkir korpusunun leytenantı Saleh cəmi üç ildən sonra, 2014-cü ildə ailəsinə yaxşı xidmətə görə fəxri fərmanlar gətirir. Böyük hərbçi yolunun üstündə bütün çətinliklərə sinə gərən Saleh Aprel döyüşlərində iştirak edir.

## Düşmənə qalib gəlmək şərəfdir

- Döyüşlərin başladığını eşidəndə narahat olduq, - atası bildirir. On gün ərzində Salehdən xəbər gəlmədi. 11-ci gün qəflətən gördük ki, həyətdədir. Bütün Giləzi bizdə idi. Düşmənin başını yaxşı əzdik, deyirdi. Onlara layiqli cavab verəndə it kimi qarşımızdan qaçırlar. Yəqin Ali Baş Komandanımız, inşallah, bizi qələbəyə daşıyar.

Hər dəfə kəndə gələndə tezdən qəbiristanlığa yollanardı Saleh. Ya tək gedərdi, ya da qardaşıynan. Şəhidləri ziyarət edər, ruhlarına dualar oxuyardı.

- Oğlum dinə bağlı adam idi, - anası Esmira bildirir. Namaz qılmağı da öyrənmişdi. Qarabağa çox bağlı idi. Deyirdi ki, düşməni əzsək, başımızı dik tutub gəzərik. Həm də azğın düşməni əzmək, qalib gəlmək oğulların şərəf işidir.

## Subaylığa daş atmağın vaxtıdı

2016-cı ildə Saleh qardaşına evlənmək istədiyini bildirir. Valideynləri bunu eşidib sevinirlər. Say-seçim başlayır Qurbanovlar ailəsində.

- Axşam ailəliklə söhbət edirdik, - Esmira ana davam edir. Qızım Ruhiyyə başı ilə Salehə işarə etdi. Heç nə başa düşmədim. Atalarından çəkinərdilər. Ruhiyyə söhbəti açdı ki, qardaşım bilirsiniz kimi istəyir?. Saleh tez qalxıb eşiyə çıxdı. Qızım dayısının nəvəsinin adını çəkdi. Hamımızın könlündən keçən olduğu üçün kişi Salehi içəri səslədi. Qapıdan içəri girən kimi, "Allah mübarək eləsin", dedi. Uşaq kimi hamımızı qucaqlayıb öpdü. Dediyi söz indi də qulaqlarımdadı: subaylığın daşın atmaq lazımdı.

Tezliklə dayısının nəvəsi ilə Salehin toyu oldu. Giləzi belə toy görməmişdi. Hərbçi yoldaşları, tələbə dostları bu mehriban, qayğıkeş insanın xeyir işində layiqincə iştirak etdi. Toyunun səhəri Saleh hərbi xidmətdə fərqlənməyə görə medalı ilə təltif edildi.

## Qələbəyə doğru gedən yol

Tovuzda xidmət müddətində göstərdiyi fədakarlığa, hərbi işi mükəmməl bildiyinə görə dəfələrlə Saleh komandanlığın fəxri fərmanları ilə təltif olunub. Qayğıkeş zabit kimi tanınan Saleh öz əsgərlərinə əsl hərbçi kimi yanaşıb. Yeri gəlmişkən, onun şəhadətindən xəbər tutan tərxis olunmuş onlarca əsgər respublikanın müxtəlif bölgələrindən evimizə gələrək komandirlərinə ehtiramlarını bildiriblər.

2019-cu ildə Salehi Bakı qarnizonuna göndərirlər. Əməliyyat planlarını, taktiki gedişləri yaxşı bildiyi üçün XTQ-yə çağrılır. Elə həmin günlərdə ona vaxtından əvvəl kapitan rütbəsi verilir.

Vətən müharibəsi başlayanda döyüşlərə atılan Saleh Füzuli, Cəbrayıl, Xocavəndin alınmasında qəhrəmanlıqlar göstərir. Zabit yoldaşı Adil Əliyev qəhrəman komandir barədə bunları deyir:

- Əməliyyatların çoxunu Saleh hazırlayırdı. Komandanlıq onun hazırladığı əməliyyatları dəstəkləyirdi. Həmişə də döyüşdən uğurla çıxırdıq. Düşmənə qarşı içində bir nifrət vardı Salehin. Həmişə deyərdi ki, biz günahsız insanların tökülən qanının hesabını ermənilərdən almalıyıq. Bu bizim intiqam borcumuzdur.

Döyüşlərdə göstərdiyi rəşadətə görə o, Cəbrayılın, Füzulinin, Xocavəndin və Laçının işğaldan azad edilməsinə görə medalları ilə təltif edilir. Həmçinin hərbi xidmətdə fərqlənməyə və "Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə görə" medalları onun polad sinəsinin bəzəyi idi.

Sentyabrın əvvəllərində hərbi hissədən evə gələn Saleh anası ilə yaxın bir qohumun yasına gedir. Orada söhbət ömürdən, taledən düşür. Hərə öz fikrini bildirir. Çünki rəhmətə gedən cavan adam idi.

- Saleh dayandı, - anası bildirir. Hamı ona baxırdı. O, belə bir cavab verdi ki, əcəlin səni tapmasını gözləməkdənsə, gedib onun əlindən tutmaq daha yaxşıdı. Onu mərdi-mərdanə şəhidliklə dəyişərəm. Elə bil yaxında baş verəcəklərdən xəbərdar idi.

Bu ilin sentyabrında erməni təxribatının qarşısını almaq üçün Saleh döyüşlərə atılır. 13 sentyabrda döyüş yoldaşlarını xilas edərkən özü şəhidlik zirvəsinə yüksəlir. 14 rəqəmi altında doğulan Saleh elə həmin rəqəmin kölgəsində də dəfn olunur.

***Akif ƏLİYEV, "Azərbaycan"***

# Milli qəhrəmanın evində şəhid ailələri və qazilərlə görüş keçirilib

Naftalanda Azərbaycanın Milli Qəhrəmanı Niyazi Aslanovun evində şəhid ailələri və qazilərlə görüş keçirilib.



Görüşdə Vətən müharibəsi zamanı Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun göstərdiyi igidliklərdən, Azərbaycan oğullarının misilsiz qəhrəmanlıqlarından söz açaraq adları Vətən tarixinə əbədi yazılan şəhidlərimizin ölkəmizdə daim hörmət və ehtiramla yad edildiyi diqqətə çatdırılıb. Onların gələcək nəsillərə örnək olduğunu vurğulayan icra başçısı, vətənpərvər, mərd, şücaətli övladlar yetişdirdiklərinə görə şəhid valideynlərinə minnətdarlığını bildirib, Vətən uğrunda sağlamlığını itirən qazilərə şəfa diləyib.

Çay süfrəsi ətrafında davam edən səmimi söhbət zamanı Milli Qəhrəmanın həyat yoldaşı Rübabə Aslanova şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıdan danışaraq dövlət başçısına öz dərin minnətdarlığını bildirmiş, şəhər rəhbərinin təşəbbüsü və təşkilatçılığı ilə Milli Qəhrəmanın ocağına toplaşmağın şəhid ailələrinə olan yüksək hörmət və ehtiramın bariz nümunəsi olduğunu qeyd etmişdir.

Çıxış edən digər şəhid ailələrinin üzvləri belə görüşlərin mütəmadi olaraq davam etdirilməsini onlara göstərilən mənəvi dəstək və qayğı kimi qiymətləndirmişlər.

Sonda Naftalan Şəhər İcra Hakimiyyəti tərəfindən şəhid ailələrinə və qazilərə xatirə hədiyyələri təqdim olunmuşdur.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Vətən üçün yaşanan ömür










"Siz məni ölmüş hesab etməyin! "Şəhidlərə ölü deməyin!" deyən Allah bizə ölmədən əvvəl yerimizi göstərdi. Oranı görsən, sən də şəhid olmaq istəyərsən.
Sizi orada gözləyəcəm, canım ailəm!.."

Bu, mayor İlkin Əhədzadənin şəhadətə ucalmazdan əvvəl ailəsinə göndərdiyi məktubundakı son sözləridir...

Əbəs yerə deyilməyib ki, qəhrəman olmaq üçün elə qəhrəman kimi doğulmaq gərəkdir. Həyatda hər kəsin bir missiyası olduğu kimi, İlkinə də Vətən uğrunda silaha sarılmaq, bu haqq davamızda şücaət göstərmək nəsib oldu. Onun da adı tariximizə 30 illik işğala son qoyan qəhrəmanlarımızın sırasına yazıldı...

Hələ yeniyetmə ikən Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olanda bəlkə də bu missiyasının fərqində idi. Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirərək məqsədinə doğru daha bir addım da atdı. Cəsarəti və çalışqanlığı ilə həmişə yoldaşlarına örnək oldu, nümunəvi xidmətinə görə mükafatlar aldı, medallar, fəxri fərmanlarla təltif edildi. Ən əsası, yalnız ailəsinin, dostlarının deyil, hərbçi yoldaşlarının, tabeçiliyində olan əsgərlərin də ehtiram etdiyi, hörmət bəslədiyi insan idi mayor İlkin Əhədzadə.

İgidimiz 14 yaşında başladığı bu yolu 35 yaşında ən ümdə arzusuna çataraq başa vurdu, oktyabrın 1-i Murovdağ döyüşləri zamanı şəhid oldu...

## Xoşbəxtliyi gözləmişik, xoşbəxtliyin içində biz...

İlkinin nəfəsinin hopduğu mənzildə - "xatirə otağı"nda həyat yoldaşı Gülsüm xanımla söhbətləşirik. Deyir ki, ailəli olduqları 12 il müddətində bircə dəfə də olsun könlümü qırmayıb: "Xoşbəxt olmuşuq, xoşbəxt idim onda mən. Hərbçi ilə ailə qurduğumu bilsəm də, bu qədər çətin olacağını düşünməmişdim. Ailə qurub Gəncəyə köçdük. Xidmətiylə əlaqədar onu hər gün görə bilmirdik. Amma Bakıya da qayıtmaq istəmirdim. Deyirdim, həftədə bir görüşürük, bu da bəsimizdir. Yaxşı ki, gəlməmişəm, yoxsa heç vaxt özümü bağışlamazdım..."



Şəhid xanımı deyir ki, hərbçi ömrü kənardan göründüyündən daha çətindir. İlkin evə gələndə o qədər yorğun olurdu ki, çox vaxt elə oturduğu yerdə yuxulayırdı. Bu zaman o, kənardan baxıb deyirmiş ki, "Ay Allah, sən bütün hərbçilərimizə güc-qüvvət ver".

İlkin çox gözəl ata idi. Hər 3 övladını həyatı qədər sevirdi. O məktub da bu sevgi, əsl atalıq duyğusu ilə yazılmışdı. Göz yaşlarına hakim ola bilməyən Gülsüm xanım hıçqıraraq: "İlkinə qədər elə düşünürdüm ki, heç kim mənim atam kimi yaxşı ola bilməz. Sən demə, varmış. Hər axşam yeməyində süfrə arxasında əyləşib onunla görüntülü danışardıq. Uşaqlar ailəmizi birlikdə görsünlər, darıxmasınlar deyə. Hər gün onların dərsləri ilə maraqlanar, bizi diqqətdən kənarda qoymazdı. Ona da razı idik, daha çətin sınaqlara da. Amma gərək birlikdə olaydıq. İndi isə qızlar nədənsə küsəndə, inciyəndə sakitcə bu otağa gəlib, atalarının şəkilləriylə dərdləşirlər..." deyir.

Şəhidimizin anası Asəmən xanım deyir ki, İlkin ailənin ilk övladı idi: "Onu min bir zəhmətlə böyütmüşük. Uşaqlıqdan qoçaqlığı, vətənpərvərliyi ilə yaşıdlarından seçilirdi. Heç nədən qorxmaz, gözünü qırpmadan özünü çətinliyə atardı. Özünü tanıyandan hərbçi olmaq istəyirdi. Təhsil, peşə yolunu da özü seçmişdi. Həmişə bununla fəxr edər, işindən qürurla danışardı. Amma torpaqlarımızın hələ də düşmən tapdağında olması onu yaman incidirdi. Deyirdi ki, Qarabağ münaqişəsinin bizim dövrümüzdə həll olunmasını istəyirəm. Bizdən sonrakı cavanlar Vətən nisgili ilə yaşamasınlar, körpələrimiz ürəklərində bu kədərlə böyüməsinlər".

Şəhid anası bunları deyə-deyə gözlərini qapıdan çəkmir. Amma anlaya bilməyəcəyimiz bir toxtaqlıq var səsində. Digər şəhid analarımızda da bu məğrurluğun şahidi olmuşuq. Görünür, əsl qəhrəman anaları belə olurmuş...

## "Ailəm sizə əmanət"

Şəhidimizin qardaşı Elvin Əhədzadə deyir ki, biz təkcə qardaş olmamışıq, həm də candaş, sirdaş olmuşuq. Münasibətimiz "qardaş" sözünə sığışmırdı: "Elə bir gün olmazdı ki, danışmayaq. Problemləri, çətinlikləri heç valideynlərimizin, ailələrimizin xəbəri olmadan məsləhətləşib birgə həll edirdik. Müharibənin başladığı gün mənə zəng edib dedi ki, birdən mənə nəsə olsa, ailəm sizə əmanət. Oktyabrın 1-i işdə nədənsə ürəyim birdən-birə sıxıldı. Nigaran idim, İlkinə 30 dəfə zəng etdim. Xəbər ala bilmədim. Oktyabrın 2-si saat 10-11 radələrində hərbçi yoldaşı mayor Nizami Ağayev zəng etdi ki, hazırlıqlı olun, sizə zəng gələcək. Vəziyyəti anladım, dizlərim taqətdən düşdü, yerə çökdüm. Kiçik qardaşıma hal-qəziyyəni çatdırdım, lakin valideynlərimizdən gizlətdik. Çünki bu xəbər gələndə qardaşımın nəşi hələ döyüş meydanından təxliyə edilməmişdi... Cəsarətli döyüş yoldaşları sayəsində qardaşımın cansız bədəninə belə olsa, qovuşduq".

Mayor İlkin Qələmşah oğlu Əhədzadə ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə", "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edilib.

Gözün arxada qalmasın, şəhidim, torpaqlarımız artıq düşmən tapdağında deyil. Düşmən dədə-baba torpaqlarımızda daha heç vaxt at oynada bilməyəcək. Ruhun şad olsun.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***




# 2022-ci il "Şuşa ili"dir

● Qarabağ Azərbaycandır!

**Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən müqəddəs Qarabağ torpaqlarının düşmən tapdağından azad olmasından sonrakı 2 ilə yaxın müddətdə regionda misli görünməmiş bərpa və quruculuq işləri aparılmış, ermənilər tərəfindən törədilmiş ekoloji fəlakətlərin elmi əsaslı monitorinqi, azad edilmiş ərazilərin bioloji müxtəlifliyinin, torpaq və su ehtiyatlarının, kənd təsərrüfatının bərpası, mühafizəsi və səmərəli istifadəsi, biotəhlükəsizlik problemləri üzrə tədqiqatlar geniş vüsət almışdır.**




# Şuşa və ətraf ərazilərin biomüxtəlifliyi: *gələcəyə baxış*

Bütün bu istiqamətlərdə hələ 2021-ci ilin mayında Azərbaycan Milli Elmlər Akademiyasında "Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bu günü və gələcəyi" mövzusunda onlayn konfrans keçirilmişdir. Həmin konfransdan keçən müddət ərzində akademiyanın institutları, alim və mütəxəssisləri, eləcə də ölkənin digər elmi tədqiqat və təhsil müəssisələri tərəfindən regionda müəyyən həcmdə tədqiqatlar aparılaraq bir sıra nəticələr əldə edilmişdir. Qarabağda elmi tədqiqatların bərpası üzrə ötən dövrdə görülmüş işlərin geniş tərkibdə müzakirəsi, real tədqiqatlardan alınmış nəticələrin yerli və beynəlxalq ictimaiyyətə çatdırılması, müvafiq tədqiqat istiqamətlərinin və planlarının yenilənməsi və ya onlarda korrektələrin edilməsi məqsədilə yeni bir elmi konfransın təşkilinə ehtiyac yaranmışdır.

"Şuşa və ətraf ərazilərin biomüxtəlifliyi, torpaq və su ehtiyatları: gələcəyə baxış" mövzusunda beynəlxalq konfrans isə bu il sentyabrın 22-də AMEA-nın əsas binasında keçirilmişdir. Akademik Arif Həşimov müstəqil dövlətçiliyimizin, ərazi bütövlüyümüzün, milli mənliyimizin xilası olan 44 günlük müharibənin Azərbaycan dövlətinin və xalqının əbədi qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazıldığını bildirmişdir.

30 illik fasilədən sonra Qarabağın yeraltı və yerüstü, canlı və cansız, təbii və mədəni sərvətləri, mövcud bioloji və ekoloji durumu, gələcək inkişaf perspektivləri ciddi multidissiplinar tədqiqatların mövzusudur. Artıq region üzrə bioloji, ekoloji və radioloji monitorinqlər ardıcıl xarakter daşıyır, Ermənistanın Qarabağda törətdiyi ekoloji terrorun miqyası qiymətləndirilir, regionun aqroiqlim şəraitinə uyğun bitki sortları yaradılır və onların toxumçuluğu təşkil olunur. Qarabağda tədqiqatların bərpası və gücləndirilməsi ilə bağlı AMEA-da bir sıra qərarlar qəbul edilmiş və bir neçə mühüm elmi tədbirlər, onlayn konfranslar,




Bakıda və Qarabağ regionunda bir neçə seminar keçirilmiş, tədqiqatlardan alınan nəticələr əsasında akademiyanın "Həyat elmləri və biotibb" jurnalının xüsusi nömrəsində nəşr olunmuşdur. Alimlər ekoloji fəlakətlərin bu regionun biomüxtəlifliyini məhv etdiyinə və endemik növlər üçün ciddi təhlükə yaratdığına diqqət çəkmişlər.

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini, professor Elçin Zeynalov işğaldan azad olunmuş ərazilərimizin böyük iqtisadi potensiala malik olduğunu, xüsusən dünyanın mədəni mərkəzlərindən biri olan Şuşa şəhərinin və ətraf ərazilərin bu mənada xüsusilə seçildiyini qeyd etmişdir. Azad olunmuş ərazilərdə meyvəçiliyin və tərəvəzçiliyin, heyvandarlığın inkişafı üçün zəruri infrastruktur, uyğun torpaq-iqlim şəraiti mövcuddur. Bundan başqa, bütün təhlükəsizlik tədbirlərinə riayət edilməklə payızlıq və yazlıq əkin işləri, növbəti təsərrüfat ilinə hazırlıqla bağlı məsələlər ciddi əhəmiyyət kəsb edir. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı fəaliyyətinin bərpası, ətraf mühitin və biomüxtəlifliyin qorunması, "yaşıl" texnologiyaların tətbiqi 2022-ci il üzrə başlıca məqsədlər olmuşdur.

Əsrarəngiz gözəlliyə, zəngin və çox qiymətli təbii sərvətlərə malik olan Azərbaycanın təbiətinin qorunması və bu sərvətlərin düzgün istismarı ölkədə prioritet məsələlərdəndir. Otuz ilə yaxın davam edən işğal dövründə meşə sahələrinin, flora və faunanın, təbiət abidələrinin məhv edilməsi, su resurslarının çirkləndirilməsi və təbii sərvətlərin qeyri-qanuni istismar olunması nəticəsində bu ərazilərdə ekoloji tarazlıq pozulmuşdur.

Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sənəddə işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış və yüksəkkeyfiyyətli ekoloji mühitin təmin olunmasının yaxın 10 il üçün əsas strateji istiqamətlər kimi göstərildiyini diqqətə çatdırmışdır. Bu gün azad edilmiş ərazilərdə "Qırmızı kitab"ın 3-cü nəşrinin hazırlanması çərçivəsində nazirlik AMEA ilə birlikdə elmi-tədqiqat işləri həyata keçirir. Vüqar Kərimov demişdir ki, müasir texnologiyaların tətbiq edildiyi "ağıllı" şəhər və kənd konsepsiyasının reallaşdırılması regionun unikal təbiətinin qorunması, insan, ətraf mühit arasında tarazlığın təmin edilməsi şəhər mühitində sağlam və keyfiyyətli həyat tərzinin bərqərar edilməsinə səbəb olacaq. İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdış çərçivəsində ekoloji bərpa işlərinin həyata keçirilməsi, ətraf mühitin mühafizəsinin etibarlılığının artırılması, biomüxtəliflik və digər təbii resurslardan, həmçinin mineral xammal ehtiyatlarından səmərəli istifadə təbiətin dirçəlməsinə gətirib çıxaracaqdır.

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova "zəngin biomüxtəlifliyə, su və torpaq ehtiyatlarına, əlverişli torpaq-iqlim şəraitinə və coğrafi mövqeyə, torpaq və su təminatına malik olan azad edilmiş ərazilərin inkişafının sistemli xarakter alması üçün elmin intensiv iştirakı və fəaliyyətlərin elmi yanaşmalara əsaslanmasının tələb olunduğunu vurğulayaraq bu ərazilərə son dövrlərdə elmi müəssisələr və mütəxəssislər tərəfindən ekspedisiyaların təşkil olunduğuna, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və digər təşkilatlarla əməkdaşlıq şəraitində monitorinq tədqiqatlarının aparıldığına diqqət çəkmişdir. Qarabağda alimlərimiz tərəfindən həyata keçirilmiş tədqiqat işlərinin istiqamətləri sırasında ayrı-ayrı obyektlərin radioekoloji vəziyyətinin, bioloji ehtiyatlarının və biotəhlükəsizlik məsələlərinin öyrənilməsi ilə bağlı işlər, su resurslarına və su ilə bağlı problemlərin həllinə aid araşdırmalar, Azərbaycan Respublikasının "Qırmızı kitab"ının 3-cü nəşrinə daxil edilməsi planlaşdırılan növlərin monitorinqi ilə bağlı tədqiqatlar, eləcə də Qarabağ Elmi-Tədqiqat Bazasının bərpasına və burada region üçün yaradılmış bitki sortlarına dair fəaliyyətlər xüsusi olaraq qeyd edilməlidir. Artıq 3 ekspedisiya həyata keçirilmiş, Füzuli və Cəbrayıl rayonlarının Arazboyu ərazilərində, Zəngilan və Qubadlı rayonlarında, Şuşa şəhəri və ətraf ərazilərdə "Qırmızı siyahı" növləri ilə bağlı araşdırmalar aparılmışdır. Son bir ildə Genetik Ehtiyatlar İnstitutunun Qarabağ Elmi-Tədqiqat Bazasında 2 tarla seminarının keçirildiyini söyləyən vitse-prezident bildirib ki, böyük zəfərdən sonrakı dövrdə bazanın 100 hektar ərazisi minalardan təmizlənmiş, burada genofond bağı salınmağa başlanılmış, prioritet kənd təsərrüfatı bitkilərinin bölgə üçün yaradılmış yeni sortlarının və potensial sort nümunələrinin əkinləri aparılmış və onlar üzərində tədqiqat işləri həyata keçirilmişdir. Ötən dövr ərzində işğaldan azad edilmiş ərazilərin su resurslarına, onların bərpasına, yeni mənbələrin tapılmasına və su ilə bağlı problemlərin həlli üzrə çoxsaylı təkliflər verilmiş və əsaslandırılmışdır.

Konfransa Türkiyə, İran, Ukrayna, Rusiya, Şimali Kipr Türk Respublikası, Cənubi Koreya, Çin, Gürcüstan və s. ölkələrdən 257 tezis təqdim edilmişdir.

Beynəlxalq konfransın bağlanış mərasimi Azərbaycanın mədəniyyət mərkəzi Şuşada, Cıdır düzündə baş tutmuşdur. Mərasimdə AMEA-nın Biologiya və Tibb Elmləri, Yer Elmləri, eləcə də Fizika-Riyaziyyat və Texnika Elmləri bölmələri üzrə 50-yə yaxın nümayəndə iştirak etmişdir.

Neft-Qaz İnstitutunun baş direktoru akademik Fəxrəddin Qədirov Azərbaycan alimlərinin Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları, ekologiyası, geoloji quruluşu, yeraltı və yerüstü sərvətləri ilə bağlı apardıqları tədqiqatların daha da gücləndirilməsinin vacibliyini bildirmişdir. Geologiya və Geofizika İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Çingiz Əliyev tədbirin Qarabağın təbii ehtiyatları ilə bağlı elmi fikirlərin mübadiləsi baxımından əhəmiyyətli olduğunu vurğulamış, işğaldan azad olunmuş ərazilərin radioekoloji monitorinqinin aparılmasında AMEA mütəxəssislərinin yaxından iştirak etdiyini, bu ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün xəritələrin çəkilməsi istiqamətində işlərin görüldüyünü diqqətə çatdırmışdır.

Konfrans iştirakçıları Şuşa şəhərində Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Molla Pənah Vaqifin məqbərəsini ziyarət etmiş, şəhərin tarixi mərkəzini əhatə edən qala divarlarına - Şuşa qalasına, Üzeyir bəy Hacıbəyli, Bülbül və Natəvanın heykəllərinə baxış keçirmişlər.

Alimlər öz dəyərli fikirlərini, apardıqları araşdırmaların nəticələrini, yaxın gələcək üçün tədqiqat planlarını, birgə çalışmaq niyyətlərini bölüşmək üçün konfransdan yeni bir platforma kimi istifadə etmişlər. Azərbaycan elminin müvafiq sahələrinin üzərinə düşən mühüm vəzifələrin müəyyənləşdirilməsi baxımından da faydalı olmuş beynəlxalq konfrans elm adamlarını, tədqiqatçıları həmin vəzifələrin yerinə yetirilməsi uğrunda səfərbər etməyə kömək etmiş, burada bir sıra müştərək multidissiplinar tədqiqatların əsası qoyulmuşdur.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Ziyalılarımız

# Mühacir istiqlalçı

**Dünyanın müxtəlif ölkələrində mühacir həyatı yaşayan dəyərli ziyalılarımızdan biri də əslən Şuşadan olan şair və yazıçı Mirzə Abay Dağlıdır.**



Ədəbi aləmdə yazıçı-dramaturq Mirzə Abay Dağlı kimi tanınan Cəmil İbrahim oğlu Ağayev 1906-cı il yanvarın 17-də Şuşada çilingər ailəsində anadan olub. İlk təhsilini şəhər realnı məktəbində alıb. 1932-ci ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin Dil və ədəbiyyat fakültəsinə daxil olub. 1936-cı ildə həmin ali təhsil ocağını müvəffəqiyyətlə bitirdikdən sonra Şəmkir rayonunda müəllimlik edib. Daha sonra Şəki Pedaqoji Məktəbində çalışıb. Cəmil Ağayev bu dövrdə pedaqoji fəaliyyətlə yanaşı, bədii yaradıcılıqla da məşğul olub. Şəkidə nəşr olunan qəzetlərdə "Şuşalı" təxəllüsü ilə şeir və məqalələr çap etdirib. O, jurnalistliklə yanaşı, elmi fəaliyyətlə də məşğul olmaq qərarına gəlib. Bu məqsədlə Bakıda aspiranturaya daxil olub və 1940-cı ildə Nizami muzeyində (indi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi) elmi işçi vəzifəsində çalışıb. XI əsr Azərbaycan ədəbiyyatına dair araşdırmalar aparıb. 1941-ci ildə gənc alim hərbi xidmətə çağırılıb. İkinci Dünya müharibəsində iştirak edən tədqiqatçı-alim Qələbədən sonra Sovet İttifaqı ərazisini tərk edərək əvvəl Münhenə, sonra isə Türkiyəyə getmiş, orada ailə quraraq ömrünün sonuna kimi Ankarada və İstanbulda yaşamışdır. Abay Dağlının yaradıcılığı hazırda Ankarada milli kitabxanada mühafizə edilir.

Mirzə Abay Dağlı Şuşadan uzaqlarda olsa da, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin imperiya qüvvələri tərəfindən işğalını, erməni-bolşevik birləşmələrinin xalqımıza qarşı törətdiyi qırğınları, repressiya illərindəki məşəqqətləri heç vaxt unuda bilməyib. Bu səbəbdən də qələmə sarılaraq yurdunun ağrı-acılarını tarixə və millətə xidmət olaraq dünya ictimaiyyətinə çatdırmağı özünə mənəvi borc bilib. Onun bu dövrdə Vətənə, doğma yurda dair yazdığı şeirlər diqqətçəkəndir. Yazar doğulub boya-başa çatdığı Şuşaya, xarıbülbülə çoxlu şeirlər həsr edib.

1947-ci ilin sonundan Türkiyədə mühacir həyatı yaşayan Abay Dağlı Sakarya və Adapazarı liseylərində müəllimlik edib. O, bu dövrdə pedaqoji fəaliyyətlə yanaşı, çoxsaylı dram əsərləri və şeirlər yazıb. Azərbaycan tarixi müstəqilliyinə qovuşduqdan sonra Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət Arxivində Abay Dağlının bacısı Xanım Abbasovanın təqdim etdiyi sənədlər əsasında, 1924-1997-ci illəri əhatə edən 961 saylı Mirzə Abay Dağlı fondu yaradılıb. "Nəsimi", "Şuşa", məşhur xanəndə Xan əmiyə xitabən "Xanəndə Xana", "Naz", "Mərhəmət", "Cocuq sabahları", "Şən günlərə doğru" şeirləri, "Natavanın arzuları", "Vətən düşüncələri", "Qızıl bayraq dalğalanır" pyesləri, habelə məqalələri, məktubları, qeydləri, bir sözlə, bu sıradan 310-a qədər material həmin fondda saxlanılır. Materiallardan aydın olur ki, o, ədəbi aləmdə "Şuşalı", "A.Dağlı", "Ağa Dağlı", "A.Cəmil", "Ağayev Cəmil", Mirzə Abay Dağlı və "Rana" imzaları ilə tanınıb.

Mirzə Abay Dağlının dəyərli əsərlərindən biri də Türkiyədə nəşr edilən "Onlar türklərdir" kitabıdır. İllərlə "Rana" kimdir sualı ilə tədqiqatçıların axtarışında olan bu kitab 1991-ci ildə Ramiz Abutalıbovun Parisdən gətirdiyi çoxsaylı sənədlərin içərisindən tapılıb. Həmyerlisi "Sayın Ceyhun Hacıbəyli bəy əfəndiyə!" 29 noyabr 1950-ci ildə müəllifdən hədiyyə edilmiş bu kitab tədqiqatçı-publisist Aslan Kənan tərəfindən Azərbaycan dilinə uyğunlaşdırılaraq 1993-cü ildə Bakıda nəşr edilib. Kitabda Sibirə sürgün edilən 30 nəfər ziyalının başına gətirilən müsibətlərdən bəhs edilir.

Dramaturgiya ilə ardıcıl məşğul olan Mirzə Abay Dağlı tarixi mövzuda yazdığı və oxucular tərəfindən çox sevilən əsərlərində Azərbaycan və Türkiyə xalqlarının yaşadığı keçmişin şərəfli səhifələrini, qüdrətli şəxsiyyətlərini canlandırmağa çalışıb. Müəllifin dram əsərləri sırasında "Dədə Qorqud", "Gənc ata" , "Sakarya qərargahı", "Füzuli", "Natəvan", "Okullular" kimi tarixi mövzuda yazdığı pyesləri xüsusi yer tutur.

Dramaturqun "Gənc ata" pyesi Türkiyə Cümhuriyyətinin qurucusu, istiqlal savaşının sərkərdəsi və qəhrəmanı Mustafa Kamal Atatürkə həsr olunmuşdur.

"Dədə Qorqud" pyesində isə qədim qəhrəmanlıq eposunun motivləri əsasında yeni, orijinal bir sənət nümunəsi yaratmışdır.

Abay Dağlının "Natəvan" pyesinin mövzusu isə Qarabağda "Xan qızı" ləqəbi ilə məşhur olan şair Xurşidbanu Natəvanın həyatından alınmışdır.

Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin ömür yolunu əks etdirən "Füzuli" pyesi Abay Dağlının ən maraqlı qarşılanan əsəri hesab olunur. Müəllifin qeyd etdiyinə görə, bu əsər Füzuli poeziyasının ecazkar təsiri altında yazılıb. Pyes Azərbaycan və Türkiyə ləhcələrində qələmə alınıb, ilk dəfə 1961-ci ildə Ankara, ikinci dəfə 1968-ci ildə İstanbulda nəşr olunub.

Füzuli poeziyasının ruhuna uyğun olaraq əsərin mövzusu məhəbbət süjeti əsasında qurulub.

Ədəbiyyatşünasların fikrincə, Füzulini Azərbaycandan Kərbəlaya gedən köçkün, ömrünü qürbətdə keçirən bir şair obrazında dramaturq həm də özünün Vətən həsrətini ifadə etmişdir.

Tanınmış ədəbiyyatşünas Mustafa Haqqı Türkəqul Mirzə Abay Dağlının "Əski ruhlar" kitabına yazdığı ön sözdə bildirir ki, "Onlar türklərdir" əsərindən sonra Abay Dağlı "artıq susdu, görə biləcəyi işlər bu qədər idi" hökmünü verən insanlar çox səhv edirlər. Çünki Mirzə Abay kimi hər janrda məzmunlu əsərlər yazmağa qadir olan və həyatını milli davaya həsr edən bir mücahid susa bilməzdi.

Abay Dağlı bütün qüvvə və bacarığını bu ideya uğrunda mübarizəyə həsr etdi. Türkəqul yazır: "İradəli və ideallarında türkçülüyə sadiq olan Abay Dağlının yeganə arzusu Azərbaycanın istiqlalına qovuşması və türkçülüyün payidarı olmasıdır".

Azərbaycanı bugünkü kimi müstəqil, xalqını və torpaqlarını azad görmək istəyən görkəmli şair, dramaturq və publisist Mirzə Abay Dağlı 1989-cu ilin iyun ayında İstanbulda əbədiyyətə qovuşmuşdur. Şübhəsiz ki, 2020-ci il noyabrın 8-də qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsindən sonra qürbətdə ömrünü başa vurmuş minlərlə Azərbaycan sevdalısı kimi, şuşalı Mirzə Abay Dağlının da ruhu şaddır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Ülvi arzularımızın ünvanı

# Qədim yurdumuz yenidən qurulur

**Şuşa təkcə təbiətin yaratdığı gözəlliyin ünvanı deyil, həm də müqəddəs hisslərimizin, ən ülvi arzularımızın, Azərbaycan əsgərinin qəhrəmanlığının, vətən sevgisinin ünvanıdır. 30 ilə yaxın idi ki, sinəmizdə Şuşa boyda bir dərd böyüdürdük...**

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi Şuşanın işğaldan azad olunması ilə bitdi! Qəhrəman Azərbaycan əsgəri Şuşanı azad edən gün düşmən diz çöküb aman dilədi. Görünən budur ki, Ermənistan hərbi-siyasi rəhbərliyinin də son ümid yeri Şuşa idi... Onu da itirəndən sonra düşmən kapitulyasiya aktını imzalamağa məcbur oldu. Şuşanın işğaldan azad edilməsi hərb tarixinin möcüzəsi hesab ediləcək qədər nadir hadisələrdən sayılır. Azərbaycan Ordusunun Şuşanı azadetmə əməliyyatı dünyanın ən böyük hərb institutları mütəxəssislərinin, ekspertlərin təəccübünə səbəb olub. Bu uğurlu əməliyyatdan sonra bir sıra böyük dövlətlər, ABŞ, Çin öz ordularında Azərbaycan əsgərinin döyüş təcrübəsini öyrənməyə başlayıb. Dünyaca məşhur hərbi ekspertlər Şəhər Müharibələri Layihəsinin həmmüəllifi Con Spenser və Harşana Qurh Azərbaycan XTQ-nin Şuşada apardığı şəhər döyüşlərini hərb tarixinin "möcüzəsi" adlandırıblar...

Şuşa uğrunda döyüşlərdə iştirak etmiş qazi, XTQ-nin sabiq döyüşçüsü bizimlə təsirli söhbət etdi: "Şuşa bizə candan da əziz bir şəhərdir. Şuşaya sıldırım qayalıqlardan keçib yaxınlaşırdıq. Deyəsən, erməni kəşfiyyatı bunu hiss etmişdi. Hava duman olduğundan yerimizi dəqiqləşdirə bilmirdilər. Qayalığa dırmaşan zaman bir döyüş yoldaşımız sürüşərək sıldırım qayadan düşdü. Yüksək qayalıqdan yıxılan döyüş yoldaşımız düşmən yerimizi bilməsin deyə, səsini çıxarmadı. Sakitcə şəhadətə qovuşdu. Biz Şuşaya belə getdik".

Bu möcüzəni yaradan ordunun qurucusu, Ali Baş Komandanı, sərkərdəsi İlham Əliyevdir. "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" deməklə, bir daha qətiyyəti, özünəinamı, qərarlılığı ən gözəl formada ifadə etmiş oldu. Məhz bu inam və qətiyyət Azərbaycan əsgərini keçilməz dağ yolları ilə qələbəyə apardı.

Şuşa düşmən işğalından azad olunduqdan sonra Azərbaycan əsgərinin iz saldığı o yollardan Ali Baş Komandan ailə üzvləri ilə keçərək Şuşaya getdi. Şuşada müqəddəs bayrağımızı ucaldan Müzəffər Ali Baş Komandan elə oradaca qətiyyətlə Şuşanın yenidən qurularaq bərpa olunacağını bildirdi.



Şuşa 28 il erməni işğalında qaldı. Bu illər ərzində işğalçılar bu unikal şəhərin tarixi binalarını, abidələrini dağıdıb məhv etmişdilər. Ermənistan rəhbərliyi Şuşaya tikməyə, yaratmağa, qurmağa yox, kef məclislərinə gəlirdi. Yollar bərbad vəziyyətdə idi... Keçib gəldikləri dağılmış yolları görməzdən gəlirdilər. Ona görə ki, gəldikləri kimi bir gün rədd olub gedəcəklərini bilirdilər.

Azərbaycan Prezidenti Şuşaya ilk səfəri zamanı vaxtilə ermənilərin güllələdiyi söz, sənət adamlarının abidələrini aparmışdı. Elə ilk səfərində Şuşanın yenidən, daha gözəl bərpa olunacağı barədə konkret göstərişlər verdi. Dərhal da əməli addımlar atıldı. Şuşa işğaldan azad olunandan sonra Müzəffər Ali Baş Komandan ordusu ilə işğaldan azad etdiyi şəhərə düz 10 dəfə səfər etdi. Bu davamlı səfərlər qədim yurdun xalqımız üçün əhəmiyyətinin, torpağa sahiblik hissinin, onun müqəddəsliyinə ali dəyərinin ifadəsidir.

Şuşa bu gün Prezidentin birbaşa nəzarəti altında yenidən qurulur, bərpa edilir. Qədim şəhəri daha da gözəlləşdirib ona həyat verməklə yaralarına dövlət başçısı özü məlhəm qoyur. Bu şəhərdə təkcə dağıdılmış binalar, infrastruktur bərpa edilmir, ulu yurdun milli ruhu da özünə qaytarılır.

Şuşa mədəniyyət paytaxtımız elan olundu. Qısa zamanda bura siyasi diskussiyaların, möhtəşəm beynəlxalq tədbirlərin mərkəzinə çevrildi. Şuşada musiqi festivalları, müsabiqələr, poeziya günləri keçirilir.

Şuşa işğaldan azad olunandan sonra ilk dəfə dost, qardaş Türkiyə dövlətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan rəsmi səfər etdi. Səfər zamanı iki ölkənin dövlət başçıları tərəfindən müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalandı. Bu bəyannamə imzalanmaqla ölkələr arasında Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının zirvə nöqtəsi, strateji tərəfdaşlığın yeni mərhələsi başlandı. Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə birliyinin güclənməsinə və ölkələrimizin regional güc mərkəzi kimi beynəlxalq arenada mövqeyinin möhkəmlənməsinə müstəsna töhfədir. Azərbaycan və Türkiyə arasında bu zamana qədər hərbi-texniki və strateji əməkdaşlıq olsa da, Şuşa Bəyannaməsi müttəfiqlik haqqında imzalanan ilk sənəddir. Şuşa Bəyannaməsi hərbi-siyasi təhlükəsizliyin təmin olunması ilə yanaşı, başqa qüvvələrdən gələcək təhdidlərlə mübarizə baxımından hüquqi əsaslar formalaşdırır.

Azərbaycan Ordusu ermənilərin 30 ilə qət edib "möhkəmləndikləri" yerlərə 44 günə gəldi. Azərbaycan dövləti Ermənistanın dağıtdığı qədim şəhərimizi iki ildir bərpa edib gözəlləşdirir.

Bu gün Şuşa əsl tikinti meydançasını xatırladır. Bir yandan sürətlə erməni vandallarının dağıdıb viran qoyduqları tarixi abidələrimiz bərpa edilir, digər tərəfdən də yaşayış kompleksləri, hotellər inşa edilərək şəhərin gözəlliyinə yeni rəng qatılır.

Şuşa Azərbaycan əsgərinin vətən sevgisinin simvoludur. Şuşa Azərbaycan əsgərinin qəhrəmanlıq simvoludur. Şuşa mənəvi ucalıqdır. Şuşa qələbəmizin rəmzidir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Regionlarda Zəfər forumları start götürdü

Oktyabrın 7-dən etibarən regionlarda Zəfər forumlarına start verilib. İlk forum Biləsuvar rayonunda təşkil olunub.









Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Məktəb-Lisey Kompleksinin akt zalında keçirilən Zəfər forumunda Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev, Prezident Administrasiyasının məsul əməkdaşı Əli Pənahov, Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Milli Məclisin deputatı Bəhruz Məhərrəmov, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani, Biləsuvar, Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad və Cəbrayıl rayon icra hakimiyyətlərinin əməkdaşları, rayonun müxtəlif dövlət orqanlarının rəhbərləri, rayonlardan dəvət olunmuş şəhid ailələrinin üzvləri, Vətən müharibəsi qaziləri, iştirakçıları və KİV nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, forum iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun və torpaqlarımızın azadlığı yolunda şəhid olan igid oğullarımızın abidələrini ziyarət edərək önünə tər çiçəklər düzüblər.

Forumda Dövlət himni səsləndirilib, şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Çıxış edən Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov qonaqları salamlayaraq forumun işinə uğurlar arzulayıb. İcra başçısı bildirib ki, xalqımızın işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etmək uğrunda 2020-ci il 27 sentyabr tarixində başlatdığı Vətən müharibəsi 44 gün davam etdi və Azərbaycanın Qələbəsi, Zəfəri ilə başa çatdı. Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa edildi, ədalət yerini tapdı. Bütün dünya tarixi ədaləti bərpa edən Azərbaycan Ordusunun, Müzəffər Ali Baş Komandanın və xalqımızın gücünü gördü. Təbii ki, bu gün gənc nəslin yetişməsində bu Qələbəni yazan qəhrəmanlarımızın həyatı örnək olmalı və bu sahədə vətənpərvərlik tədbirləri vaxtaşırı olaraq təşkil edilməlidir.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev çıxış edərək Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər barədə iştirakçılara ətraflı məlumat verdi. Qeyd etdi ki, Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilib. Azərbaycan xalqı öz liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi.

Vüsal Quliyev bildirdi ki, ölkəmiz 30 ilə yaxın işğal altında qalan tarixi torpaqlarına qovuşdu, tarixi Zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda terror aktları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. Bu Qələbəni bizlərə yaşadan isə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, güclü ordumuz, rəşadətli əsgər və zabitlərimizdir. Noyabrın 10-u xalqımızın tarixinə şanlı, qızıl hərflərlə yazıldı! Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sübuta yetirdik ki, bir qarış torpağımızı belə heç kəsə verən deyilik. 44 günlük qəhrəmanlıq savaşımız tarixboyu şanlı qürur mənbəyimiz olaraq qalacaq. Haqqın şanlı Zəfərinə möhür vurmaq hər xalqa, hər dövlətə və hər Prezidentə, Ali Baş Komandana nəsib olmur.

Daha sonra forumda iştirak edən rayonlardan gələn milli qəhrəman valideynlərinin, şəhid ailələrinin və müharibə iştirakçılarının çıxışları dinlənilib. Çıxışlarda qazanılan Qələbədən danışılıb, bu Zəfərin gələcək nəsillərin vətənpərvərlik ruhunda tərbiyə işində xüsusi yet tutacağı və bu sahədə işin daha da gücləndirilməsinin önəmi vurğulanıb.

Sonda forum iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət edilib, xalqımıza Zəfər sevinci yaşatdığına görə Ali Baş Komandana dərin ehtiram bildirilib.

Tədbirdə şəhid ailələrinin üzvlərinə və qazilərimizə qələbəmizdən bəhs edən kitablar hədiyyə olunub, orkestrin müşayiəti ilə vətənpərvərlik mahnıları səsləndirilib.

# Ulu Öndərin yadigarı olan BDÖZ Azərbaycan iqtisadiyyatına yeni-yeni töhfələr bəxş edir

Neft mövzusunda yazan jurnalistlərin bir qrupu Azərbaycanda iri neft-qaz və ixrac layihələrinin əməliyyatçısı - bp şirkətinin təşkilatçılığı ilə Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavoduna (BDÖZ) səfər etmişdir.



Ulu Öndərin əvəzsiz yadigarlarından olan və adını şərəflə daşıyan bu zavod yarandığı vaxtdan Azərbaycan iqtisadiyyatına böyük töhfələr verib. Xüsusilə "Əsrin müqaviləsi" imzalanandan sonra burada misilsiz işlər həyata keçirilib. Belə ki, "Azəri-Çıraq-Günəşli" (AÇG) və "Şahdəniz" yataqlarından karbohidrogenləri hasil edən platformaların bir çox mühüm hissələri və həmin layihələr üçün lazım olan digər avadanlıqlar məhz bu müəssisədə istehsal olunub.

Zaman Heydər Əliyevin yeni neft strategiyasının nə qədər düzgün və uzaqgörənliklə seçildiyini dönə-dönə təsdiqlədi. 2017-ci ilin sentyabrında AÇG üzrə müqavilənin 2050-ci ilin əvvəlinədək uzadılması bunu bir daha sübut etdi.

Hazırda yeni sazişlə bağlı "Azəri Mərkəzi Şərqi" (ACE) layihəsi həyata keçirilməkdədir və həmin layihə çərçivəsində eyniadlı platforma tikilir.

Platformanın əsas hissələrindən olan dayaq bloku BDÖZ-də inşa edilir. bp-nin "Azəri Mərkəzi Şərqi" layihəsinin rəhbəri Nil Filips, ümumiyyətlə, ACE-də indiyədək görülmüş və görüləcək işlər barədə jurnalistlərə geniş məlumat verdi. O, platformanın üst modullarının Bayıldakı tikinti-quraşdırma sahəsində inşa edildiyini bildirərək bu qurğuların dənizə gələn il yola salınacağını dedi.

Daha sonra N.Filips dayaq blokunun tikintisi üzərində dayandı. Məlum oldu ki, BDÖZ-də dayaqların və payaların istehsalı tamamlanıb və Xəzərə yola salınmaq üçün yüklənməyə hazırdır. Blokun hündürlüyü 153 metrdir və suyun 137 metr dərinliyində quraşdırılacaq. Qurğu yüklənərkən çəkisi üzən çənləri ilə birlikdə təxminən 16 min ton təşkil edəcək. Əsas dayaq blokunun 12 payası var və bunların ümumi çəkisi 9 min tondur. Payaların hər birinin uzunluğu 148 metrə çatır.

Dayaq blokunu dənizə "STB-1" barjı daşıyacaq. Hazırda bu barj modernləşdirilməkdədir və yaxın aylarda yükünü qəbul edəcəyi yerə gətiriləcək.

Qeyd edək ki, ACE layihəsi çərçivəsində işlər çoxşaxəlidir. Belə ki, yeni platformadan çıxarılacaq karbohidrogenləri nəql etmək üçün sualtı xətlər çəkilir. Doğrudur, bu xətlər o qədər də uzun deyil, çünki AÇG-nin digər platformalarından Səngəçal terminalına neft və qaz daşıyan sualtı kəmərlərə birləşdiriləcək.

Ümumiyyətlə, ACE layihəsi üzrə işlər nəzərdə tutulduğu kimi irəliləyir və işin 80 faizi artıq yekunlaşıb.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin yeni neft strategiyası yeni layihələrlə zənginləşərək bəhrə verməkdə davam edir. Bu işdə Ümummilli Liderin keçən əsrin 70-80-ci illərində yaratdığı və indi onun adını şərəflə daşıyan BDÖZ-nin xidmətləri böyükdür.

BDÖZ-də keçirilən tədbirdə jurnalistlər bunun bir daha şahidi oldular. Burada onların sözügedən layihə ilə bağlı sualları da ətraflı cavablandırıldı.

***Flora SADIQLI,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# "Bizim həyət" layihəsi çərçivəsində paytaxtın Nəsimi rayonunda növbəti həyət istifadəyə verilib









Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət oktyabrın 7-də sakinlərin istifadəsinə verilib.



AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Nəsimi rayonu, 5-ci mikrorayon, Asif Məhərrəmov küçəsi 64 və 20 Yanvar küçəsi 4/66 ünvanlarında 1500 sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğul olma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda ərazidə iki söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və küçə heyvanları üçün evciklər quraşdırılıb.

Həyətdə yeni işıq dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları, kanalizasiya xətləri tam təmir olunub, asfalt və dam örtüyü yenilənib.

Mövcud yaşıllıqların bərpası ilə yanaşı, müxtəlif növ 100 ədəd ağac əkilib, 1200 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında adi daş sarmaşığı və digər sarmaşan bitkilər əkməklə yaşıl sədlər yaradılıb. Yaşıl sədlər adi daş sarmaşığı kimi sarmaşan, sıx bitən və havadakı zərərli toz hissəciklərini səmərəli şəkildə tutub-saxlaya bilən bitki növlərindən ibarətdir ki, onların digər bitkilərlə yanaşı əkilməsi havanın çirklənməsinin əhəmiyyətli dərəcədə azaldılmasına töhfə verir.

# Şəhidin anım günü tədbiri keçirilib

Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) İlahiyyat fakültəsinin məzunu, 44 günlük Vətən müharibəsində qəhrəmanlıq göstərərək, şəhid olmuş Vüqar Məmmədovun anım günü tədbiri keçirilib. Tədbirdə Aİİ-nin rəhbər heyəti və əməkdaşları, tələbələr, o cümlədən şəhidin döyüş yoldaşları, qazilər iştirak ediblər. Öncə dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu birdəqiqəlik ehtiram sükutu ilə yad edilib. Daha sonra Aİİ-nin III kurs tələbəsi Kənan Əliyev tərəfindən şəhidlərimizin ruhuna Quran tilavəti təqdim edilib.





Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov anım günü tədbirində çıxış edərək Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad olunan torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizi, bütün şəhidlərimizi dərin ehtiramla yad edib. Rektor 44 günlük Vətən müharibəsində güclü xalq, güclü dövlət və məğrur Ali Baş Komandanın birgə mübarizəsinin qələbəni şərtləndirən əsas amil olduğunu qeyd edib.

Ali təhsil müəssisəsinin rəhbəri şəhid Vüqar haqqında xatirələrini bölüşərkən tələbələrə bildirib ki, Vüqar vətənpərvərliyin, cəsarətin və əxlaqın nümunəsidir. Gənclərimiz belə oğullarımızın göstərdikləri şücaəti, qəhrəmanlığı özlərinə örnək olaraq götürməlidirlər. Azərbaycan İlahiyyat İnstitutunun tələbəsi şəhid Vüqar Məmmədovun anası Əsmər Məmmədova oğlunun ordu sıralarına könüllü qoşulduğunu qeyd edib. Şəhid anası onun keçdiyi döyüş yolundan bəhs edib. Sonda şəhid Vüqar Məmmədovun ruhuna ehsan verilib.

***"Azərbaycan"***

# Görkəmli tarixçi-alim Ələvsət Quliyevin anadan olmasının 100 illiyi münasibətilə elmi konfrans keçirilib

Oktyabrın 7-də AMEA-da akademiyanın müxbir üzvü, tarix elmləri doktoru, professor Ələvsət Quliyevin anadan olmasının 100 illiyi münasibətilə elmi konfrans keçirilib. Tədbir iştirakçıları əvvəlcə görkəmli alimin həyat və fəaliyyəti haqqında sərgi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, elmi konfrans Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.








Konfransa moderatorluq edən AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun baş direktoru akademik Gövhər Baxşəliyeva tarixçi-alim Ələvsət Quliyevin həyatı və elmi fəaliyyətindən danışıb. Bildirib ki, akademik milli tarixşünaslıq məktəbinin formalaşaraq inkişaf etdirilməsi professor Ələvsət Quliyevin adı və fəaliyyəti ilə bağlıdır. O, 3 cildlik "Azərbaycan tarixi" kitabının müəllifi olub. Bu kitablara Azərbaycan tarixinin bütün dövrlərinə aid məsələlər və faktlar daxil edilib. Üçüncü cild iki hissədən ibarətdir. Həmin kitablarda qoyulan məsələlər indi də aktualdır.

Akademik Gövhər Baxşəliyeva görkəmli tarixçi alimin elmi işlərlə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olduğunu diqqətə çatdırıb. Bildirib ki, Ələvsət Quliyevin əsas fəaliyyəti AMEA ilə bağlı olub. O, iki dəfə Tarix İnstitutuna rəhbərlik edib. İnstitutun respublikada tarix elminin əsas mərkəzinə çevrilməsi, keçmiş Sovet İttifaqının ən güclü elmi müəssisələrindən biri kimi tanınması məhz Ələvsət Quliyevin adı ilə bağlı olub. Azərbaycan tarixinin aktual problemlərinə işıq salan Ələvsət Quliyev 80-dək elmi əsərin müəllifidir.

G.Baxşəliyeva görkəmli alimin əsərlərinin külliyat halında çap olunması təklifini irəli sürüb.

Konfransda A.A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru tarix elmləri doktoru, professor Kərim Şükürovun "Ələvsət Quliyev: dövrü və elmi fəaliyyətinin prioritetləri" məruzəsi dinlənilib. Məruzədə Azərbaycan milli tarix elminin fundamental əsaslarının yaradılmasının, akademik milli tarixşünaslıq məktəbinin formalaşaraq inkişaf etməsinin Ələvsət Quliyevin adı və fəaliyyəti ilə bilavasitə bağlı olduğu diqqətə çatdırılıb. Alimin öz elmi və təşkilati fəaliyyəti ilə institutda silinməz iz qoyduğu vurğulanıb.

Bildirilib ki, Azərbaycan ziyalılığının ən gözəl xüsusiyyətlərini özündə cəmləşdirmiş son dərəcə təvazökar, prinsipial, elm sahəsində həm özünə, həm də tələbələrinə çox tələbkar olan Ə.Quliyevin formalaşmasında böyüyüb boya-başa çatdığı mühitin də böyük təsiri olub. O, stalinizm, poststalinizm və durğunluq dövrlərində yaşayıb fəaliyyət göstərməsinə baxmayaraq, elmi yaradıcılığında cəsarətli mövqe nümayiş etdirib.

Tədbirdə tarix elmləri doktoru, professor Dilarə Seyidzadənin "Ələvsət Quliyev elmi rəhbər kimi" mövzusunda məruzəsi dinlənilib. "Mən 1961-ci ildə ADU-nu (indiki BDU) bitirib, Tarix İnstitutuna işə qəbul olundum. Ələvsət müəllim çox böyük təşkilatçı idi. O, biz gənclərə mənbələrlə işləməyi öyrətdi. Mövzu seçimi çox böyük məna daşıyır. Bu baxımdan professor Ələvsət Quliyevin seçdiyi mövzular Azərbaycanın nüfuzunu dünyada qaldırırdı.

Ələvsət müəllimin mənə təklif etdiyi mövzu azərbaycanlı deputatların - 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurucularının 1906, 1907, 1907-1912 və 1912-1917-ci illərdə çar Rusiyası Dövlət Dumasındakı fəaliyyətlərinin tarixinə aid idi. Təbii ki, o zaman mövzu Azərbaycan burjua nümayəndələrinin fəaliyyəti kimi təsdiq olunmuşdu. Belə bir mövzunun verilməsi heç də təsadüfi deyildi. Dissertasiya işimin elmi rəhbəri olan Ələvsət Quliyev bu dahi şəxsiyyətlərin fəaliyyətlərindən xəbərdar idi və bilirdi ki, gün gələcək Azərbaycan xalqı onların əsl kimliyini biləcək. Bu, Ələvsət Quliyevin uzaqgörənliyi idi və mən buna görə ona həmişə minnətdaram".

Qeyd edək ki, bu mövzunu işləməklə Dilarə Seyidzadə ilk dəfə Azərbaycan milli tarixşünaslığına yenilik gətirmiş oldu və onun 1994-cü ildə rus dilində nəşr olunmuş "Azərbaycanlı deputatlar Rusiya Dövlət Dumasında" və 2004-cü ildə Azərbaycan, türk, rus və ingilis dillərində çap olunan "Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yol" monoqrafiyaları bu fikrin sübutudur.

Tarix elminin, tarixi bilməyin çox vacib olduğunu deyən professor Dilarə Seyidzadə bu sahənin inkişafına Ulu Öndər Heydər Əliyevin xüsusi diqqətlə yanaşdığını, Prezident İlham Əliyevin bu gün çıxışlarında tarixə istinad etdiyini diqqətə çatdırıb.

Elmi konfransda Tarix İnstitutunun icraçı direktoru tarix üzrə fəlsəfə doktoru, dosent Cəbi Bəhramovun "Azərbaycan milli tarix elminin təşkilatçısı" mövzusunda məruzəsi dinlənilib. Alimin elmi fəaliyyətinə diqqət çəkən C.Bəhramov qeyd edib ki, 1948-ci ildə Ələvsət Quliyev tarix üzrə namizədlik dissertasiyası müdafiə edib və universitetin Tarix fakültəsinin dekanı təyin edilib. Gənc alimin işgüzarlığı və tələbkarlığı respublika rəhbərliyinin diqqətindən yayınmayıb. Mircəfər Bağırov 1948-ci ilin payızında onu Mərkəzi Komitəyə dəvət edib. Görüşdə onun istedadlı, işgüzar və tələbkar olmasını bildiyini söyləyib. Həmçinin ona "nə üçün ermənilər və gürcülər yalan-doğru tarixlərini yazıblar, amma bizim bu qədər qədim və zəngin tariximiz olmasına baxmayaraq onu biz hələ yazmamışıq, səbəbi nədir?", - deyə sual verib. Eyni zamanda, "Azərbaycan tarixi yazılmalıdır. Əsərin redaksiya heyətini və strukturunu özün tərtib et, kimləri istəyirsən dəvət et və qollarınızı çırmayıb işə başlayın. Bu işin məsuliyyətini sənin üzərinə qoyuram, get işə başla", - deyə onu yola salıb.

Ələvsət Quliyev 1948-ci ilin sonuna yaxın elmi bilik və güclərinə inandığı mütəxəssisləri dəvət edərək əsərin redaksiya heyətini yaradıb. Onun rəhbərliyi ilə ikicildlik "Azərbaycan tarixi"nin rus dilində maketi hazırlanıb. Bu əsər sovet totalitar rejiminin tüğyan etdiyi bir dövrdə öz strukturuna və buraya daxil edilən məsələlərin vacibliyinə görə seçilir. Belə ki, bu əsər Azərbaycan tarixinin ən qədim zamanlardan başlayaraq 1952-ci ilin sonuna qədər olan dövrü əhatə edir. 16 fəsildən ibarət I cild ən qədim zamanlardan başlayaraq 1917-ci ilə qədər olan dövrü, 31 fəsildən ibarət II cild isə 1952-ci ilin sonuna qədər olan dövrü əhatə edir. Bu əsərin hər iki cildinə Azərbaycan tarixinin bütün dövrlərinə aid elə məsələlər və faktlar daxil edilib ki, sonradan Azərbaycan tarixinə dair nəşr edilən əsərlərdə bu faktlara rast gəlinmir. Əsərin bir başqa fərqi odur ki, burada bütün Azərbaycan tarixi - həm Şimali, həm də Cənubi Azərbaycan tarixi məsələləri öz əksini tapıb. 1954-cü ildə maket şəklində çap olunan bu əsər DTK tərəfindən qadağan edilib.

Vurğulanıb ki, on beş il ərzində Ələvsət Quliyevin rəhbərliyi altında çox böyük səylər və əmək sərf edilən bu möhtəşəm əsər onun həyata keçirdiyi tədbirlər nəticəsində 1958-1963-cü illərdə Azərbaycan və rus dillərində dörd kitabdan ibarət üçcildlik "Azərbaycan tarixi" nəşr olundu. Ən qədim zamanlardan XX əsrin 60-cı illərinin əvvəlinədək olan dövrü əhatə edən üçcildlik "Azərbaycan tarixi" sovet rejiminin mülayimləşdiyi bir dövrdə çap olunmasına və mövcud ideologiyanın müəyyən etdiyi prinsiplər əsasında yazılmasına baxmayaraq, milli tariximizin tədqiq olunması işində ən uğurlu elmi nəticə kimi qiymətləndirilməlidir.

Cəbi Bəhramov, həmçinin Ələvsət Quliyevin dostu olmuş, instituta 1978-2004-cü illərdə rəhbərlik etmiş İqrar Əliyevin bu sözlərini də xatırladıb: "Ələvsətin biliyi, məharəti, hər şeyi anlayan həssas qəlbi qısa müddətdə onu, sözün tam mənasında, bizim liderimizə çevirmişdi".

Elmi konfransda Tarix İnstitutunun şöbə müdirləri - tarix üzrə fəlsəfə doktoru, dosent Hacı Həsənovun "Ələvsət Quliyev və Azərbaycanın yeni tarixinin problemləri", tarix elmləri doktoru, professor İradə Bağırovanın "XIX əsrin sonu - XX əsrin əvvəllərində Şimali Azərbaycanda fəhlə hərəkatının öyrənilməsində Ələvsət Quliyevin rolu", habelə tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Qafarovanın "XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycan sənayesinin tarixi Ələvsət Quliyevin tədqiqatlarında" mövzularında məruzələri dinlənilib.

Vurğulanıb ki, Ələvsət Quliyevin rəhbərliyi ilə Azərbaycan tarixçilərinin, arxeoloqlarının və etnoqraflarının bütöv bir nəsli yetişib. O, Azərbaycan tarixinin elmi konsepsiyasını işləyib.

Diqqətə çatdırılıb ki, professor Ələvsət Quliyev ensiklopedik biliyə malik insan idi. XX əsrin 60-cı illərində Andronik haqqında arayışı da ilk dəfə o hazırlayaraq rəhbərliyə təqdim edib.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı akademik Ziyad Səmədzadə professor Ələvsət Quliyevi Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi nadir şəxsiyyətlərdən biri, müasir Azərbaycan tarix elminin ən parlaq yaradıcılarından biri kimi səciyyəndirib.

Ailə üzvləri adından çıxış edən Təlatüm Quliyev atasının xatirəsinə göstərilən ehtirama görə konfransın təşkilatçılarına minnətdarlığını bildirib.

# Kölgə iqtisadiyyatına qarşı mübarizə necə aparılır?

## Son illərdə həyata keçirilən islahatlar həm də gizli iqtisadiyyatın qarşısının alınmasında müsbət nəticələr doğurub

Dayanıqlı iqtisadi inkişafa nail olmaq üçün şəffaflığın təmin edilməsi əsas şərtdir. Bu istiqamətdə vacib amillərdən biri də kölgə iqtisadiyyatının qarşısının alınmasıdır. Kölgə iqtisadiyyatı rəsmi statistika tərəfindən uçota alınmayan, qeyri-formal, ictimai qaydalardan kənar qurulmuş iqtisadi münasibətlərdir. Təsadüfi deyil ki, "gizli iqtisadiyyat"ın ümumdaxili məhsulda payının yüksək olması dünyada iqtisadi təhlükəsizliyin mənfi təzahürlərindən biri kimi qiymətləndirilir. Nəzərə almaq lazımdır ki, bu, ölkələrin beynəlxalq iqtisadi münasibətlərinə də mənfi təsir göstərir.



Azərbaycanda kölgə iqtisadiyyatına qarşı mübarizə dövlət siyasətinin prioritetlərindəndir. Prezident İlham Əliyev kölgə iqtisadiyyatının yaratdığı fəsadların aradan qaldırılması, vergidən yayınma hallarının qarşısının alınması və bazarda sağlam rəqabətin təmin edilməsi istiqamətində kompleks tədbirlərin görülməsi ilə bağlı müvafiq göstərişlər verib. Dövlət başçısı bu ilin altı ayının yekunlarına həsr edilmiş müşavirədə iqtisadi inkişafa mane olan kölgə iqtisadiyyatına qarşı mübarizədə müsbət nəticələrə nail olmağın zəruriliyini qeyd edərək deyib: "Kölgə iqtisadiyyatı, əlbəttə, hər ölkədə var, əsas məsələ onun həcmidir, dövlətin, hökumətin buna münasibətidir. Dövlətin və hökumətin buna münasibəti belədir ki, bu, Azərbaycanda olmamalıdır".

Dövlət başçısı hesab edir ki, texnologiyalar inkişaf etdikcə yeni nəzarət imkanları yaranır. İnstitusional tədbirlər - dövlət nəzarəti, ictimai nəzarət və kadrların düzgün seçilməsi kölgə iqtisadiyyatının qarşısını alır.

### İqtisadi leqallaşma büdcə gəlirlərini artırır

İqtisadçıların fikrincə, həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə kölgə iqtisadiyyatının həcmi xeyli azalıb.

Milli Məclisin deputatı, parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov qeyd edib ki, kölgə iqtisadiyyatının minimallaşdırılması büdcəyə daxil olan vəsaitlərin həcminin artmasına səbəb olub. Son illərdə büdcəyə daxil olan vəsaitlərin proqnozlaşdırılandan 2 milyard manat çox olması kölgə iqtisadiyyatının həcminin azaldılması ilə birbaşa əlaqədardır. Əgər bu istiqamətdə görülən tədbirlər intensivləşdirilərsə, büdcəyə qeyi-neft sektorundan daxilolmalarda milyardlarla manat artım müşahidə ediləcək.

Deputat bildirib ki, kölgə iqtisadiyyatının qarşısının alınması "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın əsas istiqamətlərdən biri kimi müəyyən edilib: "Bu sahədə 2018-ci ildən sonra aparılan islahatlar ölçüləbilən və daha real nəticələrin əldə edilməsinə şərait yaradıb. Xüsusilə son dövrlərdə 200 mindən çox yeni əmək müqaviləsinin bağlanması kölgə iqtisadiyyatının ümumdaxili məhsuldakı payının azalmasına imkan verib. Bu, ölkədə həyata keçirilən iqtisadi siyasətin ümumi hədəflərinə uyğundur. Unutmaq olmaz ki, kölgə iqtisadiyyatının həcminin azaldılması Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş əsas tapşırıq və göstərişlərdən biridir. Ona görə də dövlət başçısı sonuncu müşavirədə də "gizli iqtisadiyyat"ın qarşısının alınması ilə bağlı işlərin davam etdirilməsinin zəruriliyini bildirib, bununla bağlı tapşırıqlar verib. Ölkədə bunun üçün siyasi iradə var və möhkəmdir".

Vüqar Bayramovun sözlərinə görə, bu sahədə müsbət nəticələrin əldə olunması xüsusən kiçik və orta sahibkarlığın inkişafı üçün yeni imkanlar yaradır. Kölgə iqtisadiyyatının həcminin azaldılması sahibkarlığın inkişafı, vətəndaşların məşğulluğunun təmin edilməsi, eyni zamanda sağlam rəqabətin gücləndirilməsi hesabına istehlak bazarında qiymətlərin optimallaşdırılması baxımından çox vacibdir. Ona görə də kölgə iqtisadiyyatına qarşı aparılan mübarizə təkcə sahibkarlara deyil, bütün vətəndaşlara faydalıdır.

### Elə ölkə yoxdur ki, orada kölgə iqtisadiyyatına rast gəlinməsin

Son illər dünyada baş verən bir sıra hadisələr Azərbaycanın iqtisadiyyatına da təsirsiz ötüşməyib. Koronavirus pandemiyası, iqlim dəyişikliyi, təchizat zəncirindəki yaranmış problemlər, enerji, maliyyə, qida və digər bazarlardakı dalğalanmalar ölkə iqtisadiyyatında ciddi çağırışlar yaradıb.

Milli Məclisin deputatı, parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rüfət Quliyev qeyd edib ki, Azərbaycan hökuməti həmin təsirlərin neytrallaşdırılması, iqtisadiyyatın artım sürətinin saxlanması üçün zəruri olan bütün addımları atıb: "Kölgə iqtisadiyyatının minimallaşdırılması üçün iqtisadi idarəetmədə çevik qərarlar qəbul edilib. Ümumiyyətlə, kölgə iqtisadiyyatı hətta inkişaf etmiş Avropa ölkələrində də müşahidə edilir. Məlumatlara əsasən, bunun həcmi İtaliyada 40 faiz, Fransada, İspaniya, Portuqaliya və digər inkişaf etmiş ölkələrdə 30 faizdən çoxdur. Yəni təkcə Azərbaycanda deyil, demək olar ki, bütün dünya ölkələrində kölgə iqtisadiyyatı ilə daimi mübarizə aparılır.

Deputatın dediyinə görə, şəffaflığa keçidin təmin olunması üçün atılan zəruri addımlar sübut edir ki, dövlətin kölgə iqtisadiyyatının minimallaşdırılması ilə bağlı qəti siyasi qərarı var. Kölgə iqtisadiyyatının miqyasının azaldılması büdcə gəlirlərinin əsas artım mənbəyi hesab edilir. Ona görə də dayanıqlı inkişafın təminatı üçün real iqtisadiyyata maksimum yaxınlaşmaq lazımdır. Amma elə ölkə yoxdur ki, orada, ümumiyyətlə, kölgə iqtisadiyyatına rast gəlinməsin.

İqtisadçı Əkrəm Həsənovun sözlərinə görə, kölgə iqtisadiyyatı həm ümumilikdə ölkənin iqtisadi inkişafı, həm də vətəndaşlar üçün problem yaradır. Bəzi şirkətlər vergidən yayınmaq üçün işçilərinə əməkhaqlarının ya hamısını, ya da böyük hissəsini qeyri-rəsmi şəkildə verir: "Belə müəssisələr maliyyə göstəricilərini dövlətdən qismən gizlədərək vergidən yayınırlar. Rəsmi şəkildə az məbləğdə maaş alan işçilərin Dövlət Sosial Müdafiə Fonduna ödədiyi məbləğ az olduğu üçün, onların pensiya kapitalı lazımi qədər yığılmır. Həmin vətəndaşların gəliri rəsmi formada az göründüyü üçün onlar bankdan kredit və ya ipoteka krediti götürmək istəyəndə də problemlə üzləşirlər. Belə ki, vətəndaşın əslində normal aylıq gəliri rəsmi görünmədiyindən o, bankla razılığa gələ bilmir".

İqtisadçının sözlərinə görə, maaşı qeyri-rəsmi formada qeyd edilən işçilər daha sonra başqa müəssisədə işə düzələndə də onların peşəkarlığı qeyr-müəyyən qalır. Çünki maaş göstəricisi işçinin peşəkarlığına dəlalət edir. Yəni, işçi yüksək maaş alırsa, deməli onun müəssisəyə faydası da çoxdur.

Ə.Həsənov kölgə iqtisadiyyatının digər vətəndaşlar üçün yaratdığı problemlərdən də danışıb. "Hər şeydən əvvəl vətəndaşlar "gizli iqtisadiyyat"dan əsasən istehlakçı kimi ziyan görürlər. Gəlirləri qeyri-rəsmi olan şirkətlərin satdığı mal-məhsulda, göstərdiyi xidmətlərdə problem olarsa, istehlakçı bir çox hallarda hüquqlarını müdafiə etməkdə çətinlik çəkir. Çünki müəssisənin fəaliyyəti qeyri-rəsmidir. Ən böyük problem isə həmin şirkətlərin vergidən yayınaraq dövlət büdcəsinə ödənişləri azaltmalarındadır. Bu da bütün vətəndaşların müəyyən mənada ziyan görməsinin əsas səbəblərindən biridir. Kölgə iqtisadiyyatının həcmini hesablamaq çox çətindir, lakin son illərdə həyata keçirilən tədbirlər sayəsində müsbət nəticələr əldə edilib", - deyə o qeyd edib.

### Kölgə iqtisadiyyatında cəmlənmiş dövriyyələrin "ağarması" prosesi sürətlənib

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən verilən məlumata görə, kölgə iqtisadiyyatının miqyası azaldıqca büdcə gəlirləri artır. Əldə olunan fiskal nəticələrdə şəffaf iqtisadi münasibətlərin qurulması, kölgə iqtisadiyyatının miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində atılan addımların böyük rolu olub. Belə ki, rəqabətin təmin edilməsi, qanunsuz sahibkarlığın qarşısının alınması, leqal fəaliyyətin vergi stimullaşdırılması mexanizmlərinin tətbiqi şəraitində biznes şəffaflaşma çağırışlarına müsbət reaksiya verir, leqal fəaliyyət göstərməyə, sağlam rəqabət şəraitində işləməyə çalışır.

"Təhlillər göstərir ki, kölgə iqtisadiyyatında cəmlənmiş dövriyyələrin "ağarması" prosesi sürətlənib. Bu, bəyan edilən dövriyyələrin, daxili istehsal və ticarət göstəricilərində, ticarət əməliyyatlarındakı sənədləşmə səviyyəsində, elektron qaimələrin dövriyyədəki payında, bağlanmış əmək müqavilələrinin sayında özünü büruzə verir. 2021-ci ildə əvvəlki illə müqayisədə qeyri-neft sektoru üzrə dövriyyənin 27,4 faiz, ƏDV üzrə dövriyyənin 27,8 faiz, elektron qaimə faktura üzrə dövriyyənin həcminin isə 24 faiz artması həmin sektordakı şəffaflaşmadan xəbər verir", - deyə məlumatda bildirilir.

### Əmək münasibətləri şəffaflaşdırılır

Kölgə iqtisadiyyatının miqyasının azaldılmasına yönəldilmiş islahatlar sırasında əmək münasibətlərinin şəffaflaşdırılması xüsusi yer tutur. 2019-cu ildə gəlir vergisi üzrə qeyri-neft özəl sektor üçün tətbiq edilmiş vergi güzəştləri ötən müddətdə ciddi irəliləyiş əldə edilməsinə imkan verib.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirilib ki, güzəştin tətbiqi və şəffaflaşma üçün yaradılan fiskal stimullar nəticəsində əmək müqavilələrinin sayı, eləcə də əməkhaqqı fondunun həcmi xeyli çoxalıb. 2019-cu ilin əvvəli ilə müqayisədə əmək müqavilələrinin sayı 283 minə yaxın artıb. İslahatların aparıldığı qeyri-neft özəl sektorda bu göstərici 233 mindən çoxdur ki, bu, ötən müddət ərzində 43,2 faiz artım deməkdir. 2021-ci ildə qeyri-neft özəl sektoru üzrə əmək müqavilələrinin sayı cəmi əmək müqavilələrinin 45,9 faizini təşkil edir. Bu, 2019-cu ilin əvvəli ilə müqayisədə 7,4 faiz çoxdur. Qeyri-neft özəl sektorda əməkhaqqı fondu ötən ilə nisbətən 11,5 faizdən çox artıb. Gəlir vergisi üzrə güzəştin tətbiqinin fiskal səmərəsi qeyri-büdcə təşkilatlarında məcburi dövlət sosial sığorta haqları və işsizlikdən sığorta haqları üzrə daxilolmaların hər il davamlı şəkildə artmasında özünü göstərir. Məsələn, 2021-ci ildə bu göstəricilər üzrə artım 15,3 və 17,7 faiz təşkil edib.

Görünən odur ki, son illərdə aparılan islahatların başlıca istiqamətlərindən birini kölgə iqtisadiyyatının qarşısının alınması, dövlət-biznes münasibətlərində şəffaflığın təmini təşkil edib. Bütün bunlar nəticə etibarilə dövlət büdcəsinin gəlirlərinin artmasına səbəb olub. Bu gəlirlərin artması isə dayanıqlı iqtisadiyyat, sosial rifah və firavan cəmiyyət deməkdir.

*Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"*

# "Qarabağ" yunanlara da futbol dərsi keçdi



## Bu dəfə "Olimpiakos" darmadağına məruz qaldı

**UEFA Avropa Liqasında layiqli mübarizə aparan Ağdamın "Qarabağ" komandası qrup mərhələsinin üçüncü turunda səfərdə Yunanıstanın "Olimpiakos" klubu ilə qarşılaşıb.**

Təəssüf ki, təhlükəsizlik və təxtibatlar baxımından bu görüş də komandalarımızın bu ölkəyə əvvəlki səfərlərində olduğu kimi, insidentsiz ötüşməyib. Hələ oyun başlamazdan 1 saat öncə stadiona gələn "Qarabağ" azarkeşləri ermənipərəst ünsürlərin hücumuna məruz qalıb. Yalnız polislərin müdaxiləsindən sonra azarkeşlərin təhlükəsizliyi təmin olunub. İnsidentin qarşısını almaq üçün hətta gözyaşardıcı qazdan istifadə edilib.

Bundan sonra azərbaycanlı azarkeşlər daha təhlükəsiz sektorda yerləşdiriliblər.

Bundan əlavə, start fitindən əvvəl, İndoneziyada futbol matçında həlak olan 174 nəfərin xatirəsinə "sükut dəqiqəsi" zamanı susmayaraq hörmətsizlik və tərbiyəsizlik nümayiş etdirən bəzi "Olimpiakos" azarkeşləri təxribat xarakterli şüarlar səsləndirib, Ermənistanın bayrağını və separatçıların atributlarını asıblar.

Ağdamlıları qıcıqlandırıb təzyiq və təsir etmək məqsədi güdən bu çirkin əməllərin cavabını isə "Qarabağ" öz təmkinli davranışı, əzmkar və düşünülmüş texnikalı oyunu sayəsində qazandığı gözəl qələbə ilə verib.

Görüşün artıq ilk dəqiqələrində maraqlı kombinasiya nəticəsində Abdulla Zubir hesabı açıb. Ancaq "VAR" oyundankənar vəziyyət qərarı verib və qol hesaba alınmayıb. Birinci hissə qarşılıqlı hücumlarla keçib, lakin heç bir tərəf fərqlənə bilməyib.

Qarşılaşmanın taleyi ikinci 45 dəqiqədə həll olunub. Bu hissədə "Qarabağ" rəqibinə, demək olar, heç bir şans verməyib. Həm cinahlardan, həm də mərkəzdən kəsərli hücumlar etmək mümkün olub. Bunun məntiqi nəticəsi kimi, hissənin ortalarında Ovusu Kvabena meydan sahiblərinin qapısına yol tapıb - 1:0.

82-ci dəqiqədə isə Marko Veşoviç fərdi ustalığı hesabına fərqi artırıb - 2:0. Ramil Şeydayevin qolu isə rəqibin darmadağınını rəsmiləşdirib - 3:0. O, sağ cinahdan cərimə meydançasına solo keçidindən sonra iti bucaqdan topu tirin altına göndərib.

Beləliklə, "Qarabağ" ardıcıl ikinci böyükhesablı möhtəşəm qələbəsini qazanıb.

Xatırladaq ki, bundan əvvəlki turda Fransanın "Nant" klubu Bakıda darmadağına məruz qalmışdı - 0:3.

Qrupun digər oyununda "Frayburq" Almaniyada Fransanın "Nant" klubunu qəbul edib və 2:0 hesabı ilə qalib gəlib.

3 turdan sonra hesabında 9 xal olan "Frayburq" qrupda birinci pillədə qərarlaşıb. "Qarabağ" 6 xalla ikinci, "Nant" 3 xalla üçüncü yerdədir. "Olimpiakos"un isə hesabında xal yoxdur.

Gələn həftə ölkə çempionu dördüncü tur çərçivəsində Bakıda yunanları qəbul edəcək.

Artıq uzun illərdir Ağdamın "Qarabağ" komandası Avropa miqyaslı yarışlarda xalqımıza və milyonlarla pərəstişkarlarına inamlı oyun, parlaq qələbələr, xoş əhvali-ruhiyyə və qürur hissi bəxş edir.

"Qarabağ" praktiki olaraq təkbaşına Avropada və daha geniş miqyasda ölkənin idman şərəfini layiqincə qoruyur, Azərbaycanın UEFA klub reytinqini zənginləşdirir. Bu illər ərzində ağdamlılar 7 dəfə Avropa Liqası, 1 dəfə UEFA Konfrans Liqası və 1 dəfə UEFA Cempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanıb, ötən il isə qrupdan çıxaraq Konfrans Liqasının pley-off mərhələsində mübarizə aparıblar.

"Qarabağ" bu mövsümdə də üzərinə düşən yükü uğurla və ləyaqətlə daşıyıb. Cempionlar Liqasının ilk üç mərhələsində fantastik əzmkarlıq, yüksək fiziki hazırlıq və filiqran texnika nümayiş etdirən futbolçularımız müvafiq olaraq Polşa, İsveçrə və Macarıstan çempionları - "Lex" (Poznan), "Sürix" (Sürix) və "Ferentsvaroş" (Budapeşt) komandaları üzərində parlaq qələbələr qazanaraq Avropanın bu tanınmış klublarını mübarizədən kənarlaşdırıblar.

UEFA Avropa Liqasının qrup mərhələsində yerini təmin edən ağdamlılar indi qarşılarına pley-offa vəsiqə qazanmaq vəzifəsini qoyublar və bu yolda uğurla addımlayırlar.

Zəfər yolun açıq olsun, "Qarabağ"!

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***



# OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

"Dənizçi" MTK-nın 1-ci mərtəbəsi uşaq bağçası olmaqla yüksəkmərtəbəli yaşayış binalarının havalandırma və tüstüsovurma sisteminin quraşdırılması (mal-material və işçilik daxil) xidmətlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 oktyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


## Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

*"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciət əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 5 oktyabr 2022-ci il tarixli qərarı ilə Qədimova Turan Eldar qızına sığorta agenti fəaliyyətinə verilmiş 7 noyabr 2012-ci il tarixli, 000802 nömrəli lisenziya ləğv edilmişdir.*

*Bundan əlavə, İdarə Heyətinin eyni tarixli qərarı ilə lisenziya sahiblərinin lisenziyalarının qüvvəsinin dayandırılmasına əsas vermiş halları müəyyən edilmiş müddətdə aradan qaldırmadığını nəzərə alaraq, qanunun 107.1.2-ci maddəsinə müvafiq olaraq siyahıda göstərilən (siyahı əlavə olunur) 28 nəfər fiziki şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.*

### "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.2-ci maddəsinə əsasən lisenziyaları ləğv edilən, fiziki şəxs olan sığorta agentlərinin siyahısı

| № | Lisenziya sahibinin adı | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1. | Allahverdiyev Oktay Sabir oğlu | 11.04.2013 | 000919 | 7100127312 |
| 2. | Babayev Zamin Vaqif oğlu | 04.07.2013 | 000943 | 2902787022 |
| 3. | Balabəyov Mahir Orfulla oğlu | 10.05.2012 | 000651 | 7700893642 |
| 4. | Cəfərov Rauf Rayis oğlu | 23.01.2013 | 000847 | 2902657422 |
| 5. | Ələmov İsaq Həzi oğlu | 12.01.2015 | 080638 | 2903097422 |
| 6. | Ələmov Nizami İsax oğlu | 23.04.2014 | 080568 | 2900637232 |
| 7. | Eminov Rüfət Məhəbbət oğlu | 13.02.2013 | 000865 | 1901661012 |
| 8. | Fərzəliyeva Səbahət Mübariz qızı | 12.12.2012 | 000816 | 2002460172 |
| 9. | Hacıqurbanlı Fariz Firudin oğlu | 05.10.2018 | SA-0076 | 2005052062 |
| 10. | Heydərov Faiq Oqtay oğlu | 09.09.2011 | 000475 | 2001973082 |
| 11. | Heydərov Qismət Əmirbaba oğlu | 22.02.2013 | 000875 | 2902701042 |
| 12. | Quliyev İsmayıl Şirin oğlu | 07.08.2015 | 080699 | 1502917042 |
| 13. | Qurbanov Qalib Cəfər oğlu | 12.03.2013 | 000892 | 2200627332 |
| 14. | Mehdiyev Şakir İsgəndər oğlu | 11.04.2013 | 000923 | 7400339592 |
| 15. | Məmmədov Əliş Kərəm oğlu | 05.10.2018 | SA-0051 | 2904667782 |
| 16. | Məmmədov Faiq İbrahim oğlu | 17.12.2020 | SA-0184 | 2005927342 |
| 17. | Məmmədov Xəzri Rəfael oğlu | 23.04.2019 | SA-0148 | 3100965122 |
| 18. | Mustafayev Dəyanət Musa oğlu | 14.10.2011 | 000496 | 3000614222 |
| 19. | Mustafayev Rizvan İskəndər oğlu | 27.01.2015 | 080649 | 7301101822 |
| 20. | Müzəffərova Sevinc Nazim qızı | 23.09.2019 | SA-0167 | 8700083132 |
| 21. | Nəcəfov Yasin Vahid oğlu | 07.08.2015 | 080681 | 1602342542 |
| 22. | Osmanov Dəyanət Elman oğlu | 24.10.2013 | 000983 | 701070432 |
| 23. | Paşayev Həsənağa Rafiq oğlu | 30.01.2012 | 000552 | 1200750672 |
| 24. | Rəhimov Yaqub Akif oğlu | 19.03.2014 | 080556 | 2902951532 |
| 25. | Tahirzadə Pərviz Tahir oğlu | 26.12.2017 | SA-0027 | 2904533382 |
| 26. | Talıbov Dəyanət Məhəmməd oğlu | 04.07.2013 | 000948 | 4500430192 |
| 27. | Vəliyev Nizami İsa oğlu | 28.04.2009 | 000112 | 8200065562 |
| 28. | Zeynalov Aslan Mirmövsüm oğlu | 30.01.2012 | 000549 | 1402157602 |


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

balansında olan "Babək" və "Koroğlu" gəmiləri üçün "Wartsila W9L20" baş mühərrikinin ehtiyat hissələrinin satın alınması məqsədi ilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 oktyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küç. 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

***Tender komissiyası***









## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti


# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə qardaşı

**HAFİZ HÜSEYNZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Boks Federasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə qardaşı

**HAFİZ HÜSEYNZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6502
Sifariş 2827
Qiyməti 40 qəpik